RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 108 (10128) 23 iyun 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Münasibətlərimiz möhkəm təməllər üzərində qurulub



## Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycana dövlət səfəri edib

İyunun 22-də Azərbaycanda səfərdə olan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Bakıda rəsmi qarşılanma mərasimi keçirilib.

Sonra Prezident İlham Əliyevin Türkmənistan Prezidenti ilə təkbətək və geniş tərkibdə görüşləri olub.

Azərbaycan və Türkmənistan prezidentlərinin iştirakı ilə "Dostlug" tankerinin onlayn formatda hədiyyə olunması mərasimi keçirilib.

Daha sonra Azərbaycan ilə Türkmənistan arasında imzalanmış sənədlər mübadilə olunub.

Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyevin adından Türkmənistan Prezidentinin şərəfinə dövlət ziyafəti verilib.

Həmin gün Türkmənistan Prezidenti Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını və Zəfər parkını ziyarət edib.

2-4

## Prezident İlham Əliyevin innovativ davamlı inkişaf siyasətində dövlət qulluğunun strateji rolu



Prezident İlham Əliyevin inkişaf konsepsiyasına görə, elmlilik universal tələb kimi bütün sahələri əhatə edir. Lakin bu prinsip dövlət idarəçiliyi üçün xüsusi əhəmiyyət daşıyır və ölkənin iqtisadi, sosial, ekoloji və hərbi təhlükəsizliyi baxımından mühüm önəm kəsb edir. Bu səbəbdən dövlət qulluqçularının hazırlanması, onların bilik və bacarıqlarının daim yenilənməsi, bu prosesin təşkili və davamlı təkmilləşdirilməsi milli inkişaf strategiyasının vacib şərtlərindən biridir.

Elm və təhsil sahələrinin inkişafına xüsusi diqqət yetirən, hər zaman bu istiqamətdə fəaliyyətə böyük önəm verən Ulu Öndər Heydər Əliyev dövlət qulluğu sisteminin qurulması və dövlət qulluqçularının hazırlanmasını mühüm vəzifələrdən biri hesab edirdi. Onun 3 yanvar 1999-cu il tarixli 60 nömrəli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradılmış və bu quruma dövlət idarəçiliyi, dövlət qulluğunun təşkilinin elmi əsasları və kadr hazırlığı, eləcə də bu sahələrin analitik-informasiya təminatı üzrə ölkənin aparıcı elm və təhsil mərkəzi statusu verilmişdir.

9

## Böyük qayıdış və Azərbaycanın strateji gələcəyi

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyimiz böyük qələbə və 2023-cü ildə aparılmış qısamüddətli antiterror əməliyyatı nəticəsində ölkəmizin bütün ərazilərində dövlət suverenliyinin tam bərpa olunması məhz belə dönüş nöqtələridir.

Bu qələbə yalnız işğal altındakı torpaqların azad edilməsi ilə yekunlaşmadı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi məsuliyyətli və uzunmüddətli bir strateji mərhələ başlandı. Bu, dağıdılmış şəhər və kəndlərimizin yenidən qurulması, azad torpaqlarımızda həyatın bərpası və yüz minlərlə insanın doğma yurdlarına qayıdışının təmin edilməsi mərhələsidir.

Məhz bu baxımdan Böyük qayıdış müasir Azərbaycanın ən mühüm dövlət proqramlarından biri olmaqla yanaşı, həm də milli inkişaf strategiyasının əsas istiqamətinə çevrilib. Bu prosesin mahiyyəti yalnız keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması ilə məhdudlaşmır. Söhbət yeni iqtisadi modelin qurulmasından, müasir şəhərsalma prinsiplərinin tətbiqindən, dayanıqlı məşğulluğun təmin edilməsindən, innovativ kənd təsərrüfatının yaradılmasından, "yaşıl enerji" zonasının formalaşdırılmasından və bütövlükdə Qarabağla Şərqi Zəngəzurun ölkənin ümumi sosial-iqtisadi sisteminə tam inteqrasiyasından gedir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas məqsədi də məhz budur: azad edilmiş torpaqları yalnız bərpa etmək deyil, onları Azərbaycanın ən müasir və rəqabətqabiliyyətli iqtisadi regionlarından birinə çevirmək.

10

## Müasir dövrdə kənd təsərrüfatının inkişafı yeni yanaşma tələb edir

Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov son illər Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə ölkədə aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən islahatlar, qəbul edilmiş dövlət proqramları, kənd təsərrüfatına göstərilən dövlət dəstəyi və əldə edilmiş nəticələr barədə danışıb. Bildirib ki, keyfiyyətcə yeni mərhələyə keçidin vacibliyi, aqrar sahədə məhsuldarlığın və rəqabət



qabiliyyətinin daha da artırılması yeni yanaşmaların tətbiqini zəruri edir. Qeyd edib ki, bu məqsədlə qəbul olunmuş 2026-2030-cu illər üçün dövlət proqramı kənd təsərrüfatının yeni inkişaf mərhələsini müəyyən edən strateji sənəddir. Proqram aqrar sahədə intensiv istehsal modelinə keçidin sürətləndirilməsini, emal və ixrac imkanlarının genişləndirilməsini, eləcə də ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsini nəzərdə tutur.

7

## "Parlament diplomatiyası Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirir"

Parlament bir çox nüfuzlu təşkilatın - Parlamentlərarası İttifaq, ATƏT PA, MDB PA, Asiya PA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı PA, GUAM PA, TÜRKPA və NATO PA-nın işində aktiv təmsil olunur. Məhz bu təşkilatlar çərçivəsində aparılan uğurlu əməkdaşlıq fəaliyyəti nəticəsində vaxtilə Ermənistanın işğalçılıq siyasətini ifşa edən qərarlar qəbul edilib. Belə təşkilatlar sırasında İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı xüsusi qeyd edilməlidir. Bu təşkilat vaxtilə Ermənistanın işğalçılıq



siyasətini dəfələrlə pisləməklə yanaşı, Xocalı soyqırımını da tanıyıb. Hazırda isə Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası keçirilir.

Məlumdur ki, müasir beynəlxalq münasibətlər sistemində parlament diplomatiyasının artan nüfuzu artıq reallıqdır. Məhz bunun nəticəsidir ki, son illər qanunverici orqan vasitəsilə atılan addımlar Azərbaycanın dövlət siyasətinin mühüm komponentinə çevrilib. Parlament diplomatiyasının məqsədi dövlətlər və regionlar arasında əlaqələrin və inteqrasiyanın dərinləşdirilməsinə nail olmaqdır.

8

◆ Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri

# Münasibətlərimiz möhkəm təməllər üzərində qurulub

## Rəsmi qarşılanma mərasimi







**İyunun 22-də Azərbaycan Respublikasına dövlət səfərinə gələn Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Türkmənistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Türkmənistan Prezidentinə raport verdi.

Türkmənistanın və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun qarşısından keçdi. Azərbaycan nümayəndə heyətinin üzvləri Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova, Türkmənistan nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Təkbətək görüş





İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə təkbətək görüşü olub.

## Geniş tərkibdə görüş

**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə geniş tərkibdə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycana dövlət səfərinə gəldiyinə görə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova təşəkkür edən dövlətimizin başçısı **İlham Əliyev** bu səfərə çox böyük əhəmiyyət verdiyini, onun ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin möhkəmlənməsinə xidmət göstərəcəyinə əminliyini ifadə etdi.

Qarşılıqlı fəaliyyətin bütün sahələrini əhatə edən geniş gündəliyin olduğunu, bu gün bir çox məsələ üzrə fikir mübadiləsinin aparıldığını, müzakirələrin nümayəndə heyətlərinin iştirakı ilə davam etdiriləcəyini vurğulayan Prezident İlham Əliyev Türkmənistan Prezidentinin Azərbaycana geniş nümayəndə heyəti ilə səfər etməsindən məmnun olduğunu dedi. Dövlətimizin başçısı Türkmənistan nümayəndə heyətinin üzvlərinin səfər çərçivəsində azərbaycanlı həmkarları ilə səmərəli müzakirələr aparacaqlarına əminliyini bildirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında imzalanacaq sənədlərin əhəmiyyətinə də toxundu, bunu münasibətlərimizin geniş gündəliyinin göstəricisi kimi qiymətləndirdi.

Füzuli şəhərinə məscid hədiyyə etdiyinə görə Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədova və Türkmənistana minnətdarlığını bildirən dövlətimizin başçısı bununla bağlı qərarın ötən il Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfəri çərçivəsində qəbul edildiyini və onun təməlinin Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilmiş Zirvə Görüşü çərçivəsində qoyulduğunu xatırlatdı. Prezident İlham Əliyev Türkmənistan tərəfindən bu məscidin hədiyyə edilməsini ölkələrimiz arasında səmimi qardaşlıq münasibətlərinin daha bir nümayişi olduğunu dedi.

Türkmənistanda Azərbaycanın Mədəniyyət Günləri çərçivəsində yaradıcı kollektivlərimizə göstərilən qonaqpərvərliyə görə türkmən tərəfinə minnətdarlığını ifadə edən dövlətimizin başçısı ötən il ölkəmizdə Türkmənistan Mədəniyyət Günlərinin keçirildiyini xatırladaraq, humanitar sahədə belə dinamik əməkdaşlığın təbii olduğunu vurğuladı. Xalqlarımızı ortaq tarixin birləşdirdiyini qeyd edən Prezident İlham Əliyev bunun, həmçinin qarşılıqlı fəaliyyətimizdə də mühüm amil olduğunu dedi.

Hazırda qarşıda qlobal gündəlikdə olan məsələlərin - nəqliyyat və enerji təhlükəsizliyinin dayandığını vurğulayan dövlətimizin başçısı bu xüsusda Azərbaycanın və Türkmənistanın həm milli səviyyədə, həm də birgə təşəbbüslər vasitəsilə yalnız regionda deyil, həm də qlobal səviyyədə çox mühüm rol oynadıqlarını, bu rolun gələcəkdə daha da artacağını dedi. Bu xüsusda Azərbaycan Prezidenti qeyd etdi ki, geniş Avrasiya qitəsində geosiyasi proseslərin müsbət inkişafı bir çox halda bu sahələrdə sıx qarşılıqlı fəaliyyətimizdən asılı olacaq.

* * *

Görüşdə çıxış edən Prezident **Sərdar Berdiməhəmmədov** səmimi qəbula, göstərilən qonaqpərvərliyə və Azərbaycana dövlət səfərinə dəvətə görə minnətdarlığını bildirdi.

Türkmənistanla Azərbaycan arasında siyasi, diplomatik, iqtisadi-ticari, mədəni-humanitar və digər sahələrdə sıx əlaqələrin qurulduğunu, yüksəksəviyyəli təmasların, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin uğurlu inkişafında mühüm rol oynadığını vurğulayan Sərdar Berdiməhəmmədov ötən il türkmən xalqının Milli Liderinin Azərbaycana, Prezident İlham Əliyevin isə Türkmənistana səfərlərini xatırladaraq, bu görüşlərin siyasi dialoqun, iqtisadi tərəfdaşlığın və humanitar əməkdaşlığın inkişafı üçün yeni istiqamətlər müəyyənləşdirdiyini dedi.

Sərdar Berdiməhəmmədov beynəlxalq arenada, həmçinin BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və MDB çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğuladı. Ali qonaq Azərbaycanın Türkmənistanın neytral xarici siyasətinə, sülh və davamlı inkişaf naminə irəli sürdüyü beynəlxalq təşəbbüslərə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini deyərək, eyni zamanda Türkmənistanın da Azərbaycanın beynəlxalq əhəmiyyətli təşəbbüslərini dəstəklədiyini qeyd etdi, bu ənənənin gələcəkdə də davam etdiriləcəyini bildirdi.

Xəzər dənizi ilə bağlı əməkdaşlığa toxunan Türkmənistan Prezidenti təhlükəsizlik, iqtisadiyyat, ekologiya və ətraf mühitin mühafizəsi sahələrində birgə fəaliyyətin hər iki ölkə üçün mühüm əhəmiyyət daşıdığını vurğuladı. Bu xüsusda Türkmənistanın Xəzər dənizi məsələlərinə dair yüksəksəviyyəli görüşün keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini, həmçinin Xəzər Ekoloji Təşəbbüsünün irəlilədilməsi istiqamətində Azərbaycanın dəstəyinə ümid bəslədiyini bildirdi.

Prezident iqtisadi-ticari əməkdaşlığın ikitərəfli münasibətlərin əsas istiqamətlərindən biri olduğunu deyərək, ticarət dövriyyəsində müsbət dinamikanı yüksək qiymətləndirdi. Ali qonaq ölkələrimiz arasında mövcud potensialın daha da səmərəli reallaşdırılması üçün İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyətinin gücləndirilməsinin vacibliyinə toxundu.

Nəqliyyat-tranzit sahəsini əməkdaşlığın strateji istiqamətlərindən biri kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov Türkmənistanın və Azərbaycanın əlverişli coğrafi mövqeyinin beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı baxımından mühüm üstünlüklər yaratdığını dedi. Bu məqsədlə Türkmənistan-Azərbaycan Nəqliyyat, Tranzit və Logistika Komissiyasının fəaliyyətinin daha da fəallaşdırılmasını təklif etdi.

Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə nəqliyyat dəhlizini uğurlu əməkdaşlığın nümunəsi kimi qiymətləndirən Sərdar Berdiməhəmmədov vurğuladı ki, ölkələrimiz, həmçinin Türkmənistan-Azərbaycan-Gürcüstan-Rumıniya marşrutu üzrə Xəzər dənizi-Qara dəniz nəqliyyat dəhlizinin yaradılması təşəbbüsünü dəstəkləyir. Ali qonaq Xəzər və Qara dəniz regionlarının birləşdirilməsinin iqtisadi, ticarət və investisiya əməkdaşlığının inkişafı üçün yaxşı imkanlar açdığını dedi.

Türkmənistan Prezidenti, həmçinin neft-qaz, kimya, tekstil sənayesi və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların mövcud olduğunu vurğuladı. Sərdar Berdiməhəmmədov ölkələrimiz arasında təhsil, elm, mədəniyyət və incəsənət sahələrində fəal qarşılıqlı fəaliyyətin davam etdiyini vurğuladı. Bu xüsusda qarşılıqlı mədəniyyət günlərinin, festivalların, sərgilərin və digər tədbirlərin keçirilməsinin xalqlar arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə töhfə verdiyini qeyd etdi.

Ali qonaq hazırda həyata keçirilən mühüm mənəvi layihələrdən birinə - Füzulidə məscid tikintisinə də toxunaraq, bu təşəbbüsün xalqlarımız arasında dostluğun və qardaşlığın rəmzi olduğunu qeyd etdi.

Türkmənistan Prezidenti səfərinin ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsində mühüm mərhələ olacağına əminliyini bildirdi, dövlətimizin başçısına fəaliyyətində yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və əmin-amanlıq arzuladı.

◆ Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri

# Münasibətlərimiz möhkəm təməllər üzərində qurulub

## Azərbaycan və Türkmənistan prezidentlərinin iştirakı ilə "Dostlug" tankerinin onlayn formatda hədiyyə olunması mərasimi keçirilib



**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iştirakı ilə "Dostlug" neftdaşıyan tankerinin onlayn formatda hədiyyə olunması mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan tərəfindən Türkmənistana hədiyyə edilən "Dostlug" neftdaşıyan tankeri Bakı Gəmiqayırma Zavodunda inşa olunub. Tankerin ümumi uzunluğu 141 metr, eni 16,9 metr, suya oturumu isə 4,54 metrdir. Dedveyti 7875 ton olan tankerin Azərbaycanda inşası gəmiqayırma sənayemizin inkişafını nümayiş etdirməklə yanaşı, Azərbaycan-Türkmənistan dostluq əlaqələrinin inkişafına da töhfədir. Bu, eyni zamanda Bakı Gəmiqayırma Zavodunda irihəcmli və texnoloji baxımdan mürəkkəb gəmiqayırma layihələrinin həyata keçirilməsinin mümkün olduğunu bir daha göstərir.

Bu zavodda indiyədək 14 gəminin inşası və 170-dən çox gəminin təmiri layihələri uğurla icra olunub. Hazırda zavodun sifariş portfelinə daxil olan 17 gəmidən 11-nin inşası davam edir, 6 gəmi isə layihələndirmə mərhələsindədir.





## Azərbaycan ilə Türkmənistan arasında imzalanmış sənədlər mübadilə olunub





**Azərbaycan Respublikası ilə Türkmənistan arasında imzalanmış sənədlərin iyunun 22-də Azərbaycan Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun iştirakı ilə mübadiləsi mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov prezidentlərin Birgə Bəyanatını imzaladılar.

"Azərbaycan Respublikası ilə Türkmənistan arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında ilkin məlumat mübadiləsi üçün Texniki şərtlər"i Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və Türkmənistan Gömrük Xidmətinin sədri Maksat Xudaykulıyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Türkmənistanın Dövlət Gömrük Xidməti arasında qarşılıqlı ticarətin gömrük statistikası sahəsində əməkdaşlıq haqqında Protokol"u Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və Türkmənistan Gömrük Xidmətinin sədri Maksat Xudaykulıyev mübadilə etdilər.

"Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Türkmənistanın Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Komitəsi arasında idman sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov və Türkmənistan Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Komitəsinin sədri Allaberdi Saparov mübadilə etdilər.



"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkmənistanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında əmək və əhalinin sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev və Türkmənistanın əmək və əhalinin sosial müdafiəsi naziri Muxammetseyit Sılapov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Türkmənistanın Səhiyyə və Tibb Sənayesi Nazirliyi arasında səhiyyə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın səhiyyə naziri Teymur Musayev və Türkmənistanın səhiyyə və tibb sənayesi naziri Mıratberdi Qayıpov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın səhiyyə və tibb sənayesi naziri Mıratberdi Qayıpov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2026-2028-ci illər üzrə sənaye sahəsində əməkdaşlıq Proqramı"nı Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın sənaye və tikinti istehsalatı naziri Toyqulı Nurov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, Türkmənneft Dövlət Konserninin sədri Quvanç Aqacanov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Türkmənistanın Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xodcamırat Qeldımıradov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə Türkmənistan Maliyyə və İqtisadiyyat Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xodcamırat Qeldımıradov mübadilə etdilər.

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında iqtisadi əməkdaşlığın inkişafı və dərinləşdirilməsinin əsas istiqamətləri haqqında Saziş"i Azərbaycan-Türkmənistan Birgə Hökumətlərarası Komissiyanın həmsədri, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini Xodcamırat Qeldımıradov mübadilə etdilər.

"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Türkmənistanın Xarici İşlər Nazirliyi arasında 2026-2029-cu illər üçün Əməkdaşlıq Proqramı"nı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Türkmənistanın Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov mübadilə etdilər.

# Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

**İyunun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov mətbuata bəyanatlarla çıxış ediblər.**
**AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Sərdar Qurbanquluyeviç, hörmətli qonaqlar, əziz dostlar. Əziz qonağımızı - dövlət səfərində olan Türkmənistan Prezidentini salamlamaqdan bir daha şadam.

Dəvətimi qəbul etdiyinə və Azərbaycana səfərə gəldiyinə görə cənab Prezidentə bir daha təşəkkürümü bildirirəm. Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edəcək.

Bu gün həm təkbətək, həm də geniş tərkibdə danışıqlar aparıldı. İkitərəfli əməkdaşlığın bir çox məsələləri müzakirə edildi və əməkdaşlığımızın gələcək inkişafı yolları müəyyənləşdirildi.

Qarabağın bərpasında köməyə görə Türkmənistana, əziz qardaşım Arkadağ Qurbanqulu Məlikquliyeviç Berdiməhəmmədova bir daha təşəkkürümü bildirmək istərdim. O, ötən ilin iyulunda ölkəmizə səfər edərkən Füzuli şəhərində məscidin tikintisi təşəbbüsünü irəli sürdü və artıq tikintiyə başlanılıb. Bu, Türkmənistanın, onun Ümummilli Liderinin və bütün qardaş Türkmənistan xalqının Azərbaycana səmimi, dostcasına münasibətinin daha bir göstəricisi idi.

Mən həmçinin Sərdar Qurbanquluyeviçə əməkdaşlığa görə minnətdaram. Bu gün, artıq qeyd etdiyim kimi, bir çox məsələlər üzrə ətraflı fikir mübadiləsi apardıq. Konkret tapşırıqlar verildi. Əminəm ki, gələn ay Türkmənistanda keçiriləcək Hökumətlərarası Komissiya çərçivəsində bu gün verdiyimiz tapşırıqlar həmin vaxta qədər hərtərəfli işlənib hazırlanacaq və biz yeni birgə problemlərin həlli, yeni layihələrin reallaşdırılması mərhələsinə keçəcəyik.



Münasibətlərimiz möhkəm təməl - tarixi bağlar, mədəni əlaqələr və mənəvi əlaqələr üzərində qurulub. Biz müntəzəm olaraq yaradıcı kollektivlərin çıxışlarını təşkil edirik. Elə bu yaxınlarda, bu ayın əvvəlində həm Aşqabadda, həm də Arkadağda Azərbaycan Mədəniyyəti Günləri keçirildi. Keçən il isə Türkmənistanın mədəniyyət xadimləri həm Bakıda, həm də Gəncədə keçirilən Mədəniyyət Günlərində bizi ziyarət etdilər.

Onu da qeyd etməliyəm ki, Bakı və Aşqabad Arkadağ və Füzuli kimi qardaş şəhərlərdir. Bütün bunlar bizim birliyimizin nümayişidir. Əməkdaşlığımızı konkret məzmunla zənginləşdirməyə və qarşılıqlı fəaliyyətimizi dərinləşdirməyə çalışırıq.

Həmçinin Türkmənistan tərəfinə Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv qəbul edilməsində fəal dəstəyinə görə bir daha təşəkkürümü bildirmək istərdim. Mən buna tarixi hadisə kimi baxıram, çünki coğrafi olaraq Mərkəzi Asiyanın bir hissəsi olmasaq da, mədəni və tarixi əlaqələrimiz, həmçinin bu gün regional qarşılıqlı əlaqə və nəqliyyat-logistika problemləri ilə bağlı həll etdiyimiz konkret məsələlər təbii olaraq böyük Mərkəzi Asiyanın vahid geosiyasi və geoiqtisadi bölgə kimi qəbul edilməsi üçün ilkin şərtlər yaradır. Təbii ki, biz ilk gündən çoxtərəfli formatda fəal qarşılıqlı fəaliyyət göstərməyə başladıq.

*Ardı 4-cü səh.*

◆ Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri

# Münasibətlərimiz möhkəm təməllər üzərində qurulub

## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

*Əvvəli 3-cü səh.*

Bu gün nəqliyyat-logistika sahəsi haqqında da çox danışıldı. Təbii ki, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq artıq uzunmüddətli xarakter daşıyır, hətta deyərdim ki, bu, təkcə bizim üçün deyil, təkcə qonşularımız üçün deyil, həm də geniş bir coğrafiya üçün strateji əhəmiyyətə malikdir. Çünki bu gün dünyada öz aralarında əməkdaşlıq edən ölkələri birləşdirən çox etibarlı, təhlükəsiz nəqliyyat marşrutları o qədər də çox deyil. Bu, böyük nailiyyətdir. Belə olan halda nəqliyyat və logistika layihələrini siyasi qarşılıqlı fəaliyyətdən təcrid olunmuş şəkildə nəzərdən keçirmək mümkün deyil. Siyasi qarşılıqlı fəaliyyət olmasaydı, heç bir coğrafi şərait səylərimizi birləşdirməyə imkan verməzdi. Biz isə həm birgə səylərimiz nəticəsində artıq artan yük axınlarını daha da artırmaq, həm də üçüncü ölkələrdən yükdaşımaları cəlb etmək üçün nəqliyyat və logistika sektorundakı fəaliyyətimizi daha da əlaqələndirmək barədə razılığa gəldik. Buna görə də bu sahə təbii ki, həm ikitərəfli, həm də çoxtərəfli qarşılıqlı fəaliyyətimizin prioriteti olacaq.

Əlbəttə, Türkmənistan və Azərbaycan geniş faydalı qazıntılara və enerji ehtiyatlarına malik iki ölkədir. Belə olan halda biz səylərimizi birləşdirmək üzrə əməkdaşlıq etmək niyyətindəyik.

Əlbəttə ki, qardaş türkmən xalqını və onun rəhbərliyini sosial-iqtisadi inkişafda əldə edilən əhəmiyyətli nailiyyətlər münasibətilə təbrik etmək istərdim. Mən artıq uzun illər ərzində dəfələrlə Türkmənistana səfər etmişəm və qardaş ölkəmizin davamlı inkişafına, şəhərlərin necə yaxşılaşdığına, infrastrukturun, o cümlədən turizmin necə qurulduğuna həmişə əmin olmuşam. Bütün bunlar rəhbərliyin müdrikliyindən və milli maraqların prioritet olmasından xəbər verir. Biz, dostlarınız və qardaşlarınız olaraq, beynəlxalq arena da daxil olmaqla, uğurlarınıza həmişə sevinirik və artıq dünyada geniş ictimai dəstək qazanmış Türkmənistanın neytrallıq siyasətini həmişə dəstəkləmişik və dəstəkləməyə davam edəcəyik.

Hörmətli cənab Prezident, Sizi bir daha salamlayıram və əziz qardaşım Arkadağa və Türkmənistanın bütün xalqına ən xoş arzularımı çatdırmağınızı xahiş edirəm.



* * *

Sonra bəyanatla çıxış edən Türkmənistan Prezidenti **Sərdar Berdiməhəmmədov** səmimi qəbula, qonaqpərvərliyə və birgə iş üçün yaradılan gözəl şəraitə görə dövlətimizin başçısına bir daha minnətdarlığını bildirdi, təkbətək və geniş tərkibdə görüşlər zamanı ikitərəfli münasibətlərimizin hazırkı vəziyyətinin və perspektivlərinin müzakirə olunduğunu dedi.

İkitərəfli əməkdaşlığın hazırkı səviyyəsinin yüksək qiymətləndirildiyini qeyd edən ali qonaq ölkələrimiz arasında münasibətlərin bərabərhüquqlu və qarşılıqlı faydalı prinsiplər əsasında dinamik və ardıcıl şəkildə inkişaf etdiyini məmnunluqla vurğuladı.

"İki ölkənin nüfuzlu beynəlxalq və regional təşkilatlar çərçivəsində fəal əməkdaşlığı davam etdirməyə hazır olduğu təsdiqləndi. Həmçinin Türkmənistanla Azərbaycan Respublikası arasında sıx qarşılıqlı fəaliyyət Xəzər dənizində beştərəfli əməkdaşlıq çərçivəsində davam etdiriləcək", - deyən Sərdar Berdiməhəmmədov iqtisadi-ticari əməkdaşlığın da ətraflı müzakirə olunduğunu bildirdi. Energetika, nəqliyyat, kimya, tekstil sənayeləri və bir sıra digər sahələrin prioritet istiqamətlər kimi müəyyənləşdirildiyini qeyd edən Türkmənistan Prezidenti ölkələrimizin ərazilərindən "Şərq-Qərb" xətti üzrə nəqliyyat və tranzit dəhlizlərinin yaradılmasında sıx əməkdaşlıq etmək barədə razılığın əldə olunduğunu vurğuladı.

Mədəni və humanitar əlaqələrin inkişafına ayrıca diqqətin yetirildiyini bildirən ali qonaq dedi ki, görüşlər çərçivəsində mədəniyyət xadimlərimiz arasında təmasların davam etdirilməsinə və genişləndirilməsinə, həmçinin hər il mədəniyyət günlərinin keçirilməsinə hər iki ölkənin hazır olduğu təsdiqlənib.

"Nümayəndə heyətimiz bugünkü görüşün nəticələrini yüksək qiymətləndirir. Görüşün yekunlarına dair ikitərəfli mühüm sənədlər zərfi imzalandı. Türkmənistan və Azərbaycan Respublikası arasında əməkdaşlıq bütün əsas sahələr üzrə inkişaf edəcək. Bu, ölkələrimizin və xalqlarımızın uzunmüddətli maraqlarına cavab verir", - deyə Sərdar Berdiməhəmmədov vurğuladı.

İkitərəfli əlaqələrimizin möhkəmləndirilməsinə Azərbaycan Prezidentinin böyük şəxsi töhfəsini xüsusi qeyd edən Türkmənistanın dövlət başçısı buna görə minnətdarlığını bildirdi.

"Dostlug" neft tankerinin hədiyyə olunmasına görə də təşəkkür edən Sərdar Berdiməhəmmədov bunu ölkələrimiz arasındakı qardaşlıq münasibətlərinin rəmzi kimi qəbul etdiklərini vurğuladı, bu tankerin ölkələrimizin tərəqqisinə töhfə verəcəyinə və uğurlu əməkdaşlığımızın daha bir təzahürü olacağına əminliyini ifadə etdi.

Ali qonaq Türkmənistanın Azərbaycanla əməkdaşlığın daha da inkişafına böyük əhəmiyyət verdiyini deyərək, ölkələrimizi və xalqlarımızı əsrlər boyu mehriban qonşuluq ənənələri, ortaq tarix, mədəniyyət, dil və mənəvi dəyərlərin birləşdirdiyini vurğuladı.

"Yekun olaraq qeyd etmək istərdim ki, Azərbaycan Respublikası tərəqqi və çiçəklənmə yolu ilə inamla irəliləyir", - deyən ali qonaq qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və davamlı tərəqqi arzuladı.

## Prezident İlham Əliyevin adından Türkmənistan Prezidentinin şərəfinə dövlət ziyafəti verilib





**İyunun 22-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun şərəfinə dövlət ziyafəti verilib.**

AZƏRTAC xəbər verir ki, ziyafətdə Azərbaycan və Türkmənistan musiqilərindən ibarət konsert proqramı təqdim olunub.

## Türkmənistan Prezidenti Zəfər parkını ziyarət edib



**Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 22-də Bakıda Zəfər parkını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidenti parkdakı Zəfər abidəsinin önünə əklil qoyub.

Sonra ali qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib. Bildirilib ki, ərazisi 10 hektara yaxın olan parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

## Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ehtiram



**Azərbaycanda dövlət səfərində olan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.**

AZƏRTAC xəbər verir ki, Türkmənistan Prezidenti Ulu Öndərin məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da məzarı ziyarət edilib, önünə tər güllər düzülüb.

## Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma



**İyunun 22-də Türkmənistanın Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycan Respublikasına dövlət səfərinə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər qarşıladılar.

# Azərbaycanla İordaniya arasında əlaqələr dostluq və qardaşlıq üzərində qurulub

## Prezident İlham Əliyev İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycanla İordaniya arasında əlaqələrin dostluq və qardaşlıq üzərində qurulduğunu deyərək, ölkələrimizin hər zaman bir-birinə qarşılıqlı dəstək nümayiş etdirdiyini vurğuladı, siyasi, iqtisadi, humanitar, parlamentlərarası əlaqələr və digər sahələrdə gələcəkdə əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini bildirdi.

İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçiriləcək 20-ci sessiyasında Mazen Torki Saud Əl-Qadinin iştirak etməsinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev onun bu səfərinin ikitərəfli münasibətlərimizin inkişafına töhfə verəcəyini vurğuladı, eyni zamanda ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün də yaxşı imkan yaratdığını dedi.

Mazen Torki Saud Əl-Qadi İordaniyanın Kralı II Abdullah ibn Al Hüseynin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İordaniyanın Kralına çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Kral II Abdullah ibn Al Hüseyni ölkəmizə səfərə dəvət etdi.

Qəbula və göstərilən qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirən qonaq bunu Azərbaycanla İordaniya arasında mövcud dostluq və qardaşlıq münasibətlərinin göstəricisi kimi dəyərləndirdi.

O, Azərbaycan Prezidentinin və İordaniya Kralının siyasi iradəsi nəticəsində ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etməsini məmnunluqla vurğuladı.

Qonaq Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti nəticəsində bu gün Azərbaycanın gözəl və təhlükəsiz ölkəyə çevrildiyini dedi. O həmçinin vurğuladı ki, Azərbaycanda mövcud olan sıx xalq-iqtidar birliyi dövlətimizin başçısının həyata keçirdiyi siyasət sayəsində ölkədə ictimai ədalətin təmin edilməsindən xəbər verir.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa, həmçinin ərəb və islam dünyasını narahat edən məsələlərə həmişə böyük diqqətlə yanaşdığını, islam həmrəyliyini daim dəstəklədiyini vurğulayan Mazen Torki Saud Əl-Qadi ölkəmizin Fələstin məsələsində tutduğu birmənalı və ədalətli mövqeyin yüksək qiymətləndirildiyini dedi.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi münasibətilə bir daha təbriklərini çatdıran qonaq Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını vurğuladı.

Mazen Torki Saud Əl-Qadi, həmçinin Bakı şəhərinin gözəlliyinin və təmizliyinin onda zəngin təəssürat yaratdığını qeyd etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı öz növbəsində Kral II Abdullah ibn Al Hüseynin rəhbərliyi ilə İordaniyanın da uğurla inkişaf etdiyini dedi.

Azərbaycanın islam həmrəyliyinə daim dəstək nümayiş etdirdiyini vurğulayan Prezident İlham Əliyev Fələstin məsələsində ölkəmizin Əl-Qüds Əl-Şərif paytaxt olmaqla iki dövlət həll yolunu daim dəstəklədiyini qeyd etdi.

Görüşdə əlaqələrimizin perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü və Qurban bayramı münasibətilə İraq Kürdüstan Regionunun hökuməti adından zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunam.

Bu bayramlar münasibətilə ölkənizə və xalqınıza davamlı tərəqqi, sülh, əmin-amanlıq, xoşbəxtlik və firavanlıq arzulayıram.

İraq Kürdüstan Regionu hökumətinin Azərbaycanla dostluq və əməkdaşlıq əlaqələrinin xalqlarımızın mənafeyi naminə daha da möhkəmləndirilməsinə sadiqliyini bir daha təsdiqləyirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məsrur BƏRZANİ,***
***İraq Kürdüstan Regionunun Baş naziri***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Vyetnam dövləti və xalqı adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycanın yaxın dostu olan Vyetnam Sizin rəhbərliyinizlə ölkənin inkişafı, beynəlxalq arenada mövqeyinin möhkəmlənməsi ilə bağlı əldə etdiyi uğurları diqqətlə izləyir və bu nailiyyətlərə sevinir.

Məmnunluqla qeyd edirəm ki, ötən dövr ərzində ölkələrimiz arasında ənənəvi dostluq münasibətləri, strateji tərəfdaşlıq durmadan möhkəmlənir və inkişaf edir. Qəti əminəm ki, Vyetnam ilə Azərbaycan arasında bu təmələ əsaslanan münasibətlər gələcəkdə də inkişaf edəcək, iki ölkənin tərəqqisinə, xalqlarımızın rifahına, bütün dünyada sülhə və inkişafa töhfə verəcək.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti vəzifənizdə böyük uğurlar, Azərbaycan Respublikasına davamlı tərəqqi, xalqınıza firavanlıq arzulayıram. Yaxın vaxtlarda Sizin Vyetnama səfər edəcəyinizi gözləyirəm.

*Hörmətlə,*

***To LAM,***
***Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi,***
***Vyetnam Sosialist Respublikasının Prezidenti***

# H.R.Quliyevin 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Hüseyn Rzaqulu oğlu Quliyev 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2026-cı il*

# Baş nazir Əli Əsədov İordaniya Nümayəndələr Palatasının sədri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 22-də İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Saud Əl-Qadinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının Bakıda keçirilməsinin əhəmiyyəti qeyd edilib.



Azərbaycan ilə İordaniya arasında münasibətlərin dostluq, qarşılıqlı hörmət və səmərəli əməkdaşlıq prinsipləri əsasında uğurla inkişaf etdiyi bildirilib.

İki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığın və qarşılıqlı dəstəyin önəmi vurğulanıb.

Söhbət zamanı həmçinin Azərbaycan ilə İordaniya arasında qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlıq perspektivləri müzakirə olunub.

# İordaniya Haşimilər Krallığı Xalq Məclisinin Nümayəndələr Palatasının sədri ölkəmizdə səfərdədir

**İordaniya Haşimilər Krallığı Xalq Məclisinin Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadi iyunun 20-də Azərbaycana səfərə gəlib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında İordaniya parlament nümayəndə heyətini Milli Məclisin Sədr müavini Musa Qasımlı, hər iki ölkənin səfirləri Şahin Abdullayev, Ömər Bərəkət Əl-Nəhar və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Nümayəndələr Palatasının sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edəcək, ölkəmizin rəsmiləri ilə bir sıra görüşlər keçirəcək.

Səfər iyunun 26-da başa çatacaq.

***"Azərbaycan"***

# Yəmən Nümayəndələr Palatasının sədri ölkəmizə səfərə gəlib



**Yəmən Nümayəndələr Palatasının sədri Sultan Səid Əl-Bərkani Azərbaycana işgüzar səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Nümayəndələr Palatasının sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edəcək.

***"Azərbaycan"***

# İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının spikeri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib

İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadi ölkəmizə rəsmi səfəri çərçivəsində iyunun 22-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İordaniya Nümayəndələr Palatası spikerinin başçılıq etdiyi parlament nümayəndə heyəti, həmçinin Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub, Vətən müharibəsində həlak olanların xatirəsini ehtiramla anıb. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.




Ziyarət zamanı Mazen Torki Əl-Qadini Milli Məclis Sədrinin müavini Musa Qasımlı, Azərbaycanın İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***

# Mozambik Respublika Assambleyasının sədri Azərbaycana səfərə gəlib

**Mozambik Respublika Assambleyasının sədri Margarida Talapa Azərbaycana işgüzar səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Respublika Assambleyasının sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edəcək.

***"Azərbaycan"***



# Niger Məsləhət Şurasının sədri ölkəmizə səfərə gəlib



**Niger Respublikası Məsləhət Şurasının sədri Mamoudu Haruna Cinqarey Azərbaycana işgüzar səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Məsləhət Şurasının sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edəcək.

***"Azərbaycan"***

# Avropa Şurasının Bakı ofisinin rəhbəri Xarici İşlər Nazirliyinə çağırılıb

**İyunun 22-də Avropa Şurasının (AŞ) Bakı ofisinin rəhbəri Petr Zix Xarici İşlər Nazirliyinə çağırılıb.**

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Qeyd olunub ki, görüş zamanı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin ölkəmizə qarşı qəbul etdiyi 18 iyun tarixli qərarına dair kəskin etiraz bildirilib, bu qərarın ədalətsiz, qərəzli və beynəlxalq hüququn müddəalarına zidd olduğu vurğulanıb.

"Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 16 iyun 2016-cı il tarixli qərarında Azərbaycan ərazilərinin Ermənistan tərəfindən faktiki işğal olunması, işğalçı rejimin Ermənistanın birbaşa hərbi və maliyyə dəstəyi ilə mövcudluğu təsbit edildiyi halda, hazırkı qərarda həmin ərazilərin müstəqil subyekt kimi "DQR" adlandırılmasının beynəlxalq hüquqa və məhkəmə prosedurlarına zidd olduğu bildirilib.

Bundan əlavə, məhkəmənin məlum qərarında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suverenliyi və ərazi bütövlüyü ilə ziddiyyət təşkil edən terminologiyanın istifadəsinə etiraz bildirilib. "Azərbaycanla "DQR" arasında təmas xətti", eləcə də qondarma rejimin ordusu, hakimiyyət orqanları, baş prokuroru və ombudsmanı kimi ifadələrin qərarda yer almasının keçmiş qanunsuz separatçı rejimi legitimləşdirmək cəhdi olduğu bildirilib.

Görüş zamanı Azərbaycan Respublikasının məhkəmənin bu qərarını qəti şəkildə rədd etdiyi, Azərbaycan tərəfinin öz qanuni maraqlarını qorumaq üçün bütün mümkün vasitələri nəzərdən keçirəcəyi və müvafiq addımlar atacağı diqqətə çatdırılıb.

# Azərbaycan-İordaniya ikitərəfli münasibətləri yüksək səviyyəyə çatıb



**İyunun 22-də ölkəmizdə rəsmi səfərdə olan İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadinin başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisə gəlib. Qonaqları Milli Məclisin Sədri Sahibə Qafarova qarşılayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Nümayəndələr Palatasının sədri əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Ulu Öndər Heydər Əliyevin adını daşıyan xatirə zalına gələn qonaqlar burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatının və siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlara baxıblar. Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadi buradakı Xatirə kitabına ürək sözlərini yazıb.

Sonra tərəflər arasında geniş tərkibdə görüş keçirilib. Milli Məclisin Sədri qonaqların Prezident İlham Əliyevlə görüşü zamanı bir sıra mühüm məsələlərin müzakirə edildiyini qeyd edib. Spiker diqqətə çatdırıb ki, bu gün Azərbaycanın qazandığı uğurlar Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətinin nəticəsidir. Sədr iki dost və qardaş ölkələr olan Azərbaycan ilə İordaniya arasında ikitərəfli münasibətlərin yüksək səviyyəyə çatdığını, bu sahədə dövlət başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin mühüm rol oynadığını vurğulayıb. Bildirilib ki, ölkələrimiz arasında BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək də məmnunluq doğurur.

Spiker ötən ay Monteneqroda Aralıq Dənizi Parlament Assambleyasının parlament sədrlərinin birinci konfransı çərçivəsində qonaqla görüşünü xatırladaraq, ölkələrimiz arasında parlamentlərarası əlaqələrin mövcud səviyyəsini yüksək dəyərləndirib, bu münasibətlərin dərinləşməsində qarşılıqlı səfərlərin rolunu və parlament dostluq qruplarının fəaliyyətini vurğulayıb. O, İordaniya parlamentinin Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin işində yaxından iştirakından məmnunluğunu bildirib.

İordaniya Haşimilər Krallığı Nümayəndələr Palatasının sədri Mazen Torki Əl-Qadi Azərbaycana səfərə dəvətə və görüşə görə təşəkkürünü bildirib. Prezident İlham Əliyevlə görüşünə dair təəssüratlarını bölüşən qonaq iki ölkə arasındakı münasibətlərin dövlət başçılarımızın təşəbbüsləri və səyləri ilə inkişaf etdiyini vurğulayıb. Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının əhəmiyyətindən danışan qonaq bu tədbirin mühüm məsələlərin müzakirəsində vacib platforma olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı Nümayəndələr Palatasının sədri parlamentlər arasında əlaqələrin inkişafı, qanunvericilik sahəsində təcrübə mübadiləsi, investisiyaların təşviqi, humanitar, gənclərlə iş sahələrində əməkdaşlıq və digər mövzularda fikirlərini açıqlayıb. O, bu səfərin və Azərbaycan parlamentinin Sədri ilə görüşünün parlamentlər arasında əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkan olduğunu vurğulayıb. Söhbət zamanı həmçinin parlamentlərin komitələri və dostluq qrupları arasında əməkdaşlıq imkanlarına diqqət yetirilib, o cümlədən beynəlxalq parlament təşkilatlarında qarşılıqlı dəstəyin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Qlobal Tolerantlıq və Sülh Şurasının sədri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 22-də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Qlobal Tolerantlıq və Sülh Şurasının sədri Əhməd Məhəmməd Əlcərvan ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Parlament İttifaqının müsəlman ölkələri və onların qanunverici orqanları arasında münasibətlərin daha da dərinləşməsində vacib rolu qeyd olunaraq, təşkilatın Bakının evsahibliyi ilə keçiriləcək 20-ci sessiyanın uğurla təşkil olunacağına inam ifadə edilib. Eyni zamanda bu tədbirin İƏT Parlament İttifaqının gələcək fəaliyyətinə uğurlu töhfələr verəcəyi qeyd olunub.

Söhbət zamanı Azərbaycan parlamenti ilə Qlobal Tolerantlıq və Sülh Şurasının parlament ölçüsü olan Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında əməkdaşlığa dair fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, Milli Məclislə Tolerantlıq və Sülh naminə Beynəlxalq Parlament arasında imzalanmış Anlaşma Memorandumu tərəflər arasında əlaqələrin daha da genişlənməsi üçün əlverişli imkanlar yaradır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparılıb.

*"Azərbaycan"*

# Münasibətlərin dərinləşməsində parlamentlərarası əməkdaşlığın özünəməxsus rolu var

**Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Mərakeş Krallığı Nümayəndələr Palatası sədrinin müavini Mohamed Qayat ilə görüşüb.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan və Mərakeş arasında mövcud əlaqələrin səviyyəsindən razılıq ifadə olunaraq bildirilib ki, qarşılıqlı hörmətə əsaslanan ikitərəfli münasibətlər, xüsusilə siyasi sahədə uğurla inkişaf edib. Həmçinin ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyi, müxtəlif platformalarda bir-birinə qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirdiyi vurğulanıb.

Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin dərinləşməsində parlamentlərarası əməkdaşlığın özünəməxsus rolu qeyd edilib. Milli Məclisin Sədri Sahibə Qafarova özünün Mərakeşə rəsmi səfərini, həmçinin mərakeşli həmkarları ilə müxtəlif beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırlayaraq, bu kimi təmasların münasibətlərimizə töhfə verdiyini bildirib. Həmçinin diqqətə çatdırılıb ki, hər iki ölkənin qanunverici orqanında fəaliyyət göstərən dostluq qrupları münasibətlərin inkişafında körpü rolunu oynayır. Bildirilib ki, cari ildə parlamentlərimiz arasında imzalanmış Anlaşma Memorandumu da əlaqələri daha da dərinləşdirmək üçün əlverişli imkanlar yaradır.

Tərəflər, parlamentlərimizin beynəlxalq parlament təşkilatlarında, o cümlədən Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində də əməkdaşlıq etməsindən məmnunluqlarını qeyd ediblər. Bildirilib ki, Mərakeş şəbəkənin konfranslarında yüksək səviyyədə təmsil olunur və bu təşkilatın işinə böyük əhəmiyyət verir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və BƏƏ beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirlər

**Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Birləşmiş Ərəb Əmirliklərinin Federal Milli Şurası sədrinin birinci müavini Tariq Altayer ilə görüşüb.**



Görüşdə dost və qardaş ölkələrimiz arasında münasibətlərin mövcud yüksək səviyyəsindən məmnunluq ifadə olunaraq, əlaqələrimizin genişlənməsində iki ölkə liderləri arasında münasibətlərin mühüm rolu, qarşılıqlı səfərlər, o cümlədən Prezident İlham Əliyevin cari ilin fevral ayında Birləşmiş Ərəb Əmirliklərinə səfəri və "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi məmnunluqla vurğulanıb. Qeyd olunub ki, ölkələrimiz öz liderlərinin müdrikliyi və uzaqgörənliyi, həmçinin xalqlarımızın onlara sonsuz dəstəyi sayəsində bu gün böyük nailiyyətlər qazanırlar.

Vurğulanıb ki, ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə sıx əməkdaşlıq mövcuddur. Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edir və ölkələrimiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərirlər.

Söhbət zamanı ikitərəfli münasibətlərin inkişafında parlamentlərin də özünəməxsus rol oynadığı qeyd olunaraq, parlament sədrləri və deputatlar arasında sıx təmasların, mütəmadi görüşlərin bu əlaqələrin daha da inkişafını şərtləndirdiyi bildirilib. Həmçinin qanunvericilik orqanlarının həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq etdikləri diqqətə çatdırılıb.

Vurğulanıb ki, parlamentlərimiz Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, həmçinin APA, İƏT Pİ kimi təşkilatlarda fəal əməkdaşlıq əlaqələrinə malikdirlər.

Görüşdə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası haqqında da fikir mübadiləsi aparılaraq tədbirin yüksək səviyyədə keçiriləcəyinə inam ifadə olunub.

*"Azərbaycan"*

# İƏT Pİ-nin İcraedici komitəsinin iclası olub

**Milli Məclisin evsahibliyi ilə Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası çərçivəsində iyunun 22-də qurumun İcraedici Komitəsinin 56-cı iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, İƏT Parlament İttifaqının baş katibi Muhammed Xurayçi Niyass iclası açaraq iştirakçıları salamlayıb. Sonra "Qurani-Kərim" qiraət olunub.

İclasa Milli Məclis Sədrinin müavini, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin rəhbəri Rafael Hüseynov sədrlik edib. O, açılış nitqində islam dininin sülh, mərhəmət və həmrəylik dəyərlərini təşviq etdiyini vurğulayıb. R.Hüseynov bildirib ki, təşkilatın yaradılmasına əsas verən fundamental prinsiplər - üzv dövlətlər arasında birliyin möhkəmləndirilməsi, ümumi çağırışlara qarşı birgə mövqeyin formalaşdırılması və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi bu gün də öz aktuallığını qoruyur.

Sonra iclasın gündəliyinin müzakirəsi aparılıb. İclasda təşkilati məsələlərə baxılıb, qurumun 20-ci sessiyasının proqramı, sənədləri nəzərdən keçirilib və müvafiq qərarlar qəbul olunub.

Tədbirdə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvü Ceyhun Məmmədov, İƏT-in üzvü olan dövlətlərin parlament nümayəndə heyətləri və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# İƏT Pİ Baş Katiblər Assosiasiyasının 7-ci iclası keçirilib

**İyunun 22-də İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası çərçivəsində Baş Katiblər Assosiasiyasının 7-ci iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasa Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev sədrlik edib. Fərid Hacıyev iştirakçıları Milli Məclisin Sədri Sahibə Qafarovanm adından salamlayıb, onlara uğurlar arzulayıb. O, müasir dövrdə parlament administrasiyalarında yeni idarəetmə mexanizmlərinin və müasir texnologiyaların tətbiqi, qabaqcıl təcrübənin öyrənilməsi ilə bağlı fikirlərini bölüşüb. Milli Məclisdə həyata keçirilən rəqəmsal transformasiya tədbirlərindən danışan F.Hacıyev parlamentin müxtəlif fəaliyyət istiqamətləri üzrə bir sıra innovativ həllərin tətbiqi, müvafiq elektron sistemlərin yaradılması, sənəd dövriyyəsinin rəqəmsallaşdırılması, xüsusi mobil tətbiqlərin istifadəyə verilməsi, habelə informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində görülən mühüm işlər barədə məlumat verib, İƏT Pİ Baş Katibləri Assosiasiyasının üzv parlamentlər arasında təcrübə mübadiləsi və əməkdaşlıq üçün səmərəli platforma olduğunu qeyd edib. O, aktual mövzular üzrə təcrübə mübadiləsində assosiasiyanın potensialından istifadə edilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra iclasın gündəliyi müzakirə olunub, bir sıra təşkilati məsələlərə baxılıb, müvafiq qərarlar qəbul edilib. Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov iclasın məruzəçisi seçilib. Müzakirələr zamanı çıxış edənlər müasir dövrdə parlamentlərin səmərəli fəaliyyətinin təmin olunmasında peşəkar və çevik parlament aparatlarının rolunu vurğulayıblar, qanunvericilik orqanlarının institusional potensialının artırılmasının əhəmiyyətindən danışıblar.

Tədbirdə üzv dövlətlərin parlament aparatlarının fəaliyyətinə dair təqdimatlar dinlənilib, parlamentlərin inzibati fəaliyyətinin təkmilləşdirilməsi, tədqiqat və informasiya xidmətlərinin inkişafı, rəqəmsal həllərin tətbiqi istiqamətləri ilə bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# İƏT Pİ Konfransının 20-ci sessiyası çərçivəsində bir sıra tədbirlər keçirilib

**İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası çərçivəsində iyunun 22-də təşkilatın bir sıra tədbirləri keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sessiya çərçivəsində keçirilən Müsəlman Qadın Parlamentarilərinin 13-cü Konfransına İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvü Nigar Məmmədova sədrlik edib.

Toplantı çərçivəsində təşkilati məsələlərə baxılıb, müsəlman qadın parlamentarilərinin məruzələri dinlənilib, qadınların sülh quruculuğu proseslərində iştirakı, qadın iştirakçılığının dəstəklənməsi və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvü Tənzilə Rüstəmxanlı məruzəçi seçilib.

* * *

Fələstin üzrə daimi komitənin 14-cü iclasına İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvü Ceyhun Məmmədov sədrlik edib.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxış edərək, məsələlərə münasibət bildirib.

Toplantı iştirakçıları gündəlikdəki mövzular ətrafında çıxış edərək, müzakirə olunan məsələlərə dair mövqelərini bildiriblər.

* * *

İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası çərçivəsində qurumun Müsəlman İcmaları və Azlıqlar Komitəsinin 5-ci iclası da keçirilib.

İclasda Milli Məclisin deputatları Ceyhun Məmmədov, Cavanşir Paşazadə və Fazil Mustafa, təşkilata üzv ölkələrin parlament nümayəndələri və digər şəxslər iştirak ediblər.

İclasa Türkiyə Böyük Millət Məclisinin üzvü Abdurrahim Dusak sədrlik edib.

Tədbirdə Azərbaycan parlamentinin deputatı Fazil Mustafa çıxış edərək, müzakirə olunan məsələlərə münasibət bildirib.

İclasda üzv ölkələrin parlament nümayəndə heyətlərinin iştirakı ilə müsəlman icmalarının və azlıqların hüquqlarının müdafiəsi, inklüziv cəmiyyətlərin formalaşdırılması və digər məsələlər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

Beləliklə, İƏT Pİ Konfransının 20-ci sessiyası çərçivəsində iyunun 22-də keçirilən tədbirlər uğurla başa çatıb.

*"Azərbaycan"*

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

## Müasir dövrdə kənd təsərrüfatının inkişafı yeni yanaşma tələb edir

### Aqrar sahədə yeni dövlət proqramının müzakirəsi ilə bağlı regional müşavirə keçirilib




**Prezidentin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emal sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrasının təmin edilməsi məqsədilə Şirvan-Salyan iqtisadi rayonu üzrə regional müşavirə keçirilib.**



Müşavirə 25 may 2026-cı il tarixində Prezident İlham Əliyevin sədrliyi ilə keçirilmiş kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və dövlət proqramında müəyyən edilmiş hədəflərin regionlar üzrə əlaqələndirilmiş şəkildə həyata keçirilməsinin təmin olunmasına həsr edilib.

Azərbaycan Respublikası Prezidentinin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov son illər Prezident İlham Əliyevin birbaşa rəhbərliyi ilə ölkədə aqrar sahənin inkişafı ilə bağlı həyata keçirilən islahatlar, qəbul edilmiş dövlət proqramları, kənd təsərrüfatına göstərilən dövlət dəstəyi və əldə edilmiş nəticələr barədə danışıb. Bildirib ki, keyfiyyətcə yeni mərhələyə keçidin vacibliyi, aqrar sahədə məhsuldarlığın və rəqabət qabiliyyətinin daha da artırılması yeni yanaşmaların tətbiqini zəruri edir. Qeyd edib ki, bu məqsədlə qəbul olunmuş 2026-2030-cu illər üçün dövlət proqramı kənd təsərrüfatının yeni inkişaf mərhələsini müəyyən edən strateji sənəddir. Proqram aqrar sahədə intensiv istehsal modelinə keçidin sürətləndirilməsini, emal və ixrac imkanlarının genişləndirilməsini, eləcə də ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsini nəzərdə tutur.

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli bildirib ki, dövlət proqramı regionlarda istehsal infrastrukturunun gücləndirilməsi, müasir texnologiyaların tətbiqi və fermerlərin bazarlara çıxış imkanlarının genişləndirilməsini nəzərdə tutur. Qeyd edilib ki, suvarma sistemlərinin təkmilləşdirilməsi, torpaq konsolidasiyası və rəqəmsal idarəetmə həllərinin tətbiqi məhsuldarlığın artırılmasına töhfə verəcək. Salyan rayonunun torpaq konsolidasiyası üzrə pilot ərazi kimi seçildiyini diqqətə çatdıran nazir müavini əlavə edib ki, saxlama, emal və logistika infrastrukturunun inkişafı aqrar sektorda dayanıqlı inkişafı və fermer gəlirlərinin artımını dəstəkləyəcək.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin birinci müavini Xəyyam Məmmədov isə söyləyib ki, Şirvan-Salyan iqtisadi rayonunun aqrar və akvakultura potensialının reallaşdırılmasında su ehtiyatlarının səmərəli idarə olunması mühüm əhəmiyyət daşıyır. O, suvarma infrastrukturunun modernləşdirilməsi, su itkilərinin azaldılması, yeni suvarma kanallarının çəkilməsi və kollektor-drenaj şəbəkələrinin təmizlənməsi istiqamətində işlərin davam etdiyini nəzərə çatdırıb. Bildirilib ki, proqram çərçivəsində rəqəmsal monitorinq, dəqiq su uçotu və fermerlərin maarifləndirilməsi prioritet istiqamətlərdən olacaq.

Çıxış edən Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov rayonun aqrar sahədə mövcud vəziyyəti barədə məlumat verib. Vurğulayıb ki, Biləsuvar pambıqçılıq, taxılçılıq və heyvandarlıq sahələrində ölkənin aparıcı rayonlarından biridir. Aqroparkların fəaliyyəti və müasir suvarma sistemlərinin tətbiqinin istehsalın səmərəliliyinin artırılmasına mühüm töhfə verdiyini qeyd edən F.Qürbətov əlavə edib ki, dövlət proqramı mövcud potensialın daha səmərəli reallaşdırılmasına və istehsal imkanlarının genişləndirilməsinə şərait yaradacaq.

Müşavirədə Biləsuvar, Hacıqabul və Neftçala rayonlarından olan fermerlər və sahibkarlar təsərrüfatlarının mövcud vəziyyəti və ümumi inkişaf istiqamətləri barədə məlumat verib, kənd təsərrüfatına göstərilən dövlət dəstəyinin istehsalın genişləndirilməsi və məhsuldarlığın artırılmasına müsbət təsir etdiyini qeyd ediblər.

Müşavirənin yekununda Xalid Əhədov dövlət proqramında müəyyən edilmiş hədəflərə nail olunmasında mərkəzi və yerli icra orqanlarının əlaqələndirilmiş fəaliyyətinin, eləcə də özəl sektorun fəal iştirakının mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edib ki, dövlət proqramı regionlarda kənd təsərrüfatının dayanıqlı inkişafına, məhsuldarlığın yüksəldilməsinə və emal imkanlarının genişləndirilməsinə mühüm töhfə verəcək. Bildirilib ki, müşavirədə səsləndirilən rəy, təklif və qeydlər ümumiləşdirilərək aidiyyəti dövlət qurumlarına təqdim olunacaq və dövlət proqramının icrası prosesində nəzərə alınacaq.

*Seyran CAVADOV, "Azərbaycan"*

## Naxçıvanda aqrar sahədə yeni dövlət proqramının müzakirəsi ilə bağlı regional müşavirə keçirilib

**İyunun 22-də Naxçıvan iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.**





AZƏRTAC xəbər verir ki, tədbir Prezident İlham Əliyevin sədrliyi ilə bu il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və dövlət proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib.

Müşavirədə aidiyyəti dövlət qurumlarının nümayəndələri, Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən ardıcıl islahatlar kənd təsərrüfatında istehsal və ixrac potensialının artmasına, ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə mühüm töhfə verib. Aqrar sektorda yeni inkişaf mərhələsinə keçidi təmin etmək məqsədilə qəbul edilən dövlət proqramı məhsuldarlığın, daxili istehsalın, ixrac imkanlarının və əlavə dəyərin artırılmasını, müasir aqrar xidmətlərin əlçatanlığının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur. Qeyd olunub ki, dövlət tərəfindən təqdim edilən çoxşaxəli dəstək tədbirləri və yeni dövlət proqramının yaratdığı imkanlar Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının və sahibkarlığın davamlı inkişafını təmin edəcək.

Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışında aqrar sahənin mövcud vəziyyəti, son illərdə görülən işlərdən danışıb, qarşıda duran vəzifələrə və prioritetlərə toxunub. Dövlət proqramının əsas məqsəd və hədəfləri barədə məlumat verən nazir qeyd edib ki, bu sənəd kənd təsərrüfatında məhsuldarlığın artırılması, müasir suvarma sistemlərinin genişləndirilməsi, emal sənayesinin inkişafı, ixrac potensialının gücləndirilməsi və özəl investisiyaların təşviqinə xidmət edir. Nazir əlavə edib ki, diferensial subsidiya siyasəti, müasir suvarma texnologiyalarının tətbiqi və yeni bağçılıq layihələri regionda kənd təsərrüfatının daha sürətli inkişafı üçün əlverişli imkanlar yaradır.

Tədbirin davamında Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov çıxış edərək, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın vizual təqdimatını keçirib. Diqqətə çatdırılıb ki, dövlət proqramında fundamental və dəstəkləyici tədbirlər əks olunur.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin müavini İlham Bayramov su təsərrüfatı infrastrukturunun rəqəmsallaşdırılması, müasir suvarma texnologiyalarının tətbiqi və fermerlərin maarifləndirilməsi istiqamətində görülən işləri vurğulayıb. Bildirilib ki, son illər ölkə üzrə, o cümlədən Naxçıvan Muxtar Respublikasında suvarma infrastrukturunun yenilənməsi, yeni su mənbələrinin yaradılması və müasir suvarma sistemlərinin tətbiqi istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir. Bu isə minlərlə hektar əkin sahəsinin dayanıqlı su təminatının gücləndirilməsinə və yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsinə imkan verəcək.

Naxçıvanın kənd təsərrüfatı naziri Rafail Quliyev çıxışında bildirib ki, muxtar respublika məhdud torpaq və su resurslarına malik olmaqla yanaşı, özünəməxsus iqlim şəraiti, əlverişli coğrafi mövqeyi, zəngin kənd təsərrüfatı ənənələri və yüksək əmək potensialı ilə fərqlənir. Naxçıvanın dağlıq və aran ərazilərinin mövcudluğu burada müxtəlif kənd təsərrüfatı sahələrinin inkişafına imkan yaradır. Taxılçılıq, tərəvəzçilik, meyvəçilik, üzümçülük, yemçilik, heyvandarlıq və digər istiqamətlər üzrə mövcud potensialın daha səmərəli istifadəsi dövlət proqramının əsas hədəfləri ilə üst-üstə düşür.

Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov qeyd edib ki, rayon kənd təsərrüfatı məhsullarının istehsalında Naxçıvan Muxtar Respublikasının aparıcı bölgələrindən biri olmaqla bitkiçilik, heyvandarlıq və emal sahələrində mühüm göstəricilərə malikdir. Vurğulanıb ki, rayonda mövcud istehsal ənənələri və əlverişli torpaq-iqlim şəraiti aqrar sahənin daha da genişləndirilməsi üçün mühüm imkanlar yaradır.

Müzakirələrdə iştirak edən fermerlər və sahibkarlar kənd təsərrüfatının inkişafına göstərilən davamlı dövlət dəstəyini yüksək qiymətləndirərək, bu sahəyə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər. Bildirilib ki, dövlət proqramında nəzərdə tutulan tədbirlər aqrar istehsalın genişləndirilməsi, emal sənayesinin inkişafı, investisiya imkanlarının artırılması və yeni biznes təşəbbüslərinin təşviqi baxımından mühüm əhəmiyyət daşıyır.

Müşavirənin yekununda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov çıxış edərək diqqətə çatdırıb ki, dövlət proqramında müəyyən edilmiş hədəflərə nail olunması məqsədilə aidiyyəti dövlət qurumları, yerli icra hakimiyyəti orqanları və digər məsul qurumlar tərəfindən zəruri tədbirlər həyata keçirilməlidir. Bildirilib ki, rayonların aqrar potensialı, torpaq və su resursları nəzərə alınmaqla fəaliyyət planları hazırlanmalı, dövlət dəstəyi mexanizmlərinin və investisiya imkanlarının təbliği gücləndirilməlidir. Həmçinin aidiyyəti qurumlara dövlət proqramının icrası üzrə fəaliyyətin əlaqələndirilməsi, nəzərdə tutulan tədbirlərin icra vəziyyətinin mütəmadi monitorinqi və yaranan problemlərin operativ həlli istiqamətində tapşırıqlar verilib.

# "AİHM-in Azərbaycanla bağlı qərarı siyasi müstəvidə qiymətləndirilməlidir"

**"Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) "V.T. və digərləri Azərbaycana qarşı" işi üzrə qəbul etdiyi qərar qərəzli və siyasi xarakterlidir. Azərbaycan hesab edir ki, qərar keçmiş Qarabağ münaqişəsi ilə bağlı formalaşdırılmış hüquqi yanaşmalarla ziddiyyət təşkil edir və siyasi kontekstdən kənarda qiymətləndirilə bilməz".**



Bunu AZƏRTAC-a açıqlamasında israilli politoloq Yuri Boçarov bildirib.

Politoloqun sözlərinə görə, formal olaraq Avropa Şurası, Avropa Şurası Parlament Assambleyası (AŞPA) və AİHM müstəqil institutlar hesab olunsa da, praktikada onlar eyni siyasi məkanın tərkib hissəsi kimi fəaliyyət göstərirlər. Bu qurumlar eyni dövlətlərin nümayəndələri, oxşar ekspert dairələri və analitik mərkəzlər tərəfindən formalaşan ümumi siyasi mühitdə çalışırlar. Buna görə də hansısa dövlətlə münasibətlər gərginləşdikdə, müxtəlif Avropa institutlarının həmin ölkəyə münasibətdə tamamilə fərqli mövqe nümayiş etdirməsini gözləmək çətindir. Azərbaycan ilə Avropa institutları arasında münasibətlərdə gərginliyin dərinləşməsi xüsusilə 2024-cü ildə AŞPA-nın Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərini təsdiqləməməsindən sonra yeni mərhələyə keçib. Azərbaycan bu addımı siyasi təzyiq kimi qiymətləndirib və nəticədə tərəflər arasında münasibətlər açıq qarşıdurma mərhələsinə daxil olub. Belə bir şəraitdə AİHM-in "V.T. və digərləri Azərbaycana qarşı" işi üzrə qərarı xüsusi diqqət çəkir. Bu iş uzun illər məhkəmənin icraatında qaldıqdan sonra məhz hazırkı siyasi şəraitdə qərarın elan edilməsi müxtəlif suallar doğurur.

Politoloq xatırladıb ki, 2015-ci ildə AİHM-in "Çıraqovlar və digərləri Ermənistana qarşı" işi üzrə qərarında Ermənistanın uzun illər Azərbaycanın işğal olunmuş əraziləri üzərində səmərəli nəzarət həyata keçirdiyi təsbit edilmişdi. Həmin qərar uzun müddət Azərbaycanın beynəlxalq hüquqi mövqeyini möhkəmləndirən əsas sənədlərdən biri hesab olunurdu. Son on ildə nə Qarabağ münaqişəsinin tarixi faktları dəyişib, nə də beynəlxalq hüququn fundamental prinsipləri. Dəyişən əsas amil Azərbaycanın bəzi Avropa institutları ilə münasibətlərinin xarakteridir. Hazırkı qərarda diqqətin yalnız 2016-cı ilin Aprel döyüşləri zamanı baş vermiş ayrıca epizoda yönəldilməsi, münaqişənin uzunmüddətli kontekstinin və Ermənistanın illərlə davam edən işğal siyasətinin hüquqi qiymətləndirilməsindən fərqli yanaşmanın tətbiq edilməsi Bakının narazılığına səbəb olur. Hüquqi baxımdan söhbət müxtəlif işlərdən getsə də, beynəlxalq siyasətdə qəbul edilən qərarlar çox vaxt daha geniş siyasi proseslərin fonunda qiymətləndirilir.

Y.Boçarovun fikrincə, hazırda Azərbaycan Avropa üçün enerji təhlükəsizliyi, Orta dəhlizin inkişafı və Avropa ilə Asiyanı birləşdirən nəqliyyat-logistika marşrutları baxımından mühüm tərəfdaşdır. Məhz bu səbəbdən ölkənin müstəqil xarici siyasət kursu bəzi siyasi dairələrdə müxtəlif qiymətləndirmələrə səbəb olur. Qlobal siyasətdə iqtisadi maraqlar həmişə təsir mexanizmlərinin formalaşdırılması ilə müşayiət olunur. Bu baxımdan AİHM-in qərarı təkcə hüquqi sənəd kimi deyil, gələcək siyasi müzakirələrdə istifadə oluna biləcək əlavə arqument kimi də nəzərdən keçirilə bilər. Sözügedən qərar Azərbaycanın ərazi bütövlüyünü və ya postmünaqişə reallıqlarını dəyişmir. Bununla belə, onun beynəlxalq təşkilatların hesabatlarında, parlament qətnamələrində, insan hüquqları ilə bağlı müzakirələrdə, eləcə də enerji, nəqliyyat və siyasi əməkdaşlıq məsələləri üzrə danışıqlarda istinad mənbəyinə çevrilməsi mümkündür.

İsrailli politoloq hesab edir ki, beynəlxalq münasibətlərdə hüquqi qərarlar zaman keçdikcə siyasi arqumentə çevrilə bilir və müxtəlif platformalarda danışıqlar prosesinə təsir göstərən element kimi istifadə olunur.

"Azərbaycan üçün əsas məsələ kompensasiya məbləği deyil, beynəlxalq siyasi-hüquqi müstəvidə yeni yanaşmaların formalaşmasıdır. Bu yanaşmalar nəticəsində Azərbaycanın uzun illər işğaldan əziyyət çəkmiş dövlət kimi mövqeyinin arxa plana keçməsi və diqqətin ayrı-ayrı epizodlara yönəldilməsi müəyyən suallar doğurur. Son on ildə Avropa institutlarının Qarabağ məsələsinə yanaşmasında müşahidə olunan dəyişikliklər beynəlxalq siyasi gündəmdə prioritetlərin transformasiyasını göstərən amillərdən biri kimi qiymətləndirilə bilər", - deyə politoloq vurğulayıb.

# "Parlament diplomatiyası Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirir"

**Ölkəmizin beynəlxalq əlaqələrinin inkişafında Azərbaycan parlamentinin xüsusi rolu var. Parlament diplomatiyası dövlətimizin xarici siyasət kursunda mühüm yer tutur. Bu baxımdan Milli Məclisin beynəlxalq fəaliyyəti xüsusi qeyd olunmalıdır.**

Məlumdur ki, Milli Məclis bir sıra beynəlxalq təşkilatlarda təmsil olunur, eləcə də bir çox ölkənin parlamentləri ilə dostluq qrupları fəaliyyət göstərir. Əlbəttə, parlament çox mühüm hakimiyyət qoludur və onun işində beynəlxalq fəaliyyət xüsusi yer tutur. Parlamentarilər beynəlxalq miqyasda Azərbaycan həqiqətlərinin təbliği istiqamətində öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırlar.



**Milli Məclisin deputatı Pərvin KƏRİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, parlament bir çox nüfuzlu təşkilatın - Parlamentlərarası İttifaq, ATƏT PA, MDB PA, Asiya PA, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı PA, GUAM PA, TÜRKPA və NATO PA-nın işində aktiv təmsil olunur: "Məhz bu təşkilatlar çərçivəsində aparılan uğurlu əməkdaşlıq fəaliyyəti nəticəsində vaxtilə Ermənistanın işğalçılıq siyasətini ifşa edən qərarlar qəbul edilib. Belə təşkilatlar sırasında İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı xüsusi qeyd edilməlidir. Bu təşkilat vaxtilə Ermənistanın işğalçılıq siyasətini dəfələrlə pisləməklə yanaşı, Xocalı soyqırımını da tanıyıb. Hazırda isə Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyası keçirilir".

Milli Məclisin İƏT Parlament İttifaqı ilə də fəal əməkdaşlıq etdiyini diqqətə çatdıran deputat qeyd edib ki, bu qurumda Azərbaycan parlamentinin beş nəfərdən ibarət nümayəndə heyəti təmsil olunur: "Məlumdur ki, müasir beynəlxalq münasibətlər sistemində parlament diplomatiyasının artan nüfuzu artıq reallıqdır. Məhz bunun nəticəsidir ki, son illər qanunverici orqan vasitəsilə atılan addımlar Azərbaycanın dövlət siyasətinin mühüm komponentinə çevrilib. Parlament diplomatiyasının məqsədi dövlətlər və regionlar arasında əlaqələrin və inteqrasiyanın dərinləşdirilməsinə nail olmaqdır. Azərbaycan parlamenti hər zaman Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasi kursunu birmənalı şəkildə dəstəkləyib. Görülən işlər nəticəsində ölkəmizin beynəlxalq platformalardakı mövqeyi daha da güclənib, dünya ölkələri ilə qarşılıqlı etimada əsaslanan əməkdaşlıq münasibətləri dərinləşib. Hakimiyyətin mühüm qolu olan parlamentin işində beynəlxalq fəaliyyət prioritet istiqamət kimi ön plana çıxır. Bu istiqamətdə ikitərəfli və çoxşaxəli parlament təşkilatları ilə əlaqələrin inkişafı istiqamətində sistemli tədbirlər görülür. Eyni zamanda millət vəkilləri Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və milli maraqlarımızın təbliği istiqamətində üzərlərinə düşən missiyanı layiqincə yerinə yetirirlər".

P.Kərimzadə bildirib ki, son illər həyata keçirilən parlament diplomatiyası nəticəsində Azərbaycanın beynəlxalq münasibətlər sistemində və beynəlxalq platformalarda mövqeyi daha da möhkəmlənib: "Azərbaycanda artıq beynəlxalq və regional təşkilatların parlament şəbəkələrinin toplantılarının keçirilməsi ənənəsi formalaşıb. Son illər parlament diplomatiyası çərçivəsində Azərbaycan bir çox beynəlxalq səviyyəli tədbirə və toplantıya evsahibliyi edib. Eyni zamanda dünyanın ən müxtəlif ölkələrinin parlament nümayəndələri ölkəmizə səfər edirlər. Müxtəlif ölkələrin parlamentləri ilə sıx əməkdaşlıq və dostluq münasibətləri formalaşır. Təbii ki, bu cür əlaqələrin qurulması ölkələr arasında münasibətlərin inkişafına xidmət etməklə yanaşı, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq platformalarda dəstəklənməsində təsirli amildir".

Deputat vurğulayıb ki, bu gün Azərbaycan parlamenti qanunvericiliyin təkmilləşdirilməsi işində, beynəlxalq hüquq normalarının ratifikasiyası, ikitərəfli və çoxtərəfli beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində ardıcıl işlər görür: "Sözsüz ki, Azərbaycan parlamentinin fəaliyyət istiqamətləri, parlamentlərarası münasibətlər beynəlxalq hüquq normalarına əsaslanır. Azərbaycan parlamenti beynəlxalq təşkilatlarla yanaşı, parlament şəbəkələri ilə sıx təmaslara malikdir. Bu baxımdan Milli Məclisin müvafiq komitələri və parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərirlər. Beynəlxalq parlament tribunalarından Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistanın törətdiyi vandalizm faktları geniş ictimaiyyətə çatdırılır. Milli Məclis bəzi parlament təşkilatlarının yaradılmasında da aktiv iştirak edib. Bu baxımdan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin yaradılmasını xatırlatmaq yerinə düşər".

P.Kərimzadə qeyd edib ki, bu gün Azərbaycanın qanunverici orqanı olan Milli Məclis beynəlxalq platformalarda aktiv iş aparır və ölkəmizin haqlı mövqeyinin dünyada parlament səviyyəsində tanıdılmasında xüsusi rol oynayır. Onun sözlərinə görə, hazırda Bakıda keçirilən İƏT Parlament İttifaqının 20-ci Sessiyası da mühüm qərarlar qəbul etməklə təşkilatın tarixində xüsusi yer tutacaq.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "İƏT tədbirinin Bakıda keçirilməsi Azərbaycanın islam dünyasında artan nüfuzunu əks etdirir

**Bakıda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası öz işinə başlayıb. 40-dan çox ölkənin parlament nümayəndə heyətinin, 10-dan çox ölkə spikerinin və 10 beynəlxalq təşkilatın nümayəndələrinin qatıldığı sessiyada "Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi" mövzusunda müzakirələr aparılır. Tədbirdə 400-dən artıq nümayəndə iştirak edir.**

**Milli Məclisin deputatı Vüqar RƏHİMZADƏ** qəzetimizə açıqlamasında deyib ki, İƏT-in üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası Azərbaycanın beynəlxalq nüfuzunun və etibarlı tərəfdaş imicinin növbəti təsdiqidir: "Azərbaycanın son illər ardıcıl şəkildə böyük beynəlxalq tədbirlərə evsahibliyi etməsi təsadüfi deyil. Ölkəmiz artan qlobal nüfuzu, siyasi sabitliyi, təhlükəsizlik mühiti, müasir infrastruktur imkanları ilə müxtəlif beynəlxalq platformalar üçün cəlbedici mərkəzə çevrilib. Bu, Azərbaycanın müxtəlif dövlətlər və beynəlxalq təşkilatlar arasında dialoq qurmaq qabiliyyətinə olan etimadın da göstəricisidir. Xüsusilə son dövrlər Azərbaycanın qlobal və regional əhəmiyyətli tədbirlərin keçirilməsi üçün seçilməsi ölkəmizin dünyada diplomatik çəkisinin artdığını göstərir. Bu fonda demək olar ki, Azərbaycan artıq təkcə regional deyil, həm də daha geniş coğrafiyada əməkdaşlıq və dialoq platforması kimi nüfuz qazanıb".

Deputat qeyd edib ki, Bakı müxtəlif mövqelərə malik ölkələri eyni masa ətrafında toplamaq, qarşılıqlı anlaşmanı təşviq etmək və praktiki əməkdaşlıq gündəmini irəli aparmaq baxımından mühüm mərkəz statusunu möhkəmləndirir. İƏT Parlament İttifaqının sessiyasının Bakıda keçirilməsi də məhz bu etimadın və beynəlxalq nüfuzun növbəti təzahürüdür. "İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının Bakıda keçirilməsi həm də Azərbaycanın islam dünyası ilə əlaqələrinin inkişafına verdiyi önəmi, islam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətindəki təşəbbüslərini və təşkilat daxilində artan nüfuzunu əks etdirir. Tədbirdə onlarca ölkədən parlament nümayəndə heyətlərinin iştirakı ölkəmizin beynəl-



xalq əməkdaşlıq üçün etibarlı tərəfdaş kimi qəbul edildiyini bir daha təsdiqləyir", - deyə o əlavə edib.

Ötən həftə Bakının İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarına uğurla evsahibliyi etdiyini xatırladan V.Rəhimzadə bildirib ki, belə nüfuzlu tədbirlərin məhz Azərbaycana həvalə edilməsi ölkəmizin beynəlxalq təşkilatlar və tərəfdaş dövlətlər tərəfindən etimad göstərilən platforma kimi qəbul olunduğunu nümayiş etdirməklə yanaşı, qlobal dialoq məkanı kimi mövqeyini daha da gücləndirir. "Bu cür tədbirlər, eyni zamanda, Azərbaycanın mövqeyinin beynəlxalq ictimaiyyətə daha geniş şəkildə çatdırılması və yeni əməkdaşlıq imkanlarının formalaşması baxımından da mühüm əhəmiyyət daşıyır".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# DİN-in Hərbi İnstitutunda növbəti buraxılış olub

**Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Hərbi İnstitutunda 2025-2026-cı tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib. Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.**




Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov Hərbi İnstitutun inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib. O, məzunların buraxılış mərasiminin Hərbi İnstitutun həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdırıb.





Nazir Vilayət Eyvazov Daxili İşlər Nazirliyinin əsas struktur qurumlarından olan Daxili Qoşunların döyüş hazırlığının yüksəldilməsinin, müasir silah və texnika ilə təminatının, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən hər zaman nəzarətdə saxlanıldığını xüsusi qeyd edib. Göstərilən ali diqqət və ardıcıl dəstək nəticəsində Daxili Qoşunların qarşıya qoyulan istənilən xidməti-döyüş tapşırığını uğurla və layiqincə yerinə yetirməyə qadir olduğunu bildirib.

V.Eyvazov Daxili Qoşunların peşəkar kadr özəyinin formalaşmasında, şəxsi heyətin döyüş hazırlığında əldə etdiyi yüksək nəticələrə görə Türkiyə Silahlı Qüvvələrinin, o cümlədən Jandarm Baş Komandanlığının rolunu xüsusi vurğulayıb. O, bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşmasında əzmkar fəaliyyətini yüksək dəyərləndirib, Daxili Qoşunların Hərbi İnstitutunun bu gün öz təyinatına uyğun olaraq yüksəkixtisaslı, peşəkar zabit heyətinin hazırlanması ilə bağlı çox böyük işlər gördüyünü, bu mühüm vəzifənin gələcəkdə də layiqincə yerinə yetiriləcəyinə əminliyini ifadə edib.

Nazir V.Eyvazov gənc zabitləri, onların valideynlərini və yaxınlarını Hərbi İnstitutu



uğurla bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə, zabit-müəllim heyətinə təşəkkürünü bildirib.

Kursant Hüseyn Bilişov onlara göstərilən diqqət və qayğıya görə dövlət başçısına, DİN rəhbərliyinə və Hərbi İnstitutun zabit-müəllim heyətinə minnətdarlığını çatdırıb, Vətən, dövlət və xalq qarşısında vəzifələrini layiqincə yerinə yetirəcəklərini, hərbçi şərəfini hər zaman uca tutacaqlarını bildirib.

Sonra Döyüş Bayrağı üçüncü kursun kursantlarına təhvil verilib. Gənc zabit Ömər Səfərli "Yaş kötüyü"nə rəmzi xatirə lövhəsini vurub.

Tədbirin sonunda V.Eyvazov Hərbi İnstitutu fərqlənmə və "baş leytenant" rütbəsi ilə bitirmiş məzunlara diplomları təqdim edib.

Gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Orta dəhliz boyunca problemlər araşdırılır

**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov Bakıda keçirilən İslam İnkişaf Bankı Qrupunun 51-ci İllik Toplantıları çərçivəsində təşkil olunmuş panel müzakirələrində bildirib ki, Orta dəhliz boyunca nəqliyyat infrastrukturunun daha koordinasiyalı və prioritet şəkildə inkişaf etdirilməsi zəruridir.**

Nazir müavini həmçinin vurğulayıb ki, dəhlizdən faydalanmaq potensial olaraq iqtisadi mərkəzə çevrilmək və daha yüksək gəlir əldə etmək imkanları yaradır: "Koordinasiyalı infrastruktur investisiyası əsas ön şərt olaraq qalsa da, Orta dəhlizin tam potensialı yalnız rəqəmsal və yumşaq əlaqəlilik tədbirlərində paralel irəliləyiş vasitəsilə reallaşdırıla bilər. Bu istiqamətdə mühüm addım keçən il Prezident fərmanı ilə yaradılmış vahid pəncərə informasiya sisteminin tətbiqidir. Bu təşəbbüslər nəqliyyat operatorlarını, limanları, gömrük orqanlarını və digər maraqlı tərəfləri vahid rəqəmsal ekosistemə inteqrasiya etmək, kağızsız prosedurları, real vaxt rejimində yük izləməsini və fasiləsiz məlumat mübadiləsini təmin etmək məqsədi daşıyır".

R.Hümmətov onu da qeyd edib ki, Azərbaycan Orta dəhlizi və bütün nəqliyyat ekosisteminin dayanıqlılığını gücləndirmək məqsədilə böyük infrastruktur layihələrinin icrasını sürətləndirir: "Mühüm bir mərhələ 2025-ci ildə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Vaşinqton Bəyannaməsinin imzalanması ilə başlandı. Belə ki, 15 milyon ton gözlənilən tutumu ilə Zəngəzur dəhlizinin (TRIPP) yaradılmasına doğru mühüm addım atıldı. Ölkəmiz Orta dəhlizin qlobal marşruta çevrilməsi və daha




çox yüklərin daşınması üçün daim yeni həll yolları arayır. Azərbaycan bu istiqamətdə bir neçə irimiqyaslı infrastruktur həlli təşəbbüsünü irəli sürüb. Məsələn, Bakı limanının ikinci mərhələdə genişləndirilmə işlərini aparmaqla illik tutumu 25 milyon ton yükə çatdırmaqla konteyner daşımasının 500 000 TEU-ya qaldırılması nəzərdə tutulur. Bu, həmçinin azad iqtisadi zona daxilində ixtisaslaşdırılmış aviasiya klasterinin yaradılmasını, milli dəmir yolu şəbəkələrinin tam elektrikləşdirilməsi və modernizasiyasını, eləcə də yeni yüksəktutumlu magistral yolların və dəmir yolu xətlərinin inşasını əhatə edir. Belə infrastrukturun təkmilləşdirilməsi Orta dəhlizə olan beynəlxalq və institusional marağı artırıb".

Bu informasiyanı təsadüfən xatırlatmadıq. Dünyada baş verən gərgin geosiyasi proseslər yeni ticarət marşrutlarının axtarışına səbəb olub. O üzdən Asiya ilə Avropa arasında etibarlı yeni marşrutun yaradılması zərurəti ortaya çıxıb. Bununla bağlı Orta dəhlizin üzərindən aparılan ticarət əməliyyatlarının həcmini üçqat artırmaq üçün 10 prioritet layihə açıqlanıb. Mərkəzi Asiya üçün prioritet vəzifələrdən biri Almatı şəhəri ətrafından keçən dəmir yolu xəttinin tikintisidir. Hazırda bütün yük qatarları ölkənin ən böyük şəhərinin mərkəzi hissəsindən keçir. Yeni dəmir yolu xəttinin tikintisi şəhərin nəqliyyat qovşağına düşən yükü əhəmiyyətli dərəcədə azaltmağa, həmçinin qatarların hərəkət sürətini artırmağa imkan verəcək.

Eyni zamanda Özbəkistan və Qazaxıstan arasında yeni dəmir yolu marşrutunun açılması yükgöndərənlərə birbaşa istədikləri istiqamətlərdən istifadə etmək imkanı verəcək. Bu, ticarət tərəfdaşlarını sərhəd keçidlərində uzunmüddətli yubanmalardan xilas edəcək. Hazırda sərhədi keçmə proseduru xeyli vaxt aparır.

Ekoloji amil xüsusi diqqətə layiqdir: iqlim dəyişiklikləri nəticəsində Xəzər dənizinin su səviyyəsi aşağı düşməkdə davam edir. Bu isə limanların fəaliyyətinə mənfi təsir göstərir. Odur ki, Aktau limanının yükaşırma səmərəliliyini artırmaq üçün avadanlıqların yenilənməsinə və yanalma qurğularının potensialının artırılmasına kəskin ehtiyac var.

Yeni reallıqlar marşrut boyunca bir sıra problemlərin olduğunu da üzə çıxarır. İlk növbədə Qara dəniz regionunda əsas problem Gürcüstanda çatdırılma müddətlərinin artmasına səbəb olan lokomotivlərin çatışmazlığını aradan qaldırmaqdır. Yeni vaqonların və dartı hərəkət heyətinin alınması bütün dəhlizin buraxılış qabiliyyətini və ümumi iş səmərəliliyini prinsipial şəkildə artırmağa imkan verəcək. Paralel olaraq, yerli stansiyanın genişləndirilməsi və Axalkalaki-Türkiyə sərhəd sahəsində dəmir yolu infrastrukturunun modernləşdirilməsinin həyata keçirilməsi də vacibdir.

Dəniz limanlarında da genişmiqyaslı yenidənqurma işlərinin görülməsi tələb olunur. Gürcüstanın Poti limanı 2023-cü ildən öz buraxılış imkanlarını tükədib. Limanda icra olunacaq yenidənqurma işləri onun dəniz yükləri üçün yükaşırma gücünün artırılması, daha çox sayda konteyner gəmisinə xidmət göstərməyə və konteynerlərin tranzit vaxtını azaltmağa imkan verəcək. Mütəxəssislər hesab edirlər ki, Orta dəhlizin dəmir yolu infrastrukturunda təxirəsalınmaz həll tələb edən ən kritik məhdudiyyətli yer Sivas-Qars-Gürcüstanla sərhəd sahəsidir və onun modernləşdirilməsi ən qısa müddətdə həyata keçirilməlidir.

İstanbul ərazisində logistik sıxlıqların qarşısını almaq üçün Üçüncü körpü vasitəsilə Bosfor boğazı üzərindən yüksək buraxılış qabiliyyətli yerüstü dəmir yolu xəttinin tikintisi nəzərdə tutulur. Avropa istiqamətində Rumıniya və Bolqarıstanın liman və dəmir yolu infrastrukturuna irimiqyaslı investisiyaların qoyulması zərurəti yaradır ki, bu da həmin ölkələrin Mərkəzi Avropa ilə daxili və transsərhəd nəqliyyat əlaqələrini möhkəmləndirməyə imkan verəcək.

Nəhayət, Orta dəhliz boyu onuncu ən mühüm tədbir ticarət şəraitinin kompleks yaxşılaşdırılmasına nail olmaqdır. Bunun üçün sərhəd prosedurlarının idarə edilməsinin təkmilləşdirilməsi, xidmət keyfiyyətinin yüksəldilməsi və bütün proseslərin rəqəmsal transformasiyasının sürətləndirilməsi həyata keçirilməlidir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## 23 İyun Dövlət Qulluqçularının Peşə Bayramı Günüdür

# Prezident İlham Əliyevin innovativ davamlı inkişaf siyasətində dövlət qulluğunun strateji rolu

**Müstəqilliyin bərpasından tarixi baxımdan çox qısa bir müddət keçməsinə baxmayaraq, Azərbaycan Respublikası inkişafın müxtəlif istiqamətlərində olduqca yüksək nəticələr əldə etmiş və bir çox sahədə dünya liderləri sırasında yer almışdır. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi, suverenliyinin bərpası və bununla da BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasından sonra bu proses xüsusilə güclənmişdir. Son illər ölkədə böyük uğurla keçirilən dünya miqyaslı tədbirlər, o cümlədən BMT-nin İqlim Konfransı - COP29, Ümumdünya Şəhərsalma Forumu - WUF13, Bakı Enerji Həftəsi - BEW 2026 və digər qlobal tədbirlər Azərbaycanın dünyanın mühüm siyasi mərkəzlərindən birinə çevrildiyini göstərir.**



Bu gün dünyanın siyasi xəritəsinə nəzər saldıqda aydın görünür ki, ölkələr üçün əsas qlobal prioritetlərdən biri olan davamlı inkişaf siyasətinin həyata keçirilməsi və inklüziv cəmiyyətin qurulması sahəsində müxtəlif dövlətlər fərqli nəticələrə nail olmuşlar. Təhlillər göstərir ki, ölkələrin davamlı və inklüziv inkişaf sahəsində yüksək səviyyəyə çatması onların ərazisinin ölçüsündən, əhalisinin sayından, yaxud təbii ehtiyatlarla zəngin olmasından birbaşa asılı deyil. Bir sıra ölkələr var ki, onların ərazisi böyük, əhalisinin sayı kifayət qədər yüksəkdir. Eyni zamanda həmin ölkələr zəngin təbii ehtiyatlara da malikdirlər. Buna baxmayaraq, onların iqtisadi və sosial inkişaf səviyyəsi, humanitar durumu, eləcə də ekoloji vəziyyəti sahib olduqları imkanlara uyğun deyil.

Çoxsaylı təhlillər, o cümlədən Azərbaycanın uğurlu təcrübəsi göstərir ki, ölkələrin innovativ inkişafını, onun davamlı və inklüziv xarakter daşımasını təmin edən ən mühüm amil müasir elmə, onun nailiyyətlərinə əsaslanan və iqtisadiyyatda kapitala çevrilən insan potensialıdır. İnsanların bilik və bacarıqları tərəqqini təmin edən əvəzsiz amildir. Prezident İlham Əliyev 5 yanvar 2026-cı il tarixli çıxışında qeyd etmişdir: "Mən bunu dəfələrlə demişəm, bir daha deyirəm: ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır".

Prezident İlham Əliyevin inkişaf konsepsiyasına görə, elmlilik universal tələb kimi bütün sahələri əhatə edir. Lakin bu prinsip dövlət idarəçiliyi üçün xüsusi əhəmiyyət daşıyır və ölkənin iqtisadi, sosial, ekoloji və hərbi təhlükəsizliyi baxımından mühüm önəm kəsb edir. Bu səbəbdən dövlət qulluqçularının hazırlanması, onların bilik və bacarıqlarının daim yenilənməsi, bu prosesin təşkili və davamlı təkmilləşdirilməsi milli inkişaf strategiyasının vacib şərtlərindən biridir.

Elm və təhsil sahələrinin inkişafına xüsusi diqqət yetirən, hər zaman bu istiqamətdə fəaliyyətə böyük önəm verən Ulu Öndər Heydər Əliyev dövlət qulluğu sisteminin qurulması və dövlət qulluqçularının hazırlanmasını mühüm vəzifələrdən biri hesab edirdi. Onun 3 yanvar 1999-cu il tarixli 60 nömrəli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası yaradılmış və bu quruma dövlət idarəçiliyi, dövlət qulluğunun təşkilinin elmi əsasları və kadr hazırlığı, eləcə də bu sahələrin analitik-informasiya təminatı üzrə ölkənin aparıcı elm və təhsil mərkəzi statusu verilmişdir.

Qeyd edilməlidir ki, 2003-cü ildə ilk dəfə Prezident seçilən İlham Əliyev həmin il ölkənin inkişafının insan amili, onun bilik və bacarıqları üzərində qurulmasının əsas strateji istiqamətlərdən biri olduğunu bəyan etmişdi. Onun həyata keçirdiyi "qara qızıl"ın - neft və qaz sənayesinin iqtisadi imkanlarının - insan inkişafına yönəldilməsi və bu potensialın iqtisadiyyatda insan kapitalına transformasiyası strategiyası bugünkü siyasi, iqtisadi və sosial nailiyyətlərin əsasında dayanır.

Dövlət qulluqçularının hazırlanması ilə əlaqədar Prezident İlham Əliyev tərəfindən bir sıra mühüm fərman və sərəncamlar imzalanmışdır. Onların arasında "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında" fərmanını (2014), "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Nizamnaməsində dəyişiklik edilməsi haqqında" Fərmanını (2017), eləcə də "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli fərmanında dəyişiklik edilməsi barədə" fərmanını (2025) qeyd etmək olar. Bu sənədlər dövlət qulluğu sisteminin təşkili və dövlət qulluqçularının hazırlanması prosesinin təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Həmin sənədlər, eləcə də Nazirlər Kabinetinin qərarı ilə 2024-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına xüsusi statusun verilməsi dövlət qulluqçularının hazırlanması və fasiləsiz təhsili üçün yeni imkanlar yaratmışdır.

Bu sənədlər Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) dövlət qulluqçularının hazırlanması prosesini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq üçün mühüm imkanlar yaratmışdır. Tədrisdə keyfiyyətin əsas göstəricilərindən biri məzunların işlə təmin olunma səviyyəsidir. Bu göstəriciyə görə DİA ölkədə ilk üçlükdə yer alır.

Təhsilin keyfiyyətinin yüksək səviyyədə olmasını təsdiq edən digər nəticəyönümlü göstəricilər də mövcuddur. Belə ki, son illərdə DİA məzunlarının ölkə üzrə ümumi məzun sayına nisbəti orta hesabla cəmi 0,71 faiz təşkil etməsinə baxmayaraq, "Yüksəliş" müsabiqəsinin qalibləri arasında onların payı 9-25 faiz arasında dəyişmiş, effektivlik göstəricisi isə 13-34 dəfə olmuşdur. Bu fakt akademiyada tədrisin yalnız formal biliklərin verilməsi ilə məhdudlaşmadığını, məzunların idarəetmə, liderlik və analitik qərarvermə bacarıqlarının real nəticələrdə özünü göstərdiyini təsdiq edir.

DİA məzunlarının uğurları yalnız ölkədaxili göstəricilərlə məhdudlaşmır. Dövlət proqramı çərçivəsində xarici universitetlərin magistratura pilləsinə qəbul olunan tələbələrin 4 faizini akademiya məzunları təşkil etmişdir ki, bu da DİA-nın ölkə üzrə məzun sayına nisbətindən 5,4 dəfə yüksək göstəricidir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında təhsilin yüksək keyfiyyətindən və dövlət idarəçiliyi sahəsində peşəkar insan potensialının formalaşdırılmasına verilən mühüm töhfədən xəbər verir.

Dövlət qulluğunun təşkili və dövlət qulluqçularının peşə hazırlığı səviyyəsini əks etdirən əsas göstəricilərdən biri onların bilavasitə çalışdıqları sahələrdə əldə olunan nəticələrdir. Beynəlxalq təşkilatların rəsmi hesabatlarına əsasən, Azərbaycan Respublikası bir sıra iqtisadi və sosial inkişaf istiqamətlərində yüksək nəticələr əldə etmiş, dünya liderləri sırasında yer almış, bəzi sahələrdə isə lider mövqeyə yüksəlmişdir.

Bu uğurların əsasında Prezident İlham Əliyevin dövlət idarəçiliyi sahəsində tətbiq etdiyi "bir addım irəlidə olmaq" strategiyası və yüksək səviyyədə qurulmuş dövlət qulluğu sistemi dayanır. Yüksək intellektə, gələcəyi görmək və proqnozlaşdırmaq bacarığına əsaslanan bu strategiyanın uğurla həyata keçirilməsini təsdiq edən çoxsaylı nümunələr mövcuddur. Azərbaycan Respublikasında bərpaolunan enerjidən geniş istifadəyə keçid prosesi bu baxımdan mühüm nümunələrdən biri kimi göstərilə bilər.

Məlum olduğu kimi, Prezident İlham Əliyev bu vəzifəyə ilk dəfə 2003-cü ildə seçilmişdir. Həmin dövr ölkə olduqca mürəkkəb bir vəziyyətdə idi: Azərbaycan ərazisinin 20 faizi işğal altında idi, əhalinin 13 faizi qaçqın və məcburi köçkün vəziyyətində yaşayırdı, ölkədə yoxsulluğun səviyyəsi isə 49 faizdən yüksək idi.

Bu problemlərin həlli məqsədilə cənab İlham Əliyev prezidentliyinin ilk illərindən etibarən iqtisadiyyat, sosial və humanitar sahələr, hərbi quruculuq və diplomatiya istiqamətlərində bir sıra genişmiqyaslı və strateji əhəmiyyətli təşəbbüslərin əsasını qoymuşdur. Sonrakı illərdə bu siyasətin ardıcıl şəkildə həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası 2020-ci ildə öz ərazi bütövlüyünü, 2023-cü ildə isə bütün ərazisi üzərində tam suverenliyini təmin etmişdir.

Prezident İlham Əliyevin 21 sentyabr 2004-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında bərpaolunan enerji üzrə Milli Proqram təsdiq edilmişdir. 2004-cü ildə gündəmində bir çox təxirəsalınmaz problem olan, eyni zamanda neft və qazla zəngin bir ölkədə belə bir proqramın qəbul edilməsi, şübhəsiz ki, Prezident İlham Əliyevin davamlı inkişaf siyasəti və inklüziv cəmiyyət quruculuğu sahəsində dərin biliklərinin, uzaqgörənliyinin və uzunmüddətli strateji təfəkkürünün nəticəsi idi.

Sonrakı illərdə də dövlət başçısı bərpaolunan enerjinin inkişafına daim xüsusi diqqət yetirmişdir. 2004-2023-cü illərdə ölkədə bu sahənin inkişafı ilə əlaqədar 14 sərəncam və fərman imzalanmışdır. Hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan "yaşıl enerji" zonaları elan edilmiş və həmin ərazilərdə genişmiqyaslı layihələrin həyata keçirilməsinə başlanılmışdır.

Bu təşəbbüslər öz nəticəsini 20 il sonra daha aydın şəkildə göstərmişdir. BMT-nin 2024-cü ildə Bakıda keçirilən COP29 konfransı ərəfəsində Cenevrədə fəaliyyət göstərən Dünya İqtisadi Forumu ölkələrdə bərpaolunan enerjiyə keçidin vəziyyəti haqqında xüsusi hesabat dərc etmişdir. Hesabatda dünyanın 120 ölkəsində bu sahənin mövcud vəziyyəti barədə məlumat təqdim olunmuşdur. Azərbaycan həmin siyahıda 32-ci yerdə qərarlaşmış və İtaliya, Belçika, Çexiya, eləcə də iqtisadi baxımdan yüksək inkişaf səviyyəsinə malik bir sıra digər ölkələri geridə qoymuşdur.

Bu sahənin yüksək səmərə ilə idarə olunmasına gəldikdə isə Azərbaycan Respublikası dünya üzrə lider mövqelərdən birinə malikdir. Belə ki, ölkəmiz ümumi daxili məhsulun hər vahidinə, yəni alıcılıq qabiliyyəti pariteti ilə 1000 ABŞ dollarına düşən enerji transformasiyası indeksi üzrə ən yüksək göstəricilərdən birini nümayiş etdirir **(Şəkil 1).**

texnologiyası kimi təsnifata daxil edilmiş və dövlət qulluqçularının təhsili, eləcə də yenidən hazırlanması üçün tətbiq olunan tədris proqramlarında öz əksini tapmışdır.

Ölkədə tətbiq edilən digər yeni idarəetmə üsulu sinergetik texnologiya kimi təsnifata və dövlət qulluqçularının tədris proqramlarına daxil edilmişdir. Bunun əsasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə dövlət idarəçiliyində qəbul olunmuş dövlət-özəl tərəfdaşlıq modelinə dünyada ilk dəfə inklüziv səviyyədə vətəndaş cəmiyyəti də cəlb edilmişdir.

Belə üçtərəfli - dövlət, özəl sektor və vətəndaş cəmiyyəti - tərəfdaşlıq modeli davamlı inkişaf siyasəti və inklüziv cəmiyyət quruculuğu məqsədilə həyata keçirilən idarəetmə üsulu kimi sinergetik texnologiya təsnifatına daxil edilmişdir. Beynəlxalq təşkilatların hesabatlarına əsasən, bu texnologiyalar davamlı inkişaf siyasəti və inklüziv cəmiyyətin formalaşması istiqamətində həyata keçirilən iqtisadi və sosial proqramların səmərəliliyini əhəmiyyətli dərəcədə artırır.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış və fəaliyyət göstərən İnklüziv İnkişaf və DOST mərkəzləri Azərbaycanın sosial və humanitar inkişafında bu yanaşmanın xüsusi yer tutduğunu nümayiş etdirir.

Prezident İlham Əliyevin "bir addım irəlidə olmaq" prinsipi dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində tədrisin keyfiyyətinin yüksəldilməsi üçün fərqli texnologiyalardan istifadəni zəruri edir. Bir qayda olaraq, əmək bazarının tələblərinin tədris prosesində nəzərə alınması məqsədilə müvafiq təşkilatların nümayəndələri təhsil müəssisəsinin fəaliyyətinə cəlb olunur. Bu isə məqsədyönlü kadr hazırlığı baxımından olduqca əhəmiyyətli tədbirdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası bu imkanla yanaşı, eyni məqsədə xidmət edən digər mühüm fəaliyyətləri də həyata keçirir. Dövlət və özəl təşkilatlarda rəhbər və digər səviyyələrdə qərar qəbul edən şəxslər üçün yerlərdə informasiya seminarları təşkil olunur, onlara yeni və ən müasir elmi yanaşmalara əsaslanan davamlı inkişaf siyasəti, eləcə də innovativ idarəetmə texnologiyaları haqqında məlumatlar təqdim edilir.




***Şəkil 1. Enerji keçidinin iqtisadi səmərəliliyi: ÜDM-in hər vahidinə (1000 ABŞ dolları, AQP) qazanılmış enerji keçidi indeksi: Mənbə: Dünya Bankı, 2026; Dünya İqtisadi Forumu, 2023***

Prezident İlham Əliyevin davamlı inkişaf siyasətində tətbiq etdiyi bu idarəetmə üsulu yeni rezonans

Belə əməkdaşlıq qarşılıqlı fayda təmin edir: bir sıra hallarda yeni ixtisas və ixtisaslaşmalar üzrə tələblərin formalaşmasına şərait yaranır. Bunun nəticəsidir ki, akademiyanın məzunları ölkə üzrə ümumi məzunların orta hesabla cəmi 0,71 faizini təşkil etməsinə baxmayaraq, işə qəbul və karyera inkişafı göstəricilərində yüksək nəticələr nümayiş etdirirlər **(Şəkil 2).**




***Şəkil 2. Dövlət qulluqçularının hazırlanması və ixtisasartırma prosesində keyfiyyətin idarə edilməsi.***

Beynəlxalq təşkilatların statistikasına əsasən, Azərbaycan Respublikası dünyanın əsas prioritetlərindən olan davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşdırılması istiqamətində yüksək nəticələr əldə etmişdir. Bu uğurların əsasında Prezident İlham Əliyevin innovativ inkişaf strategiyası, optimal qurulmuş dövlət qulluğu sistemi və yüksək peşəkarlıq nümayiş etdirən dövlət qulluqçuları dayanır.

Dövlət qulluqçularının təlimi bu səviyyənin davamlı şəkildə təkmilləşdirilməsinin vacib amillərindən biridir. Bu məqsədlə dövlət qulluqçuları arasında sorğular aparılır, əldə edilmiş nəticələr əsasında onların bilik və bacarıq ehtiyacları təhlil olunur, mövcud bacarıq boşluqları və prioritet inkişaf istiqamətləri müəyyənləşdirilir. Son illər bu istiqamətdə müəyyən edilmiş ehtiyaclara uyğun olaraq müvafiq təlimlər keçirilmişdir.

Təlim proqramlarının məzmunu hər il ölkədə müəyyən edilən strateji prioritetlərə, dövlət siyasətinin aktual istiqamətlərinə və müasir idarəetmə çağırışlarına uyğun olaraq yenilənir. Belə ki, 2023-cü ildə "Heydər Əliyev İli" çərçivəsində Heydər Əliyev irsinin öyrənilməsi və dövlətçilik ənənələrinin təbliği, 2024-cü ildə "Yaşıl dünya naminə həmrəylik ili" və COP29 ilə əlaqədar davamlı inkişaf və iqlim gündəliyi, 2025-ci ildə "Konstitusiya və Suverenlik İli" çərçivəsində konstitusion dəyərlər və suverenliyin möhkəmləndirilməsi, 2026-cı ildə isə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində müasir şəhərsalma, memarlıq və idarəetmə yanaşmalarına həsr olunmuş təlimlər təşkil edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq, bu diyarda çalışan dövlət qulluqçuları üçün hər ay iki təlim təşkil edilir. Müqavilələr əsasında "ASAN xidmət" əməkdaşları üçün də il ərzində ayda iki dəfə təlimlər həyata keçirilir.

Qeyd edilməlidir ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən davamlı inkişaf siyasəti və inklüziv cəmiyyət quruculuğu prosesində tətbiq olunan proqram və texnologiyalar digər ölkələr tərəfindən də böyük maraqla qarşılanır. Bu sahədə təlimlərin keçirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına müvafiq müraciətlər daxil olur.

Son dövr bu istiqamətdə bir sıra mühüm təlim proqramları həyata keçirilmişdir. Belə ki, Qazaxıstan Respublikasının müxtəlif regionlarında çalışan rəhbər şəxslər üçün DİA-da təlim proqramı təşkil edilmiş, həmçinin Özbəkistan Respublikası Prezidenti yanında Dövlət Siyasəti və İdarəetmə Akademiyasında magistratura səviyyəsində təhsil alan dövlət qulluqçuları üçün "Dövlət idarəçiliyində innovativ texnologiyalar: Azərbaycan Respublikasının təcrübəsi" mövzusunda təlim proqramı keçirilmişdir.

Beləliklə, müasir dövrdə dövlət qulluğunun keyfiyyəti yalnız inzibati idarəetmənin səmərəliliyini deyil, bütövlükdə ölkənin davamlı inkişaf potensialını, sosial dayanıqlılığını və strateji hədəflərə çatmaq imkanlarını müəyyən edən əsas amillərdən biri kimi çıxış edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşmış innovativ dövlət idarəçiliyi modeli, insan potensialına əsaslanan inkişaf strategiyası və bu prosesdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının oynadığı mühüm rol göstərir ki, peşəkar, bilikli və müasir çağırışlara hazır dövlət qulluqçusu güclü dövlətin, dayanıqlı cəmiyyətin və rəqabətqabiliyyətli gələcəyin əsas dayaqlarından biridir. Bu baxımdan dövlət qulluqçularının hazırlanması və fasiləsiz təhsili yalnız cari idarəetmə ehtiyacı deyil, Azərbaycanın uzunmüddətli milli inkişaf strategiyasının ayrılmaz və strateji əhəmiyyətli istiqamətidir.

***Urxan ƏLƏKBƏROV,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik***

# Böyük qayıdış və Azərbaycanın strateji gələcəyi

**Müasir tariximizin elə mühüm hadisələri var ki, onların təsiri yalnız müəyyən bir dövrlə məhdudlaşmır, bütövlükdə xalqımızın taleyini, dövlətimizin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyimiz böyük qələbə və 2023-cü ildə aparılmış qısamüddətli antiterror əməliyyatı nəticəsində ölkəmizin bütün ərazilərində dövlət suverenliyinin tam bərpa olunması məhz belə dönüş nöqtələridir.**




Bu qələbə yalnız işğal altındakı torpaqların azad edilməsi ilə yekunlaşmadı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi məsuliyyətli və uzunmüddətli bir strateji mərhələ başlandı. Bu, dağıdılmış şəhər və kəndlərimizin yenidən qurulması, azad torpaqlarımızda həyatın bərpası və yüz minlərlə insanın doğma yurdlarına qayıdışının təmin edilməsi mərhələsidir.

Məhz bu baxımdan Böyük qayıdış müasir Azərbaycanın ən mühüm dövlət proqramlarından biri olmaqla yanaşı, həm də milli inkişaf strategiyasının əsas istiqamətinə çevrilib. Bu prosesin mahiyyəti yalnız keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması ilə məhdudlaşmır. Söhbət yeni iqtisadi modelin qurulmasından, müasir şəhərsalma prinsiplərinin tətbiqindən, dayanıqlı məşğulluğun təmin edilməsindən, innovativ kənd təsərrüfatının yaradılmasından, "yaşıl enerji" zonasının formalaşdırılmasından və bütövlükdə Qarabağla Şərqi Zəngəzurun ölkənin ümumi sosial-iqtisadi sisteminə tam inteqrasiyasından gedir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas məqsədi də məhz budur: azad edilmiş torpaqları yalnız bərpa etmək deyil, onları Azərbaycanın ən müasir və rəqabətqabiliyyətli iqtisadi regionlarından birinə çevirmək.

## Kompleks inkişaf konsepsiyası

Son beş ildə görülən işlər göstərir ki, Böyük qayıdış ayrı-ayrı layihələrin toplusu olmaqdan daha çox dövlət idarəçiliyinin bütün sahələrini əhatə edən kompleks inkişaf konsepsiyasıdır. İnfrastrukturun qurulması, yaşayış məntəqələrinin tikintisi, yol, elektrik, qaz, su və rabitə şəbəkələrinin yaradılması, hava limanlarının inşası, sənaye parklarının salınması, kənd təsərrüfatının inkişafı, sosial xidmətlərin təşkili və məşğulluğun təmin olunması Azərbaycan Prezidentinin irəli sürdüyü vahid strategiyanın tərkib hissələridir.

Bu strategiyanın mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, dövlət əvvəlcə yaşayış üçün bütün zəruri şəraiti formalaşdırır, daha sonra insanların qayıdışını təmin edir. Beləliklə, öz doğma yurdlarına qayıdan vətəndaş hazır infrastruktur, o cümlədən məktəb, xəstəxana, xidmət müəssisələri və məşğulluq imkanları ilə əhatə olunur. Bu yanaşma Böyük qayıdışı dünyanın müxtəlif bölgələrində həyata keçirilmiş oxşar proqramlardan fərqləndirən əsas cəhətlərdəndir.

Artıq Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası yekunlaşmaq üzrədir və hazırda isə ikinci dövlət proqramının hazırlanması istiqamətində intensiv iş aparılır. Bu faktın özü dövlətin inkişaf siyasətinin necə dayanıqlı və davamlı, bütün təfərrüatlarına qədər düşünülmüş, dəqiq planlaşdırılmış şəkildə həyata keçirildiyini göstərir. Əgər birinci mərhələnin əsas məqsədi infrastrukturun qurulması, yaşayış məntəqələrinin yaradılması və ilkin məskunlaşmanın təmin edilməsi idisə, ikinci mərhələdə əsas prioritet iqtisadi dayanıqlığın gücləndirilməsi nəzərdə tutulur.

Azərbaycan Prezidenti Administrasiyasının, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın Ağdərə şəhərində keçirilmiş növbəti toplantısında da qeyd edildiyi kimi, artıq yaradılmış infrastruktur bazası üzərində dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, məskunlaşmanın iqtisadi və sosial dayaqlarının möhkəmləndirilməsi qarşıdakı dövrün əsas vəzifələrindəndir. Bu yanaşma dövlətimizin insanların yalnız qayıtmasını deyil, onların uzunmüddətli rifahını da təmin etməyi hədəflədiyini nümayiş etdirir.

## Məşğulluq Böyük qayıdışın sosial dayağıdır

Bu baxımdan aqrar sektorun inkişafı yeni iqtisadiyyatın əsas istiqamətlərindəndir. Qarabağ və Şərqi Zəngəzur tarixən Azərbaycanın ən məhsuldar kənd təsərrüfatı bölgələrindən olub. Uzun illər işğal nəticəsində istifadəsiz qalmış münbit torpaqlar bu gün yenidən ölkənin ərzaq təhlükəsizliyinə xidmət etməyə başlayıb. Yeni dövlət siyasətində torpaq və su ehtiyatlarından səmərəli istifadə, yüksək məhsuldarlığa əsaslanan müasir aqrar istehsal, emal müəssisələrinin yaradılması və kənd yerlərində dayanıqlı məşğulluğun təmin olunması xüsusi yer tutur. Bu məqsədlə 2026-2030-cu illəri əhatə edən kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin inkişaf proqramının Böyük qayıdış strategiyası ilə uzlaşdırılması nəzərdə tutulur.

Belə yanaşma təsadüfən formalaşmayıb: dünya təcrübəsi göstərir ki, müharibədən sonrakı dövrdə kənd təsərrüfatının sürətli inkişafı həm məşğulluğu artırır, həm də regionların iqtisadi dayanıqlığını möhkəmləndirir. İnsan yalnız evə qayıtmaqla deyil, həmin ərazidə işləmək, gəlir əldə etmək və ailəsini təmin etmək imkanına malik olduqda doğma yurdda daimi məskunlaşır. Məhz buna görə də dövlət siyasətində məşğulluq məsələsinə xüsusi önəm verilir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən proqramlar nəticəsində 2026-cı ilin iyun ayına qədər işğaldan azad olunmuş ərazilərdə məskunlaşan 12 mindən artıq iqtisadi fəal şəxsdən 10,8 min nəfərinin məşğulluğu təmin olunub. Əlavə olaraq 1300 nəfərə yaxın şəxsin də işlə təmin edilməsi istiqamətində iş aparılır. Bu göstərici "Böyük qayıdış" proqramının sosial siyasətlə iqtisadi siyasətin vəhdəti üzərində qurulduğunu göstərir.

Ardıcıl şəkildə həyata keçirilən özünüməşğulluq proqramları bölgədə yeni sahibkarlar da yetişdirir. Məlumdur ki, məşğulluq vətəndaşların yalnız dövlət müəssisələrində işlə təmin olunması ilə məhdudlaşa bilməz. Bu baxımdan azad olunmuş ərazilərdə həyata keçirilən özünüməşğulluq proqramları kənd təsərrüfatı, xidmət və istehsal sahələrində yüzlərlə kiçik ailə biznesinin formalaşmasına imkan yaradır. Artıq 881 nəfər aktivlərlə təmin edilərək öz təsərrüfatını qurub. Hazırda daha 490 ailənin proqrama cəlb olunması nəzərdə tutulur. Bu proqramların üstünlüyü ondadır ki, insanlar dövlət yardımından asılı qalmır, öz bizneslərini quraraq yerli iqtisadiyyatın inkişafında iştirak edirlər.

## İnsan kapitalına sərmayədən başlamış ekoloji tarazlığadək

Bu gün dünyanın bütün məkanlarında müasir iqtisadiyyat üçün ən vacib resurs məhz insan kapitalıdır. Belə bir zərurəti nəzərə alaraq hazırda minlərlə keçmiş məcburi köçkün peşə hazırlığı kurslarına cəlb olunur. İndiyədək 6724 nəfər müxtəlif ixtisaslar üzrə peşə hazırlığı keçib, onların əhəmiyyətli hissəsi artıq işlə təmin olunub. Bağbanlıq, qida təhlükəsizliyi, traktorçu-maşinist və digər peşələr üzrə təşkil olunmuş kurslar gələcəkdə regionun iqtisadi inkişafı üçün zəruri kadr ehtiyatı formalaşdırır.

Böyük qayıdışın uğurunun vacib şərtlərindən biri də özəl investisiyaların cəlb edilməsidir. Artıq Ağdərə və Xocalıda həyata keçirilən iri aqrar və sənaye layihələri bunu aydın nümayiş etdirir. Qərargahın toplantısında adları çəkilən "Frutti Aqro" şirkətinin intensiv meyvə bağları, "Dəmirli" Filiz Emalı Kompleksi, Daşbulaqda yaradılan baramaçılıq infrastrukturu, "Qoç Ət" fermer təsərrüfatı və digər layihələr regionda iqtisadi fəallığın artmasına, yeni iş yerlərinin açılmasına və sahibkarlığın inkişafına mühüm töhfə verir. Eyni zamanda Xocalıda istifadəyə verilmiş "Qarabağ Tekstil Evi" müəssisəsində artıq onlarca sakin daimi işlə təmin olunub və yeni peşə hazırlığı proqramları həyata keçirilir.

Qarabağın, Şərqi Zəngəzurun bərpası yalnız sosial-iqtisadi layihələrlə məhdudlaşmır. Yeni inkişaf modeli ekoloji tarazlığın qorunmasına da əsas prioritetlərdən biri kimi mühüm əhəmiyyət verir. Su ehtiyatlarının səmərəli idarə olunması, ekosistemlərin bərpası, torpaqların qorunması və təbii resurslardan rasional istifadə uzunmüddətli inkişaf strategiyasının ayrılmaz hissəsidir. Bu yanaşma gələcək nəsillər üçün sağlam yaşayış mühitinin formalaşdırılmasına xidmət edir.

Dövlətin həyata keçirdiyi kompleks strategiya sayəsində Qarabağın, Şərqi Zəngəzurun bütün bölgələrində paralel bərpa-quruculuq prosesləri təmin olunur. Əlaqələndirmə Qərarganının iclasının keçirildiyi Ağdərə də yeni inkişaf mərhələsinin əsas simvollarındandır. Bu, Ağdərənin Böyük qayıdışın növbəti mərhələsində mühüm inkişaf mərkəzlərindən birinə çevrildiyini göstərir. Şəhərin Baş planı, yeni sənaye və aqrar layihələr, infrastrukturun genişləndirilməsi və sahibkarlığın inkişafı Ağdərənin yaxın illərdə Qarabağın mühüm iqtisadi mərkəzlərindən birinə çevriləcəyini göstərir.

## Milli iradənin təntənəsi

"Böyük qayıdış" proqramı yalnız iqtisadi layihə deyil, həm də Azərbaycan xalqının tarixi yaddaşının, milli həmrəyliyinin və dövlətçilik iradəsinin təcəssümüdür. 30 ilə yaxın doğma yurd həsrəti yaşayan insanların yenidən öz evlərinə qayıtması milli ədalətin bərpasıdır. Dağıdılmış şəhərlərin yenidən qurulması Azərbaycanın gücünün, iqtisadi imkanlarının, idarəetmə potensialının göstəricisidir. Bu gün Qarabağ və Şərqi Zəngəzur artıq keçmiş münaqişə bölgəsi deyil. Burada yeni şəhərlər salınır, məktəblər açılır, müəssisələr fəaliyyətə başlayır, istehsal genişlənir, insanlar işləyir və yaşayırlar.

Məhz buna görə Böyük qayıdış Azərbaycanın gələcəyinə doğru inamlı addımdır. Dövlətin həyata keçirdiyi ardıcıl siyasət göstərir ki, azad olunmuş torpaqlar yaxın onilliklərdə ölkənin iqtisadi artımının, ərzaq təhlükəsizliyinin, "yaşıl inkişaf"ının və regional rəqabət qabiliyyətinin əsas hərəkətverici qüvvələrindən birinə çevriləcək. Beləliklə, Böyük qayıdış artıq bir dövlət proqramından daha geniş məna daşıyır. O, müasir Azərbaycanın inkişaf fəlsəfəsini, milli birliyini və gələcəyə baxışını ifadə edən ümummilli hədəfdir. Qarabağda və Şərqi Zəngəzurda qurulan hər bir yol, tikilən hər bir məktəb, istifadəyə verilən hər bir müəssisə və doğma evinə qayıdan hər bir ailə bu böyük strateji məqsədin gerçəkləşdiyini nümayiş etdirir.

*İradə ƏLİYEVA, "Azərbaycan"*

**Ötən həftənin iqtisadi icmalı**

# İİB-nin Bakı toplantıları, startap müsabiqəsi və regional aqrar müşavirələr

Həftəboyu iqtisadi sahədə bir sıra mühüm proseslər baş verib və vacib qərarlar qəbul olunub. Qlobal bazarlardakı tendensiyalar, makroiqtisadi göstəricilərdəki dəyişikliklər və müxtəlif sektorlarda baş verən yeniliklər iqtisadi gündəmin əsas mövzularını təşkil edib. Aşağıdakı icmalda həftənin ən vacib iqtisadi hadisələri və onların təsirləri təhlil olunur.



İqtisadi gündəmə damğa vuran ən mühüm hadisələrdən biri Bakıda keçirilən İslam İnkişaf Bankı (İİB) Qrupunun 51-ci İllik Toplantıları oldu. Regional əməkdaşlıq, dayanıqlı inkişaf və investisiya imkanlarının müzakirə edildiyi tədbir həmin günlərdə ictimaiyyətin diqqət mərkəzində idi. İllik toplantılar çərçivəsində keçirilən tədbirlərdə halal iqtisadiyyatın inkişafı, etik və dayanıqlı maliyyələşdirmə, kiçik və orta biznesin "yaşıl keçid"ə uyğunlaşdırılması, regional inteqrasiya və investisiya imkanları əsas müzakirə mövzuları olub. "Dayanıqlı rifah naminə regional inteqrasiya" mövzusuna həsr edilən forumda üzv ölkələrin hökumət nümayəndələri, özəl sektor təmsilçiləri və beynəlxalq maliyyə institutlarının rəhbərləri iştirak edərək iqtisadi əməkdaşlığın genişləndirilməsi yollarını müzakirə ediblər.

Azərbaycanın evsahibliyi etdiyi toplantılar çərçivəsində 14-cü Özəl Sektor Forumu və HELF/AZHAB Forumu 2026, eləcə də 8-ci Dayanıqlı İnkişaf Məqsədləri Dialoqu keçirilib. Tədbirlərdə innovativ maliyyələşdirmə mexanizmləri, dayanıqlı inkişaf məqsədlərinə nail olunması, regional iqtisadi inteqrasiya və Azərbaycanın investisiya potensialı ətrafında fikir mübadiləsi aparılıb. Bu müzakirələr ölkənin beynəlxalq iqtisadi əməkdaşlıq platformalarında artan rolunu bir daha nümayiş etdirib.

* * *

İnnovasiya və sahibkarlığın inkişafına yönəlmiş mühüm tədbirlərdən biri də "İslam İnkişaf Bankı Qrupunun 5-ci Startaplar və İnnovasiya Təqdimat Müsabiqəsi 2026" olub. İİB-yə üzv ölkələrdən startapları, investorları və inkişaf tərəfdaşlarını bir araya gətirən müsabiqə innovasiya, süni intellekt, maliyyə və sahibkarlıq sahələrində perspektivli layihələrin təqdimatı üçün beynəlxalq platforma rolunu oynayıb.

Müsabiqənin final mərhələsində 12 startap öz layihələrini beynəlxalq investorlar və ekspertlər qarşısında təqdim edib. Nəticədə "BioSell" birinci, "Bayuti" ikinci, "Park Hub" isə üçüncü yerə layiq görülüb. Bununla yanaşı, süni intellekt, iqlim və davamlılıq, maliyyə inklüzivliyi, qadın sahibkarlığı, sosial təsir və regional inteqrasiya istiqamətləri üzrə 6 startap xüsusi mükafatlarla təltif olunub. Azərbaycandan 220-dən çox müraciətin daxil olduğu müsabiqə innovativ sahibkarlığın təşviqi, startapların investorlara çıxış imkanlarının genişləndirilməsi və ölkənin innovasiya ekosisteminin beynəlxalq əməkdaşlıq platformalarına inteqrasiyası baxımından əhəmiyyətli hadisə kimi yadda qalıb.

* * *

Ötən həftə sahibkarlığın inkişafı və yerli biznesin təşviqi istiqamətində mühüm tədbirlərdən biri də Bakıda keçirilən "7-ci Yerli Şirkətlərin Tanıtım Sərgisi" idi. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və "Marsol Group"un birgə təşkilatçılığı ilə keçirilən sərgidə inşaat, qida, informasiya-kommunikasiya texnologiyaları, təhsil, sənaye, kənd təsərrüfatı, logistika və tekstil daxil olmaqla müxtəlif sahələri təmsil edən 300-dən çox yerli şirkət öz məhsul və xidmətlərini nümayiş etdirib. Tədbirdə dövlət qurumlarının nümayəndələri və biznes ictimaiyyətinin təmsilçiləri iştirak edərək ölkədə sahibkarlığın inkişafı, yerli məhsulların ixrac potensialının artırılması və "Made in Azerbaijan" brendinin təşviqi məsələlərini müzakirə ediblər.

Sərgi çərçivəsində təşkil olunan B2B və B2G görüşləri sahibkarlar üçün həm özəl sektor nümayəndələri, həm də dövlət qurumları ilə birbaşa əlaqələrin qurulmasına imkan yaradıb. Mikro və kiçik sahibkarların iştirakına dəstək məqsədilə xüsusi stend də ayrılıb. Artıq yeddinci dəfə təşkil olunan sərgi yerli şirkətlərin tanıdılması, yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi və bizneslər arasında əməkdaşlığın gücləndirilməsi baxımından mühüm platforma kimi qiymətləndirilir.

* * *

Azərbaycanın beynəlxalq enerji əməkdaşlığının genişləndirilməsi istiqamətində atdığı addımlar da həftənin əsas iqtisadi gündəm mövzuları sırasında yer alıb. Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) energetika nazirlərinin 6-cı iclasında Azərbaycanı energetika nazirinin müavini Kamal Abbasov təmsil edib. İclasda qlobal enerji sistemində baş verən dəyişikliklər fonunda enerji təhlükəsizliyi, dayanıqlılıq, təmiz enerji texnologiyalarının tətbiqi və beynəlxalq əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə edilib.

Tədbirdə Azərbaycanın etibarlı enerji tərəfdaşı və mühüm tranzit ölkə kimi regional enerji əlaqələrinin inkişafına verdiyi töhfə vurğulanıb. Həmçinin ölkəmizin 2032-ci ilədək 8 QVt bərpaolunan enerji gücünün yaradılması, eləcə də "yaşıl enerji" dəhlizləri və interkonnektor layihələrinin həyata keçirilməsi istiqamətindəki planları diqqətə çatdırılıb. Bununla yanaşı, "Mərkəzi Asiya - Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsinin strateji əhəmiyyəti qeyd olunaraq, bu təşəbbüsün regionlararası enerji əlaqələrinin gücləndirilməsinə və Orta dəhliz boyunca enerji ötürülməsi imkanlarının genişlənməsinə töhfə verəcəyi bildirilib.

* * *

Həftəboyu "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirələr keçirilib. Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilən dövlət proqramına uyğun olaraq, ölkənin müxtəlif iqtisadi rayonlarında aqrar sahənin inkişafı, məhsuldarlığın artırılması, əlavə dəyər zəncirinin gücləndirilməsi və ixracyönümlülüyün genişləndirilməsi istiqamətində müşavirələr təşkil olunub. İsmayıllı rayonunda Dağlıq Şirvan iqtisadi rayonu üzrə keçirilən görüşdə Prezidentin sosial-iqtisadi məsələlər üzrə köməkçisi Xalid Əhədov iştirak edib. Ağcabədidə Qarabağ iqtisadi rayonu üzrə təşkil olunan müşavirədə Kənd Təsərrüfatı Nazirliyi rəsmiləri proqramın əsas prioritet istiqamətlərini təqdim ediblər. Quba rayonunda Quba-Xaçmaz iqtisadi zonasını əhatə edən görüşdə taxılçılıq, bağçılıq və heyvandarlıq sahələrinə dəstək mexanizmləri müzakirə olunub, Şəmkir rayonunda isə Qazax-Tovuz iqtisadi rayonu üzrə regional inkişaf məsələləri diqqət mərkəzində olub.

Müşavirələr çərçivəsində müasir texnologiyaların tətbiqi, suvarma sistemlərinin təkmilləşdirilməsi, eləcə də balıqçılıq və akvakultura təsərrüfatlarının inkişafı kimi istiqamətlər üzrə fermerlərə geniş məlumat verilib. Bu görüşlər dövlət proqramının icrasının sürətləndirilməsi və aqrar sektorun dayanıqlı inkişafının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Göründüyü kimi, ötən həftə ölkənin iqtisadi gündəmi beynəlxalq əməkdaşlıq platformalarında fəal iştirak, innovasiya və sahibkarlığın təşviqi, regional iqtisadi inkişaf təşəbbüsləri, eləcə də enerji və kənd təsərrüfatı sahələrində həyata keçirilən strateji tədbirlərlə yadda qalıb. Bu proseslər Azərbaycanın iqtisadi dayanıqlılığının gücləndirilməsi, neftdənkənar sahənin inkişafı və qlobal iqtisadi inteqrasiyanın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edib.

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

# Hamı Samux əriyinin sorağına gəlmişdi

**Samuxda "Regional İnkişaf" İctimai Birliyi, rayon icra hakimiyyəti, Kənd Təsərrüfatı Nazirliyi və Dövlət Turizm Agentliyinin birgə təşkilatçılığı ilə "III Ərik Festivalı" və "Aqrar Biznes Festivalı" keçirilib.**



Rayonun ictimai-siyasi və mədəni həyatında əlamətdar hadisəyə çevrilən festivalda RİH-in başçısı Firdovsi Əliyev, kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli, ali təhsil müəssisələrinin rəhbərləri, türkdilli dövlətlərin nümayəndələri, yerli və xarici iş adamları, rayon ictimaiyyətinin nümayəndələri və respublikanın müxtəlif bölgələrindən gəlmiş çoxsaylı qonaqlar iştirak etmişlər. Tədbir iştirakçıları öncə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuşlar.

Samux şəhəri xüsusi bayram libasına bürünmüşdü. Şəhərin mərkəzi küçə və prospektləri, park və xiyabanları bayramsayağı bəzədilmiş, musiqi sədaları altında keçirilən rəngarəng yürüş tədbir iştirakçılarında xoş təəssüratlar yaratmışdır.

Heydər Əliyev prospektində yerləşən Samux parkında təşkil olunan festivalda rayonun zəngin kənd təsərrüfatı potensialı, milli-mənəvi dəyərləri və mədəni irsi nümayiş olunurdu. Milli mətbəximizin bir-birindən dadlı təamları, fermerlərin yetişdirdikləri müxtəlif ərik növləri, ərikdən hazırlanan mürəbbələr, şirələr və digər məhsullar xüsusi stendlərdə sərgilənərək qonaqlara təqdim olunurdu. Festival ərazisində qurulan sərgi və satış guşələri, sənətkarların əl işləri, ustad dərsləri, idman yarışları, uşaqların təqdim etdikləri milli rəqslər, məktəblilərin ərik mövzusunda hazırladıqları rəsm və əl işləri tədbirə xüsusi rəng qatırdı. İştirakçılar həm milli dəyərlərimizi əks etdirən nümunələrlə tanış olur, həm də maraqlı əyləncə proqramlarından zövq alırdılar.

"Aqrar Biznes Festivalı" çərçivəsində isə kənd təsərrüfatı sahəsində tətbiq olunan müasir texnologiyalar, innovativ avadanlıqlar və aqrar təyinatlı texnikalar nümayiş olunurdu. Aqrar sahədə fəaliyyət göstərən şirkətlər tərəfindən toxum, gübrə, bitki mühafizə vasitələri və digər məhsullar sərgilənir, fermerlərə ətraflı məlumat verilirdi.

Mərasimdə çıxış edən RİH-in başçısı Firdovsi Əliyev Samuxda kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər barədə məlumat verərək bildirdi ki, Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafına göstərdiyi xüsusi diqqət və qayğı, eləcə də kənd təsərrüfatının dəstəklənməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində rayonda bağçılıq sürətlə inkişaf edir. Bu inkişaf nəticəsində hazırda Samuxda ərik bağlarının sahəsi 500 hektara çatıb ki, bu bağlarda da 16 növ ərik sortu yetişdirilir.

Sonra kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli çıxış etdi. Bildirdi ki, Prezident İlham Əliyevin mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verdiyi tapşırıqlar aqrar sahənin inkişafında yeni mərhələnin əsasını qoydu: "Dövlət başçısının kənd təsərrüfatında məhsuldarlığın artırılması, müasir texnologiyaların tətbiqi, su resurslarından səmərəli istifadə, emal sənayesinin genişləndirilməsi və fermerlərin dövlət dəstəyi ilə əhatə olunması istiqamətində verdiyi tapşırıqlar günün ən vacib məsələlərindəndir". Nazir müavini onu da qeyd etdi ki, Samuxda keçirilən "III Ərik Festivalı" və "Aqrar Biznes Festivalı" da kənd təsərrüfatının inkişafına, yerli məhsulların tanıdılmasına və fermerlərin bazar imkanlarının genişləndirilməsinə xidmət edir.

Festival konsert proqramı ilə başa çatıb.

*Sabir ƏLİYEV, "Azərbaycan"*




# Şükürbəyli kəndində daha 20 ailəyə evlərinin açarları təqdim olunub

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam edir. Bu gün Cəbrayıl rayonunun Şükürbəyli kəndinə növbəti köç yola salınıb.**

AZƏRTAC xəbər verir ki, Şükürbəyli kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Bu mərhələdə Şükürbəyli kəndinə 20 ailə - 89 nəfər köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

Bu gün Şükürbəyli kəndinə qayıdan ailələrə evlərinin açarları təqdim olunub.











Ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər. Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar. Qeyd edək ki, kənd müasir standartlara uyğun şəkildə yenidən qurulub və sakinlərin rahat yaşayışı üçün bütün zəruri infrastruktur yaradılıb.

Kənddə hər biri 80 yerlik olmaqla iki körpələr evi-uşaq bağçası, 360 şagird yerlik məktəb binası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi, həmçinin yerli icra strukturları üçün inzibati bina tikilib. Bununla yanaşı, 35/10 kV-luq elektrik yarımstansiyası inşa olunub, elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, internet və "İP TV" şəbəkələri yaradılıb, kənddaxili yollar asfaltlanıb. İlkin mərhələdə 635 fərdi yaşayış evi istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçün ayrılıb. Müasir üslubda inşa olunan evlər 2, 3, 4 və 5 otaqlıdır.

Beləliklə, uzun illər həsrətlə doğma yurda qayıdışı gözləyən insanlar üçün Şükürbəylidə yeni həyat başlayıb. Burada həyata keçirilən quruculuq işləri "Böyük qayıdış" proqramının uğurlu icrasının daha bir nümunəsidir.

# *Luka SKİEPATTİ:* "TAP daha inteqrasiya olunmuş Avropa təbii qaz bazarının formalaşmasına dəstək verir"

**Trans-Adriatik Boru Kəməri (TAP) "Cənub qaz dəhlizi"-nin Avropa qolu, Azərbaycandan Avropa bazarlarına hazırda 10 milyard kubmetr qaz tədarükünü həyata keçirən enerji layihəsidir. Boru kəməri Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" yatağından hasil olunan təbii qazı Avropaya nəql edir. İndiyədək TAP-la Avropaya nəql edilən təxminən 60 milyard kubmetr qaz Avropa İttifaqı üçün yeni, etibarlı, təhlükəsiz və sərfəli enerji mənbəyi olmaqla yanaşı, enerji yol xəritəsini asanlaşdırmaqda əsas rol oynayır. TAP sistemi keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. Boru kəməri cari il yanvarın 1-dən etibarən ildə əlavə 1,2 milyard kubmetr qaz nəql etmək gücünə malikdir.**

TAP Türkiyə-Yunanıstan sərhədində, Kipoidə Trans-Anadolu Təbii Qaz Boru Kəməri (TANAP) ilə birləşir, Yunanıstan və Albaniyadan keçərək Adriatik dənizi vasitəsilə İtaliyanın cənub sahillərinə çatır. Boru kəmərinin Yunanıstan və Albaniyadakı çıxışları, İtaliyanın sahilinə çıxışı Azərbaycan qazının geniş Avropa bazarlarına tədarükü üçün çoxsaylı imkanlar açır. "Cənub qaz dəhlizi"nin əsas hissəsi kimi TAP Avropa üçün strateji və iqtisadi əhəmiyyət daşıyır, yeni təbii qaz mənbəyinə etibarlı çıxışı təmin edir. TAP Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsində, təchizatın diversifikasiyasında, həmçinin karbon emissiyasının azaldılmasında mühüm rol oynayır.

Layihənin hazırkı vəziyyəti və indiyədək əldə olunmuş irəliləyişlə bağlı TAP boru kəmərinin operatoru olan "TAP AG" şirkətinin idarəedici direktoru Luka Skiepattinin AZƏRTAC-a eksklüziv müsahibəsini təqdim edirik:

*- TAP kommersiya fəaliyyətinə başladığı vaxtdan indiyədək Avropaya hansı həcmdə təbii qaz nəql edib?*

- 2020-ci ilin dekabr ayından bu günədək boru kəməri vasitəsilə Avropaya 59,2 milyard kubmetrdən çox Azərbaycan təbii qazı nəql olunub. Bu həcmin təxminən 4 milyard kubmetri Bolqarıstana, 5,5 milyard kubmetrdən çoxu Yunanıstana, 49,3 milyard kubmetrə yaxını isə İtaliyaya çatdırılıb.



*- Boru kəmərinin genişləndirilməsi layihəsinin hazırkı vəziyyəti necədir? İndiyədək əldə olunmuş irəliləyiş və növbəti mərhələlər barədə məlumat verə bilərsinizmi?*

- TAP-ın ilkin ötürücülük gücü mərhələli şəkildə genişləndirilərək illik 20 milyard kubmetrdən artıq həcmə çatdırıla bilər. Boru kəmərinin əlavə ötürücülük qabiliyyəti mütəmadi olaraq keçirilən Bazar Sınaqları (Market Test) vasitəsilə açıq, şəffaf və ayrı-seçkiliyə yol verməyən prinsiplər əsasında bazara təqdim olunur.

2021-ci ildəki Bazar Sınaqlarının nəticələrinə uyğun olaraq həyata keçirilən son genişləndirmə layihəsi çərçivəsində cari ilin əvvəlindən etibarən uzunmüddətli əsasda əlavə 1,2 milyard kubmetr ötürücülük gücü istifadəyə verilib. Bu, TAP-ın genişləndirilməsi istiqamətində mühüm mərhələ hesab olunur. Bazar Sınaqları tənzimlənən prosedurdur və daşıyıcı şirkətlərə uzunmüddətli ötürücülük gücü sifarişlərinə maraqlarını bildirmək və müvafiq öhdəliklər götürmək imkanı yaradır. Bu öhdəliklər genişləndirmə layihələrinin kommersiya baxımından əsaslandırılmış və uzunmüddətli dayanıqlı olduğunu nümayiş etdirmək üçün vacib şərtdir. Hər bir Bazar Sınağı iki mərhələdən ibarət olur: əvvəlcə məcburi olmayan, daha sonra isə məcburi mərhələ həyata keçirilir. Ötən ilin iyul ayında başlayan 2025-ci il Bazar Sınağının qeyri-məcburi mərhələsi hazırda davam edir.

*- Qlobal enerji bazarındakı qeyri-müəyyənliklər fonunda TAP-ın Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində rolunu necə qiymətləndirirsiniz? TAP hazırda Şərqi, Cənubi və Mərkəzi Avropa ölkələrinin enerji balansında və mənbələrin şaxələndirilməsi strategiyalarında hansı rolu oynayır?*

- İstismara verildiyi vaxtdan etibarən TAP Avropaya təxminən 60 milyard kubmetr Xəzər qazı çatdıraraq enerji təchizatının şaxələndirilməsinə və enerji sisteminin dayanıqlığının gücləndirilməsinə mühüm töhfə verib. Bu, xüsusilə İtaliya və Yunanıstan kimi əsas bazarlarda aydın şəkildə müşahidə olunur. Belə ki, 2025-ci ildə TAP İtaliyanın ümumi qaz idxalının təxminən 16 faizini və boru kəmərləri vasitəsilə idxal olunan qazın 25 faizini təmin edib. Yunanıstanda isə ölkənin qaz idxalının 14 faizdən çoxu TAP vasitəsilə həyata keçirilib. Getdikcə daha mürəkkəbləşən enerji mühitində mənbələrin və marşrutların şaxələndirilməsi, eləcə də enerji sistemlərinin dayanıqlığı və çevikliyi daha böyük əhəmiyyət kəsb edir. Bu baxımdan TAP yalnız əlavə qaz həcmləri təqdim etməklə kifayətlənmir, eyni zamanda regional əlaqəliliyin gücləndirilməsinə və daha inteqrasiya olunmuş Avropa qaz bazarının formalaşmasına dəstək verir. Kəmərin rolu yalnız nəql olunan qaz həcmləri ilə məhdudlaşmır. Ötürücülük gücünün artırılması, əks axın imkanları və gün ərzində çevik qaz çatdırılması kimi əməliyyat xüsusiyyətləri TAP-ın bazar tələblərinə daha operativ cavab verməsinə şərait yaradır.

Bundan əlavə, TAP şərq istiqamətində qaz nəqlini mümkün edən yeni ötürücülük məhsullarını istifadəyə verib. Hazırda qaz axınları yalnız qərb istiqamətində - Yunanıstan, Bolqarıstan və İtaliyaya deyil, həm də İtaliyadan Yunanıstan və Bolqarıstana, oradan isə Virtual Ticarət Nöqtəsi və Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) kimi əlaqələndirici infrastrukturlar vasitəsilə Qərbi Balkan ölkələri və Moldova bazarlarına yönləndirilir.

Beləliklə, TAP Avropanın enerji sistemində yalnız mənbələrin şaxələndirilməsinə deyil, həm də enerji təhlükəsizliyinin, dayanıqlılığın və çevikliyin artırılmasına mühüm töhfə verir.

# Tramp administrasiyası Azərbaycanı ən vacib nəqliyyat, enerji və diplomatik proseslərin mərkəzində dayanan ölkə kimi görür



**Topçubaşov Mərkəzinin qeyri-rezident tədqiqatçısı, Çikaqo Universitetinin Beynəlxalq münasibətlər ixtisası üzrə magistrantı, Avrasiya və Yaxın Şərq geosiyasəti üzrə ekspert Cozef Şumunov "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin qüvvəsinin dayandırılmasının uzadılması haqqında imzalanmış memorandumun əhəmiyyəti, Azərbaycanın enerji təchizatçısı, tranzit qovşağı və Orta dəhlizin əsas iştirakçılarından biri kimi artan nüfuzu, ABŞ-Azərbaycan əməkdaşlığının əsas istiqamətləri və regional təhlükəsizlik məsələləri barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik:**

*- ABŞ Prezidenti Donald Tramp Prezident İlham Əliyevə "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin qüvvəsinin dayandırılmasının uzadılması haqqında imzaladığı memorandumun surətini göndərib və ABŞ Prezidenti sənədə "Siz möhtəşəmsiniz" qeydini yazıb. Diplomatiyada belə bir jest hansı mesajlardan xəbər verir?*

- "Siz möhtəşəmsiniz" ifadəsi Trampa xas üslubdur və ictimai şəkildə verilmiş bir təsdiq möhürü kimi qiymətləndirilə bilər. Bu, yalnız Donald Trampın İlham Əliyevin liderliyinə müsbət münasibətini deyil, həm də ABŞ-Azərbaycan münasibətlərinin inkişaf istiqamətini dəstəklədiyini göstərir.

Adətən beynəlxalq münasibətlər üzrə ixtisaslaşmış ekspertlər fərdi lider amilinə çox diqqət yetirmirlər. Çünki bu amili ölçmək və proqnozlaşdırmaq çətindir. Lakin Tramp analitikləri bu amilə daha ciddi yanaşmağa sövq edib. Çünki onun diplomatiyası son dərəcə şəxsi xarakter daşıyır. Əlsıxmalar, qucaqlaşmalar, şəxsi mesajlar və ictimai təriflər kiçik görünə bilər, lakin bu amillər xarici siyasət dairələrinə kimin dəstəkləndiyini və kimin dəstəklənmədiyini göstərən siqnallar verir. Bu mənada şəxsi münasibətlər bir çox analitikin qəbul etmək istədiyindən daha böyük rol oynaya bilər. Bu hadisə iki lider arasında son dövrlərdə baş vermiş bir sıra isti və diqqətçəkən təmasların davamıdır. Trampın kabinet iclaslarında Azərbaycan haqqında müsbət fikirləri və Prezident İlham Əliyevin Trampı böyük lider və sülh yaradıcısı kimi xarakterizə etməsi buna nümunədir.

*- "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş uzun illərdir ABŞ-Azərbaycan münasibətlərində ən mübahisəli məsələlərdən biri olub. Bu jest münasibətlərdə əhəmiyyətli dönüşün olduğunu göstərirmi, yoxsa əvvəlki siyasətin davamıdır?*

- Bu addım məsələnin hər iki ölkə üçün tam bağlandığı anlamına gəlmir. Sadəcə olaraq, Bayden dövründə yaranmış istisnanı aradan qaldıraraq, prezidentlərin güzəşt tətbiq etmələri ənənəsinə qayıdışını ifadə edir. Hüquqi baxımdan Donald Tramp qeyri-adi bir addım atmayıb, yeganə fərq sənədə şəxsi qeydin əlavə edilməsidir. Lakin Tramp administrasiyasının Azərbaycanla bağlı daha geniş siyasəti, istər TRIPP layihəsi, istər Strateji Tərəfdaşlıq Xartiyası, istərsə də C6 formatı Vaşinqton və Bakı arasında münasibətlərin daha da gücləndiyini göstərən növbəti sübutdur.Tramp 2025-ci ildə vəzifəyə gəldikdən sonra Azərbaycan və Ermənistan arasında sülh sazişinin əldə olunmasına vasitəçilik edib, Zəngəzurdan keçən TRIPP dəhlizi layihəsini elan edib, Bakı ilə Strateji Tərəfdaşlıq Xartiyasını imzalayıb, vitse-prezident Cey. Di. Vens şəxsən Bakıya səfər edib və Mərkəzi Asiya ilə münasibətləri dərinləşdirib. Tramp administrasiyası Azərbaycanın həm coğrafi mövqeyinə, həm də son illərdə artan siyasi əhəmiyyətinə görə ölkəyə xüsusi diqqət yetirir və Azərbaycanı periferiyada yerləşən dövlət kimi deyil, Avrasiyanın ən vacib nəqliyyat, enerji və diplomatik proseslərinin mərkəzində dayanan ölkə kimi görür.

*- Azərbaycanın enerji təchizatçısı, tranzit qovşağı və Orta dəhlizin əsas iştirakçılarından biri kimi əhəmiyyəti son illərdə daha da artıb. Bu amillər Vaşinqtonun Bakı ilə bağlı siyasətinə nə dərəcədə təsir edir?*

- Tramp administrasiyası nəqliyyat və əlaqələndirmə baxımından əsas qovşaqlar hesab olunan dövlətlərlə güclü münasibətlərin vacibliyini başa düşür və Azərbaycan da həmin dövlətlərdən biridir. Azərbaycanın Türkiyə və Mərkəzi Asiya ilə yaxın əlaqələri, eyni zamanda Rusiya və Çinlə strateji münasibətləri onu Avrasiya məkanında nadir mövqeyə çıxarır. Vaşinqton regionda rəqabət qabiliyyətini qorumaq istəyirsə, ticarət, enerji və tranzit yollarının kəsişməsində yerləşən ölkələrlə güclü tərəfdaşlığa ehtiyac duyur. Azərbaycan artıq belə bir ölkəyə çevrilib.

*- Ermənistan-Azərbaycan sülh prosesində Azərbaycanın rolu Tramp administrasiyasının rəsmi Bakıya münasibətinin formalaşmasında nə dərəcədə əhəmiyyətlidir?*

- Prezident İlham Əliyevin Tramp administrasiyasının vasitəçiliyi ilə sülh sazişinə nail olmaq istiqamətində nümayiş etdirdiyi iradə Trampa açıq şəkildə göstərdi ki, Azərbaycan təkcə ABŞ ilə əməkdaşlıq etməklə kifayətlənmir, həmçinin Amerikanı formalaşmaqda olan beynəlxalq nizamda həqiqi lider ölkə kimi görür. Daha vacib məqam isə Azərbaycanın sülhü reallığa çevirməyə hazır olduğunu nümayiş etdirməsidir. Bu etimad addımı ABŞ-nin Azərbaycanla münasibətləri daha da dərinləşdirmək istəyinin əyani təsdiqidir.

# Xəzərin "yara"sı bağlanıb, suları durulub

## Dübəndidə neft sızması aradan qaldırılıb

**Bir neçə gün əvvəl Xəzərdə qeydə alınan neft sızması dənizin ekoloji vəziyyəti ilə bağlı narahatlıqları bir daha gündəmə gətirdi. Bu da təbiidir. Çünki bu cür hadisələr su hövzələrinin çirklənməsi, dəniz canlılarının məhv olması və sahilyanı ekosistemlərin balansının pozulması kimi ciddi nəticələrə səbəb ola bilər. Ona görə də Xəzər regionunda neft-qaz sektorunda müşahidə olunan intensivlik fonunda belə sızmaların qarşısının alınması və operativ şəkildə aradan qaldırılması xüsusi əhəmiyyət daşıyır.**

Xəbər verildiyi kimi, Xəzərə neft sızması Pirallahı adası ilə Dübəndi arasındakı akvatoriyada müəyyən edilib. Hadisənin miqyası və sızmanın mənbəyi ilə bağlı operativ araşdırmalar aparılıb. Mütəxəssislər əraziyə baxış keçirərək çirklənmənin yayılma sahəsini müəyyən ediblər. "Azneft" İstehsalat Birliyindən (İB) verilən məlumata görə, hadisənin ilkin mərhələsində neftin açıq çıxış nöqtəsi vizual olaraq müəyyən edilmədiyindən mümkün çirklənmə mənbələri bir neçə istiqamətdə araşdırılıb. Aparılan nəzarətli diaqnostik yoxlamalar nəticəsində sızmanın mənbəyinin "Azneft" İB-yə məxsus sualtı neft kəmərlərindən biri olduğu müəyyən edilib.

Mənbə təsdiqləndikdən dərhal sonra həmin kəmər üzrə neft nəqli dayandırılıb və vəziyyətin daha çox genişlənməsinin qarşısı alınıb. Hadisənin operativ idarə olunması məqsədilə "Azneft" İB tərəfindən xüsusi qərargah yaradılıb və insident nəzarət altına götürülüb. Qurumun dalğıc xidməti tərəfindən aparılan yoxlamalar zamanı sualtı neft kəmərində mexaniki zədələnmələr aşkar edilib. Bu zədələnmələrin xarici təsir nəticəsində, ehtimal ki, lövbərlə təmas zamanı yarandığı bildirilir. Zədənin müəyyən olunmasından sonra dərhal təmir-bərpa işlərinə start verilib və sızma aradan qaldırılıb.

Əslində, belə hadisələr təkcə Xəzərə xas deyil, bu, dünya okeanları və dənizlərində zaman-zaman təkrarlanan ekoloji problemdir. Neft-qaz hasilatı platformalarında baş verən texniki sızmalar, gəmi qəzaları, sənaye tullantılarının dənizə nəzarətsiz axıdılması, eləcə də dəniz dibində təbii şəkildə baş verən neft və qaz sızmaları problemin əsas mənbələridir. Hər il dünya miqyasında onlarca, bəzən isə daha çox irili-xırdalı neft sızması və bənzər hadisə qeydə alınır. Məsələn, 2010-cu ildə Meksika körfəzində baş verən "Deepwater Horizon" qəzası nəticəsində milyonlarla barel neft dənizə sızaraq ABŞ tarixində ən böyük ekoloji fəlakətlərdən birinə çevrilmişdi. ABŞ hökumətinin hesablamalarına görə, Meksika körfəzinə 4,9 milyon barel neft atılıb və nəticədə dəniz canlılarının yaşayış mühitinə fəlakətli ziyan dəyib. Bu, azmış kimi partlayış zamanı 11 nəfər də itkin düşüb. Həmin hadisə uzun illər bölgənin dəniz ekosisteminə ciddi ziyan vurmuşdu. Bu gün də Nigeriya sahillərində neft hasilatı və nəqli zamanı baş verən sızmalar Qvineya körfəzində genişmiqyaslı çirklənmələrə səbəb olur. Arktika və Şimal dənizi bölgələrində isə sərt iqlim şəraiti qəza risklərini artırır və təmizləmə işlərini çətinləşdirir. 2024-cü ildə Qara dənizdə fırtına səbəbindən göyərtəsində 29 ekipaj üzvü olan iki tanker qəzaya uğramış və neft sızması qeydə alınmışdır.

Bu cür hadisələr bir daha göstərir ki, neft-qaz hasilatı ilə bağlı işlərdə nəzarət mexanizmlərinin gücləndirilməsi, texniki təhlükəsizlik standartlarının yüksəldilməsi və operativ müdaxilə imkanlarının genişləndirilməsi olduqca vacibdir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Aqrar Təlim Mərkəzi Xocalı və Ağdərədə növbəti təlim proqramlarına başlayıb

**İşğaldan azad edilmiş ərazilərdə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzi tərəfindən kənd təsərrüfatı təyinatlı torpaqların yerli sakinlərə güzəştli şərtlərlə icarəyə verilməsi prosesinin effektivliyinin artırılması məqsədilə növbəti təlim proqramlarına start verilib. Təlimlər Xocalı rayonunun Təzəbinə və Xanabad kəndlərində, eləcə də Ağdərə rayonunun Suqovuşan qəsəbəsində təşkil olunub.**

Təlimlərin əsas məqsədi fermerlərin bilik və bacarıqlarının artırılması, müasir kənd təsərrüfatı yanaşmalarının təşviqi, torpaq və su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, eləcə də kənd təsərrüfatı sahəsində rəqabətqabiliyyətli və dayanıqlı təsərrüfatların formalaşdırılmasına dəstək verməkdir. Eyni zamanda fermerlərin rəqəmsal xidmətlərdən istifadə bacarıqlarının inkişaf etdirilməsi, dövlət dəstəyi mexanizmlərindən daha səmərəli yararlanmasının təmin olunması və müasir aqrar texnologiyaların tətbiqi üzrə biliklərinin artırılması da təlimlərin əsas hədəfləri sırasında yer alır.



Proqram çərçivəsində iştirakçılara meyvəçilik və tərəvəzçilik sahələrində müasir becərmə üsulları, səmərəli təsərrüfatçılığın təşkili, müasir suvarma sistemlərinin tətbiqi, kənd təsərrüfatı texnikalarından düzgün və təhlükəsiz istifadə qaydaları, eləcə də iqlim dəyişkənliyinin kənd təsərrüfatına təsiri barədə ətraflı məlumat verilib. Eyni zamanda fermerlərə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) üzərindən əkinlərin bəyan edilməsi qaydaları izah olunub, dövlət dəstəyi mexanizmləri və bu imkanlardan istifadə prosedurları barədə təqdimatlar keçirilib. İnteraktiv formatda təşkil olunan təlimlərdə sakinləri maraqlandıran suallar cavablandırılıb, mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb və tövsiyələr verilib.

Qeyd edək ki, Aqrar Təlim Mərkəzi tərəfindən bu günədək işğaldan azad edilmiş ərazilərdə - Zəngilan rayonunun Ağalı və Məmmədbəyli, Xocalı rayonunun Ballıca və Xanyurdu, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi, Ağdərə rayonunun Həsənriz kəndi, eləcə də Laçın rayonunun Zabux kəndində yaşayan sakinlər üçün 194 təlim keçirilib. Bu təlimlərdə ümumilikdə 655 nəfər iştirak etmiş, onlardan 566 nəfəri proqramları uğurla başa vuraraq sertifikat əldə etmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Torpağa bağlananda bolluq da olur, güzəran da

**Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə və indinin özündə cəlilabadlılar hər zaman dövlətdən kömək, dəstək görüblər. Onlar isə bunun qarşısında heç vaxt borclu qalmayıblar. Həmişə öz işləri ilə fərqləniblər, aqrar sektorun inkişafı üçün əllərindən gələni əsirgəməyiblər.**

1996-cı ildə Ulu Öndər Heydər Əliyev tərəfindən torpaq islahatının həyata keçirilməsi, torpaqların əsl sahiblərinə təmənnasız verilməsi Cəlilabad kəndlisinin də qarşısında geniş imkanlar açdı. Heç kim iş dalınca yaxın-uzaq şəhərlərə üz tutmadı, kəndində qalıb çörəyini payına düşən torpaqdan çıxarmağı üstün tutdu. Bilirdi ki, üstündə yaşadığı bu bərəkətli torpaq taxıl və üzümlə yanaşı, digər məhsulları da yetişdirməyə qadirdir, sadəcə, sovetlər zamanı bunu etmək mümkün deyildi, nəyi nə qədər əkmək haqqında göstəriş şəhərdən gəlirdi. Kartof, mərci, lərgə, sarımsaq, qarğıdalı və s. digər məhsulları adamlar yalnız öz həyətyanı sahələrində əkə bilərdilər.

Torpağın onu becərənlərin - sahiblərinin ixtiyarına verilməsi kəndliyə istədiyi məhsulu yetişdirmək imkanı verdi. Ayrı-ayrı fermerlər daha çevik tərpənərək ilk addımlarını atdılar. İlk növbədə kartofçuluqla məşğul olmağı qərara aldılar. Rusiya Federasiyasından məhsuldar toxumlar gətirib əkdilər. Sahənin üstünə elektrik xətti çəkdilər, subartezian quyular qazdılar. Zəhmətləri bəhrəsini verdi. Yetişdirdikləri məhsul onlara yaxşı gəlir gətirdi. Beləliklə, rayonda kartofçuluq inkişaf etməyə başladı. Bu gün rayonda istehsal olunan kartof daxili bazarla yanaşı, Rusiya, Ukrayna, Belarusa da göndərilir. Zaman keçdikcə bu işdə üstünlüklər əldə olunur. Fermerlər daha tez kartof yetişdirmək üçün sellofan örtüklər altında becərmə üsulunu tətbiq edirlər. Açıq sahədə əkilən kartofdan təxminən 20-25 gün tezyetişən həmin nübar məhsul baha qiymətə satıldığından fermerlərə daha yaxşı qazanc gətirir.

Hazırda Cəlilabadda bir il ərzində 3 dəfə kartof yetişdirilir. Yazın əvvəlində sellofan altında, yazda açıq havada və payızda. Sellofanaltı və açıq havada yetişdirilən kartofun yığımı, demək olar ki, başa çatıb. 3 min 345 hektar sahədən 82 min 120 ton məhsul əldə olunub. Bu da hər hektardan orta hesabla 245,5 sentner məhsul deməkdir. Bəzi fermerlər isə daha çox - hər hektardan 320 sentner məhsul əldə ediblər.

Cəlilabadlı fermerlərin işə yaxından bağlılığı, deyərdik ki, yaradıcı münasibəti nəticəsində rayonun bir neçə ərazisində çiyələk əkib-becərməyin əlverişli olduğu müəyyən edilib. Torpaq mülkiyyətçiləri qardaş Türkiyəyə gedib çiyələyin əkilib-becərilməsi texnologiyasını öyrəniblər. Sonra çiyələk şitilləri gətiriblər. Bol məhsul, yaxşı gəlir əldə ediblər. Beləliklə, çiyələkçilik də rayonda bu gün geniş yayılan sahələrdəndir. İndi cəlilabadlı fermerlər ABŞ, İtaliya və digər ölkələrdən daha keyfiyyətli və məhsuldar şitillər gətirib əkirlər. Artıq çiyələk də açıq sahədən əlavə, sellofan altında yetişdirilir. Nübar çiyələk fermerlərə daha yaxşı gəlir gətirir.

Rayonun Göytəpə şəhərində fermer Mirağa Həsənov istixana üsulu ilə ilboyu çiyələk yetişdirir. Deyir ki, bu, maraqlı və zövqverici bir işdir. Ona görə də hər gün 20-25 manat əməkhaqqı almaq şərtilə qonşu rayonlardan da bu sahədə işləməyə meyil göstərən işçilər çoxdur. Fermerin sözlərinə görə, çiyələyin yetişdirilməsində mühüm şərtlərdən biri onun su ilə təminatıdır. Ona görə də fermerlər, sahibkarlar şəxsi vəsaitləri hesabına sahələrə elektrik xətti çəkərək subartezian quyuları qazdırıb çiyələk kollarını damcı üsulu ilə suvarırlar. Bununla onlar problemlərini birdəfəlik həll etmiş olurlar. Hazırda rayonda işlək 11 soyuducu anbar var. Yığılan məhsul bu anbarlarda müəyyən vaxt ərzində soyudularaq xarici bazarlara daşınır. Məhsul da boldur. Rayondakı 940 hektar çiyələk sahəsindən indiyədək 28 min 220 ton çiyələk dərilib və həmin məhsulun 23 min 362 tonu Rusiya, Ukrayna, Belarus və Qazaxıstana ixrac edilib.

Taxıl rayonda ənənəvi bitki, Cəlilabadın şöhrət tacıdır. Müəyyən dönəmlərdə, məsələn, Böyük Vətən müharibəsi zamanı buranın buğdası nəinki Cəlilabadın, hətta qonşu rayonların əhalisini aclıqdan xilas edib. Keçən əsrin 70-ci illərində yüksək məhsul yetişdirən neçə-neçə cəlilabadlı taxılçı o dövrün ən yüksək mükafatlarına layiq görülüb. Ənənə bu gün də davam edir.







Keçən ilin payızında rayon üzrə 16 min 307 hektara arpa, 50 min 694 hektara buğda toxumu səpilib. Fermerlərin əkin sahələrinə qulluğu, lazımi aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsi, yemləmə gübrəsinin verilməsi, ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirlərinin görülməsi və yağıntıların çox olması bol məhsulun yetişməsinə səbəb olub. Bu gün sahələrdə 90 kombayn işləyir. Bir neçə gün əvvələcən 9 min 135 hektarın arpası, 2 min 225 hektarın buğdası biçilib. Arpada məhsuldarlıq orta hesabla 35,8 sentner (keçən ildəkindən 4,3 sentner artıq), buğdada 45,6 sentner (keçən ildəkindən 10 sentner çox) olub. Kombaynlar hər gün 900-1000 hektar zəminin taxılını biçir.

Əldə olunan uğurlarda dövlət dəstəyinin xüsusi çəkisi var. Qeyd etmək yerinə düşər ki, 2025-ci ildə cəlilabadlı fermerlərə 12,3 milyon manatdan çox subsidiya verilib. Torpaq mülkiyyətçilərinin toxum, mineral gübrə, kənd təsərrüfatı texnikası və digər vasitələrlə təminatında heç bir çətinlik yoxdur. Bunun nəticəsidir ki, rayonda kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artmaqdadır.

Amma ölkədə, o cümlədən Cəlilabadda aqrar sahə üzrə görülən işlər ölkənin ərzaq təhlükəsizliyinin tam təmin olunması üçün kifayət etmir. Elə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026 - 2030-cu illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi də bu zərurətdən doğub. Yeni proqram ölkəmizdə ərzaq təhlükəsizliyinin tam təmin edilməsi, kənd əhalisinin məşğulluğunun genişləndirilməsi ilə bərabər, kənd təsərrüfatı məhsullarının, xüsusən ət, yağ, habelə digər zəruri ərzaq məhsullarının idxalını minimuma endirmək, ixracı isə genişləndirməyi nəzərdə tutur.

Bu gün Cəlilabada yolu düşənlər taxıl zəmilərində, üzüm bağlarında, çiyələk sahələrində - bir sözlə, hər yerdə qızğın iş getdiyinin şahidi olurlar. Bir tərəfdə kartofu yığılan sahələr şumlanıb yerinə qarğıdalı əkilr, bir tərəfdə biçilən zəmilər yenidən şumlanır, digər tərəfdə çiyələk toplanır. Bütün bunlar isə sonda ərzaq bolluğu deməkdir.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Kəndlinin çörəyi öz əlindədir

**Dünyada təbii ehtiyatların tükəndiyi bir vaxtda əhalinin ərzaq təhlükəsizliyi məsələsi özünü daha kəskin göstərir. Belə bir vaxtda daxili bazarın idxaldan asılılığının aradan qaldırılması üçün dövlət yerli istehsalın inkişafını önə çəkir.**

Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məslələrinə həsr olunmuş müşavirənin keçirilməsi, eləcə də "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi bir daha onu göstərir ki, ölkədə kənd təsərrüfatının inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Hazırda regionlarda həmin proqramın icrası istiqamətində müvafiq tədbirlər görülməsi üçün planlar, layihələr hazırlanır, müşavirədə səsləndirilən məsələlərin və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində bütün qüvvələr səfərbərliyə alınır.

Ağstafa rayonunun iqtisadiyyatını əsasən aqrar sahə təşkil edir. Rayon fermerləri yaxşı bilirlər ki, etibarlı ərzaq təminatı ölkədə iqtisadi sabitliyin və sosial dayanıqlılığın başlıca şərtidir. Bu baxımdan kənd təsərrüfatı məhsulları istehsalının artırılması rayonda strateji hədəf kimi diqqətdə saxlanılır.

Kənd təsərrüfatı məhsulları istehsalında yüksək göstəricilərə nail olmaq üçün rayonda müxtəlif tədbirlər həyata keçirilir. Mövcud əkin sahələrindən səmərəli istifadə olunması, torpağın əkilib becərilməsində qabaqcıl texnologiyalara üstünlük verilməsi diqqətdə saxlanılır. Bunların sayəsində taxılçılıqda müsbət irəliləyişlər müşahidə edilir. Cari mövsüm 8187,2 hektarda taxıl səpini aparılmışdır ki, onun da 4812,3 hektarı buğda, 3374,9 hektarı arpadır. Səpinə rayonda fəaliyyət göstərən "Aqroservis"in və ayrı-ayrı fermerlərin şəxsi texnikaları cəlb edilmişdir. Qısa vaxt ərzində 10 hektara yaxın sahənin arpası biçilmişdir. Hər hektardan 27 sentner məhsul götürülmüşdür. Həmişə olduğu kimi, cari ildə də Göycəli, Köçəsgər, Eynallı, Dağ Kəsəmən və Qıraq Kəsəmən kəndlərində fəaliyyət göstərən fermerlər fərqlənmişlər.



Rayonda kənd təsərrüfatının digər sahələri üzrə göstəricilər də pis deyil. Hazırda 1619,3 hektar meyvə bağında becərmə işləri aparılır. Bağlara üzvi və mineral gübrələr verildikdən sonra ağacların dibinin yumşaldılmasına və budama işlərinə başlanılmışdır. Onu da qeyd edək ki, rayonda intensiv bağların salınmasına diqqət xeyli artmışdır. Bu hesaba Kolxəlifəli kəndində 55, Aşağı Göycəlidə 6, Zəlimxanda 1,49 hektar intensiv fındıq bağı salınmışdır. Hazırda bağlarda ziyanvericilərə qarşı kimyəvi mübarizə tədbirləri görülür.

Rayonun üzüm bağlarında da qızğın iş gedir. 508 hektar bağda şumlama aparılmaqla cərgə aralarında təmir-bərpa işləri aparılır. Keçən il hər hektardan 153 sentner üzüm götürən bağbanlar bu il daha çox məhsul gözləyirlər.

Fermerlər söhbət zamanı onu da bildirdilər ki, havaların əlverişsiz keçməsi kənd təsərrüfatına ziyansız ötüşməyib. Tez-tez yağışların yağması, dolu düşməsi məhsuldarlığı xeyli azaldıb. Odur ki, fermerlər çalışırlar ki, əldə qalan məhsulu vaxtında və itkisiz toplasınlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## "Azərbaycanda alman memarlığı"

**Göygöl şəhərində yerləşən Müqəddəs İohan lüteran alman kilsəsində rayon icra Hakimiyyətinin dəstəyi və Alman-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə "Şəhərsalma və Memarlıq İli" çərçivəsində "Azərbaycanda alman memarlığı" mövzusunda fotosərgi təşkil edilmişdir.**



Sərginin açılışında rayon icra hakimiyyətinin başçısı Vüqar Novruzov, Alman-Azərbaycan Cəmiyyətinin sədri Çingiz Abdullayev, cəmiyyətin üzvləri - İsveçdə yaşayan rejissor Rəhim Sadıqbəyli və koordinator Zaur Musayev, Türkiyə Respublikası Çanakkale Onsekiz Mart Üniversitesi professoru Vedat Çalışkan və Özyegin Universitetinin tədqiqatçı alimi professor Ayşegül Özer, Almaniyadan olan tədqiqatçı alim İnge Şturm, Gürcüstan-Almaniya Assosiasiyasının sədri Aleksandr Feldmayer və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Fotosərgidə Göygöldə yerləşən alman memarlıq abidələrinin və evlərinin fotoları nümayiş olunur. İştirakçılara bu irsin memarlıq xüsusiyyətləri və tarixi əhəmiyyəti barədə məlumat verilmiş, həmçinin ölkəmizdə multikultural dəyərlərə xüsusi önəm verildiyi diqqətə çatdırılmışdır.

Sərgi çərçivəsində iki əsrə yaxın müddətdə bölgədə yaşamış alman icmasının həyat tərzini və mədəni irsini əks etdirən, hazırda muzey kimi fəaliyyət göstərən göygöllü sonuncu alman Viktor Klaynın ev-muzeyinə ekskursiya təşkil edilmişdir.

*"Azərbaycan"*

## Yağışlar baramaçılığa təsir etsə də...

**Tovuzda baramaçılığa böyük maraq var. Təkcə keçən il 20 kümçü 40 qutu tut ipəkqurdu götürərək 1841,5 kiloqram yaş barama təhvil vermişdir.**

Lakin Tovuz baramaçıları bu rəqəmi son həდd hesab etmirlər. Bu il də 20 kümçü 70 qutu barama tut ipəkqurdu götürmüşdür. Onlar əvvəlki ildəkindən xeyli çox - 2800 kiloqram yaş barama istehsal etməyi qərara almışlar. Hazırda barama istehsalının gərgin dövrüdür. Kümçülər arıq 500 kiloqrama yaxın barama təhvil vermişlər.

Cəlilli kənd sakini Kəmaləddin Məmmədov cari il öhdəlik götürdüyü 40 kiloqram əvəzinə indiyədək 41,2 kiloqram barama tədarük etmişdir. Düz Cırdaxan kənd sakini Samir Axundov da götürdüyü öhdəliyə əməl etmişdir - 60 kiloqram yaş barama təhvil vermişdir. Qədirli kəndinin sakini Bahadur Hüseynov həmkarından geri qalmır. O, 60 kiloqram əvəzinə 62,6 kiloqram yaş barama istehsal etmişdir.



Son illər Qazaxda da baramaçılığın keçmiş şöhrətinin qaytarılması istiqamətində əməli işlər görülür. Artıq 11-ci ildir ki, rayonda yenidən ipəkqurdu bəslənilir. 2025-ci ildə qazaxlı kümçülər "Azəripək" MMC-yə 1455,8 kiloqram yaş barama təhvil vermişlər.

Bu il isə onların hədəfi 2000 kiloqramdır. İkinci Şıxlı, Birinci Şıxlı, Yuxarı Salahlı, Aslanbəyli, Kəmərli, Aşağı Salahlı, Orta Salahlı, Kosalar, Hüseynbəyli, Dəmirçilər, Çaylı, Daş Salahlı, Xanlıqlar, Alpout, Cəfərli kəndlərində kümçülərə ümumilikdə 50 qutu ipəkqurdu toxumu paylanmışdır. Artıq kümçülər barama tədarükünə başlamışlar.

Qeyd edək ki, bu il digər sahələr kimi baramaçılıqda da gərgin vəziyyət yaranmışdır. Havaların qeyri-sabit keçməsi nəticəsində temperatur tez-tez dəyişir ki, bu da baramaçılıqda anormal hal sayılır. Çünki belə havada ipəkqurdları məhv ola bilirlər. Nəticədə kümçülər tərəfindən çəkilən əziyyət heç olur. Bütün bunları nəzərə alan mütəxəssislər tez-tez kümçülərin yanında olur, onların işləri ilə maraqlanır, lazımi kömək göstərirlər.

*S.YUNİSOĞLU*
*"Azərbaycan"*





# Vətən deyəndə...





Tarix yazan oğullar

# 44 gün bir əlində cərrah bıçağı, bir əlində avtomat oldu



**Müharibələr zamanı döyüşən əsgərlərlə bərabər, hərbi həkimlərin də üzərinə böyük vəzifələr düşür. Hətta bir çox hallarda onlar da çiyinlərində silah Vətən uğrunda düşmən üzərinə gedirlər. Döyüşçülər yaralananda isə ilkin tibbi yardım göstərərək onları ölümün əlindən alırlar.**

İkinci Qarabağ müharibəsində hərbi həkimlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə yaralanmış zabit və əsgərlərimizin həyata qaytarılması üçün bütün bacarıqlarını səfərbər etdilər. Sona qədər hərbi andlarına sadiq qaldılar. Müharibənin davam etdiyi günlərdə göstərdikləri şücaəti nəzərə alıb demək olar ki, erməni işğalçıları üzərində Zəfərin qazanılmasında hərbi həkimlərin də böyük rolu oldu.

Ehtiyatda olan polkovnik Asəf Ağa oğlu Məmmədov da uzun illər doğma ordumuzun sıralarında hərbi həkim kimi xidmət edib. İkinci Qarabağ müharibəsinin ilk günlərindən sonadək vəzifəsini layiqincə yerinə yetirib. Torpaqlarımızın azadlığı uğrunda gedən əməliyyatlarda yaralanan zabit və əsgərlərimizə tibbi xidmət göstərib, onların tez bir zamanda sağalmalarına çalışıb. Müharibə zamanı göstərdiyi şücaətə görə "Kəlbəcərin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən uğrunda", "Hərbi xidmətlərə görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına layiq görülüb.

Ordu sıralarından ehtiyata buraxılan Asəf Məmmədov həkim kimi yenə də fəaliyyətini davam etdirir, insanların sağlamlığı keşiyində dayanır. Artıq tarixə dönmüş İkinci Qarabağ müharibəsində yaşadığı qanlı-qadalı və şərəf dolu günləri isə unutmur. Söhbətimiz zamanı həmin gərgin günləri xoş təəssüratlarla xatırladı. Dedi ki, 44 günlük Vətən müharibəsi qəhrəmanlıq tariximizə böyük hərflərlə yazıldı: "Çünki bu müharibə zamanı rəşadətli Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında 30 illik işğala son qoyaraq torpaqlarımızı erməni qəsbkarlarından təmizlədi. Qürur duyuram ki, mən də hərbi həkim kimi 44 günlük Vətən müharibəsində iştirak etdim, düşmən üzərində qələbənin qazanılmasında az-çox xidmətim oldu. İkinci Qarabağ müharibəsi başlayanda Gəncə istiqamətində hərbi həkim kimi xidmət edirdim. Müharibənin elə ilk günlərindən biz də əməliyyatlara cəlb olunduq. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərə atılan yaralı hərbçilərimizi qəbul etdik. İlk yaralılar qəbul olunanda tibb heyəti heç bir



çətinliklə üzləşmədi, həyəcan keçirmədi. Çünki biz buna hazırlaşmışdıq. Ötən müddət ərzində xeyli təlim keçmiş, kifayət qədər təcrübə toplamışdıq. Buna görə də ilk anlardan təlimata uyğun zəruri addımlar atdıq. Yaralıların xilas edilməsi üçün bütün tibb heyəti işini məsuliyyətlə, diqqətlə yerinə yetirirdi. Buna görə də qəbul olunan yaralıların hamısının həyatı xilas olunurdu. Biz xəstəxana və hospitallarla yanaşı, cəbhə xəttində də fəaliyyət göstərirdik. Kəlbəcər, Daşkəsən, Göygöl istiqamətində vəzifə borcumuzu yerinə yetirirdik".

Asəf həkimi az sonra ağır döyüşlər gedən Cəbrayıl və Füzuli bölgəsinə ezam edirlər. Həmin günlərdən söz açan həkim deyir ki, gecə-gündüz yorulmadan çalışırdıq: "Oktyabrın əvvəllərində komandanlıqdan verilən döyüş əmrinə uyğun olaraq, həkim briqadası ilə Cəbrayıl və Füzuli istiqamətinə getdik. Məqsəd vuruşan hərbi hissələrin tibb xidmətini əlavə qüvvələrlə gücləndirmək idi. Hərbi həkim kimi qarşıma qoyulan tapşırığı yerinə yetirdikdən sonra verilən əmrə uyğun olaraq vaxt itirmədən xidməti yerimə döndüm. Çox keçmədi ki, komandanlıqdan daha bir mühüm tapşırıq verildi. Yenə də Cəbrayıl, Füzuli və Qubadlı istiqamətinə ezam olunduq. Qısa müddət ərzində işğaldan yenicə azad olunmuş Qubadlı rayonunun kəndlərinin birində hərbi səhra hospitalı açılmalıydı. Vaxt isə az idi. Odur ki, əmrin icrasına başladıq, peşəkar, təcrübəli həkimləri bu işə cəlb etdik. Səhra hospitalında həm yaralılara ilkin zəruri tibbi yardım göstərilir, həm də başqa zəruri əməlliyyatlar icra olunurdu. Günlərimiz gərginlik içində keçirdi. Ağır yaralanmış zabitin, əsgərin həyatını xilas edəndə sanki dünyanı bizə bağışlayırdılar. Cəbhələrdən də qələbə müjdəli xəbərlər gəlirdi. Bu xəbərlər ovqatımıza ovqat qatır, yorğunluğumuzu unutdururdu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətlərini də diqqətlə izləyirdik. Artıq Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı erməni işğalından azad olunmuşdu. Hərbçilərimiz irəlilədikcə biz həkimlər də irəliləyirdik".

Söhbət zamanı onu da öyrəndik ki, ehtiyatda olan polkovnik Asəf Məmmədov Laçının Qarakeçdi kəndində anadan olub. 15 yaşında erməni işğalçılarının hücumları nəticəsində ailəliklə doğma ocaqlarından köçkün düşüb. Uzun illər ata-baba yurdunun həsrətini çəkə-çəkə yaşayıb. Bir gün də olsun dağlar qoynunda yerləşən kəndlərini unutmayıb. Həmin günlərdən söz açan həkim dedi ki, ata-baba yurdundan didərgin düşmək çox ağrılıdır: "Təəssüflər olsun ki, 15 yaşından bu ağrını yaşamalı oldum. Amma köçkünlük həyatı qəddimizi əymədi, mübarizliyimizi, cəsarətimizi zərrə qədər də olsun zədələmədi. Düşmənə qisas və nifrət hissi ilə mübariz, məğlubedilməz ruhda böyüyüb tərbiyə aldıq. Əmin idik ki, günlərin birində doğma ocaqlarımıza qayıdacağıq. Nəhayət, noyabrın 8-də musiqi beşiyimiz olan Şuşanın erməni qəsbkarlarından azad olunduğunu eşitdik. Sevincimizin hədd-hüdudu yox idi. Ardınca Azərbaycan Ordusu tərəfindən darmadağın edilmiş erməni işğalçıları Laçından, Kəlbəcərdən və Ağdamdan qovuldular. Qoynunda dünyaya göz açdığım Laçın erməni işğalından azad olundu. Silahlar susandan, əməliyyatlar dayandırılandan sonra hospitala yaralılar gətirilmədi. Bir müddətdən sonra biz xidməti yerimizə qayıtdıq".

Asəf həkim uzun illərdən sonra həsrət qaldığı Laçına, kəndləri Qarakeçdiyə getdiyi günün təəssüratlarını da bizimlə bölüşdü. Bildirdi ki, Laçının, doğma kəndimizin azad olunduğunu eşidəndə sevincdən ürəyim sinəmə sığmırdı: "2020-ci il dekabrın 1-də düşmən Laçından qovuldu. Amma həmin günlərdə mina təhlükəsi olduğundan doğma ocaqlarımıza gedə bilmirdik. Nəhayət, dekabrın 21-də ata-baba yurduna getmək mümkün oldu. Böyük sevinc içində Qarakeçdiyə üz tutdum. Aman Allah, ermənilər kənd-kəsəklərimizi nə günə salmışdılar. Uçurulmamış, dağıdılmamış bir ev qalmamışdı. Torpaqla, daşla, ağaclarla, bulaqlarla, dağlarla pıçıldaşırdıq. Əvvəlki illərdə olduğu kimi, yenə də bu gözəl yerlərdə arın-arxayın gəzirdik".

Ehtiyatda olan zabit Asəf Məmmədov İkinci Qarabağ müharibəsində iştirak edib, yurdumuzun azadlığı uğrunda gedən döyüşlərdə tibbi xidmət göstərib. Görəsən, o, necə düşünür, hesab edirmi ki, xidmət müddətində hərbi həkim kimi vəzifəsini layiqincə yerinə yetirib. Bu barədə soruşanda dedi ki, xidmətimi iki dövrə bölürəm: "Birinci dövr Tovuz döyüşlərinə qədər, ikinci dövr isə ondan sonrakı dövr. Xidmətimin birinci dövrü elə də çətin olmadı. Tovuz döyüşlərindən sonra başlanan ikinci dövr isə gərginlik içində keçdi. Həmin döyüşlərdən bir neçə ay sonra İkinci Qarabağ müharibəsi başladı. 44 gün davam edən müharibənin hər günü bizim üçün bir ay, bir il qədər uzun oldu. Gecə-gündüz bilmədən yaralılara xidmət göstərdik, həyatlarını xilas etməyə çalışdıq. İkinci Qarabağ müharibəsi Zəfərlə başa çatandan bir müddət sonra da Qubadlıdakı hospitalda xidmətimizi davam etdirdik.

Asəf Məmmədov bu gün insanların sağlamlığı keşiyində dayanır, xəstələrə diqqət və qayğı göstərir. Söhbətinin sonunda həkim dedi ki, əgər Vətən çağırsa, yenə də hərbi həkim kimi xidmətimi davam etdirməyə hazıram.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Ölməzliyə qovuşanlar

# Ziyadxan bayraq aşiqi idi

## Kəfəni də bayraq oldu

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə böyük cəsarət və igidliklə vuruşaraq şəhidlik zirvəsinə yüksələn oğullarımızdan biri də Ziyadxan İbrahim oğlu Əliyevdir. Ziyadxan 12 yanvar 1997-ci ildə Kürdəmirin Carlı kəndində dünyaya göz açıb.



Onun ailəsi əslən Cəbrayıl rayonundan idi. Onlar 1993-cü ilin yayında erməni işğalçılarının hücumları nəticəsində rayonun Soltanlı kəndindən didərgin düşmüşdülər. Həyatlarının o çətin, keşməkeşli günlərində yaşamaq ümidi ilə Kürdəmir rayonuna üz tutmuşdular. Xeyirxah adamların köməyi ilə burada məskunlaşa bilmişdilər. Ziyadxanın valideynləri övladlarını vətənpərvərlik ruhunda, düşmənə qarşı nifrət hissi ilə tərbiyə etmişlər.

Hiss olunmadan ötən zaman Ziyadxanı da qoynuna alıb böyüdürdü. Artıq yaşıdları kimi o da məktəbə gedirdi. Elmə, biliyə maraq göstərən Ziyadxan dərslərini yaxşı oxuyur, yüksək qiymətlər alırdı. Ziyadxan 10-11-ci sinifləri Sumqayıtda fəaliyyət göstərən Qubadlı rayon Fərzən kənd orta məktəbində oxudu. 2014-cü ildə orta təhsilini yüksək göstəricilərlə başa vuraraq Azərbaycan Texniki Universitetinə qəbul oldu. Tələbəlikdən sonra Ziyadxanı əsgəri xidmət gözləyirdi. O isə Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirməyə hazır idi. 2019-cu ilin oktyabr ayında hərbi xidmət keçmək üçün ordu sıralarına çağırıldı. Əsgərlik həyatının ilk günlərindən nümunəvi xidmətilə seçildi. Marağını, həvəsini nəzərə alan komandanlıq onu 3 aylıq hərbi tibb kursuna cəlb etdi. Üç ay ərzində əsgər Ziyadxan Əliyev ilkin yardım üçün zəruri olan bir çox bilik və vərdişləri dərindən mənimsədi.



Artıq əsgər Ziyadxan Əliyevin xidməti yavaş-yavaş başa çatırdı. Ordu sıralarından tərxis olunmağına sayılı günlər qalırdı. Bu gün-sabah komandirlər və əsgər dostları ilə sağollaşıb doğmalarının yanına qayıdacaqdı. Həmin günlər onun ürəyi arzularla dolub-daşırdı. Düşünürdü ki, ordu sıralarından tərxis olunduqdan sonra işə düzələcək, valideynlərinin dolanışığına kömək edəcək, bir müddətdən sonra isə min gözəlin içindən sevib-seçdiyi qızla ailə həyatı quracaqdı. Ömrünün ən gözəl günlərini yaşayacaqdı. Əgər 27 sentyabr 2020-ci ildə 44 günlük Vətən müharibəsi başlamasaydı, hər şey Ziyadxanın düşündüyü kimi də olacaqdı.

Müharibənin ilk günlərindən əsgər Ziyadxan Əliyevin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti savaşa cəlb olundu. Onlar Tərtərin Suqovuşan qəsəbəsi istiqamətində döyüşə atıldılar. Ziyadxan həm səhra tibb məntəqəsinin heyətində yaralı əsgərlərimizin həyatını xilas edir, həm də əlində silah vuruşurdu. Düşmən Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında dayana bilməyərək geri çəkildikcə, torpaqlarımız addım-addım işğaldan azad olunurdu.

Günlər keçdikcə döyüş təcrübəsi artan Ziyadxan Qarabağın işğaldan azad olunması uğrunda müharibənin sonunadək vuruşmaq istəyirdi. Təəssüflər olsun ki, o, bu arzusuna çata bilmədi. Oktyabrın 1-də yaralı əsgər yoldaşına tibbi yardım göstərərkən düşmən gülləsinə tuş gəldi, şəhidlik zirvəsinə ucaldı. Ertəsi gün onun meyitini məskunlaşdıqları Kürdəmirə gətirdilər. Oktyabrın 2-də yaxınlarının, doğmalarının və rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə Şəhidlər xiyabanında dəfn olundu.

Şəhidin anası Müşgünaz xanım övladını xatırlayaraq dedi ki, Ziyadxan haqqında keçmişdə danışmaq mənim üçün çox çətindir: "Amma nə etməli, həyatdır. Görünür, onun da ömür yolu bu cür yazılıb. Hər şeydən əvvəl onu deyim ki, Ziyadxan çox ağırtəbiətli, tərbiyəli, məsuliyyətli uşaq idi. Tapşırıqlarını səliqəli xətlə yazar, heç vaxt dərsə hazırlıqsız getməzdi. Orta məktəbdə də, universitetdə də yaxşı oxumuşdu, yüksək qiymətlər almışdı. Doğma ocaqlarımız olan Cəbrayıldan didərgin düşəndən sonra xeyli əziyyət çəkdik. Bizim üçün nə qədər çətin olsa da, çalışırdıq ki, uşaqlarımız Vətən, torpaq, yurd sevgisi ilə böyüsünlər. Onların oxuduqları şeirlər, inşa yazıları Qarabağa həsr olunurdu. Ziyadxan bayrağımızın vurğunu idi. Yadımdadır, birinci sinfə gedəndə atası ona pul vermişdi ki, rayon mərkəzinə gedəndə özünə istədiyi paltarı alsın. Ziyadxan isə bayraq almışdı. Orta məktəbi başa vuranda, sinif yoldaşları bir-biri ilə rəqs edəndə Ziyadxan bayrağı başı üzərinə qaldıraraq oynamışdı".

Bir anlıq dərindən ah çəkən Müşgünaz xanım sözünə davam etdi: "Sentyabrın 30-da gecədən xeyli keçmiş Ziyadxandan atasına zəng gəldi. Həyəcanla onun səsinə qulaq asırdım. Oğlum atası ilə danışandan sonra dedi ki, telefonu anama ver. Əlim əsə-əsə telefonu qulağıma yaxınlaşdırdım. Onunla salamlaşandan sonra dedim ki, qadan alım, Ziya, məndən gizlətsən də, döyüşdə olduğunu bilirəm. Sonra vəziyyətinin necə olduğunu soruşdum. Sualıma cavab verərək dedi ki, ana, mən yaxşıyam, narahat olma! Qardaşımdan muğayat ol! Sizin dərmanınız var? Qurtarıbsa, bacıma yazın, tez göndərsin. İşdi, mənə bir şey olarsa, ağlama, başını həmişə dik tut!"

Doğmaları ilə olan bu telefon danışığının ertəsi gün valideynlərinin qapısını övladlarını şəhid olduğu xəbəri döyür. Ziyadxan bayraq aşiqi idi. Elə kəfəni də bayraq oldu.

Torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə Ziyadxan İbrahim oğlu Əliyev Prezident İlham Əliyevin sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Cəsur döyüşçü", "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

*Vahid MƏMMƏDQULUOĞLU,*
*"Azərbaycan"*

# Şəhid övladları üçün ənənəvi "Məzun günü" tədbiri təşkil olunub

**"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı və "PAŞA Sığorta" ASC-nin dəstəyi ilə "Baku Events Hall" konsert mərkəzində orta məktəbi uğurla başa vuraraq məzun olan şəhid övladları üçün ənənəvi "Məzun günü" tədbiri keçirilib.**

İctimai Birlikdən AZƏRTAC-a verilən məlumata görə, tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi və Vətən uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Açılış nitqi ilə çıxış edən "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova məzun olan şəhid övladlarını təbrik edərək, onların bu mühüm nailiyyətinin yalnız ailələr deyil, bütün Azərbaycan cəmiyyəti üçün qürur mənbəyi olduğunu vurğulayıb. O bildirib ki, şəhid ailələrinə və övladlarına göstərilən diqqət və qayğı hər zaman birliyin fəaliyyətinin əsas istiqamətlərindən biri olacaq: "Bu gün həyatınızın yeni mərhələsinə qədəm qoyursunuz. İnanırıq ki, əldə etdiyiniz uğurlar şəhid valideynlərinizin əziz xatirəsinin uca tutulmasına layiqli töhfə olacaq. Həyatınızın hər mərhələsində yanınızda olmağa davam edəcəyik".

Tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov məzun olan şəhid övladlarını təbrik edərək onların göstərdikləri əzmkarlığın və əldə etdikləri uğurların qürurverici olduğunu bildirib. Nazir qeyd edib ki, şəhid ailələrinə dövlət qayğısı daim diqqət mərkəzindədir və həmin gənclərin təhsil alaraq ölkənin gələcəyinin qurulmasında fəal iştirak etmələri ən böyük uğurlardan biridir. O, məzunlara gələcək həyatlarında yeni nailiyyətlər arzulayıb. Tədbirdə iştirak edən dövlət rəsmiləri, deputatlar və ictimai xadimlər də məzun olan gənclərə xoş arzularını çatdırıblar. Çıxış edənlər arasında "PAŞA Sığorta" ASC-nin Daxili Kommunikasiyalar şöbəsinin rəhbəri Ləman Maqsudlu, Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Yusif Vəliyev, deputatlar Mehriban Vəliyeva, Ceyhun Məmmədov, Nigar Məmmədova və Vüqar Rəhimzadə yer alıblar.




Tədbirdə şəhid övladlarının çıxışları xüsusi maraqla qarşılanıb. Vətən müharibəsi şəhidi baş leytenant Ceyhun Niftəliyevin qızı, Göygöl rayon birincisi Ayan Niftəliyeva və şəhid polkovnik-leytenant Babək Ramaldanovun oğlu Ramaldan Ramaldanov məzunlar adından çıxış edərək göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun həyat yoldaşı, məzun Teymur Həşimovun anası Ofelya Salmanova da çıxışında şəhid ailələrinə göstərilən mənəvi dəstəyin əhəmiyyətindən danışıb və məzunlara gələcək həyatlarında uğurlar arzulayıb.

Rəsmi hissədən sonra tədbir geniş konsert proqramı ilə davam edib. Azərbaycanın tanınmış sənətçiləri və musiqi kollektivləri çıxışları ilə məzunlara unudulmaz anlar yaşadıblar.

Səmimi və yüksək əhvali-ruhiyyə şəraitində keçən tədbirin əsas məqsədi şəhid övladlarının həyatında əlamətdar olan günün sevincini bölüşmək, onların gələcəyə daha böyük inam və motivasiya ilə addımlamalarına dəstək olmaq olub.

# Məktublar: problemlər, rəylər, təkliflər...




● ŞƏHİDLƏR ÖLMƏZ, VƏTƏN BÖLÜNMƏZ

## Qalib Azərbaycan əsgəri başımızın tacıdır



**Yeni Azərbaycan Partiyası və Masallı Tarix-Diyarşünaslıq Muzeyinin birgə əməkdaşlığı ilə "Şəhid ailələrinə və Vətən müharibəsi qazilərinə dəstək" layihəsi çərçivəsində "Qalib Azərbaycan əsgəri" mövzusunda keçirilən tədbir Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canını fəda edən şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlandı.**

Muzeyin direktoru Əntiqə Tağıyeva çıxış edərək bildirdi ki, Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq, xalq-ordu birliyi və gənclərin vətənpərvərlik ruhunda yetişməsi ölkəmizin qüdrətini göstərir, qəhrəman şəhidlərin xatirəsinin yaşadılması və qazilərə göstərilən diqqət hər bir vətəndaşın mənəvi borcudur.

Çıxışında "Vətən müharibəsində qazanılan şanlı Zəfər Azərbaycan xalqının milli birliyinin və ordumuzun gücünün bariz nümunəsidir" deyən Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Masallı şöbəsinin sədri Nahid Pəhimov onu da bildirdi ki, Vətən müharibəsində qazanılan Zəfər Azərbaycan xalqının milli birliyinin və ordumuzun gücünün bariz nümunəsidir.

Ehtiyatda olan komandir Nazim Cəfərzadə gənclərə müraciətlə Vətənə sevgi, dövlətə sədaqət və milli dəyərlərə sahib çıxmağın vacibliyini vurğuladı. Təzə Alvadı kənd tam orta məktəbinin hərbi müəllimi, veteran Bəhruz Mehbaliyev və ehtiyatda olan hərbçi, veteran Fuad Ağayev isə çıxışlarında müharibə iştirakçılarının keçdikləri şərəfli döyüş yolundan danışdı, qazi və şəhid ailələrinə göstərilən dövlət qayğısının yüksək səviyyədə olduğunu dedi, eləcə də belə tədbirlərin gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə mühüm töhfə verdiyini söylədilər.

*Zəfər ORUCOĞLU*

● ABADLIQ

## Kəndimizdə yaşamaq getdikcə daha rahat olur

**Dağ Kəsəmən Ağstafanın ən böyük kəndlərindən biridir. Kənddə 8 mindən çox əhali yaşayır. İnsanların əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. Kənd mavi yanacaqla təmin olunub. Bir sözlə, burada insanları narahat edəcək elə bir problem qalmayıb.**



Bütün bunlar ölkəmiz müstəqillik qazandıqdan sonra mümkün olmuşdur. Dövlətimiz burada bütün sahələr üzrə çoxsaylı abadlıq və yenidənqurma işi həyata keçirərək insanların rahatlığını təmin etmiş, sakinlərin gündəlik kommunal-məişət şəraitinin yaxşılaşdırılması üçün çoxsaylı layihə həyata keçirmişdir. Məsələn, kəndin mərkəzi küçəsində yenidənqurma işləri aparılmış, şəhidlərin xatirəsini əbədiləşdirmək üçün "Xarıbülbül" abidə kompleksi, istirahət parkı salınmışdır. Kənddə 3 subartezian quyusu qazılaraq istifadəyə verilmiş, 2 transformator əsaslı təmir edilmişdir. Bundan başqa, kənddəki məktəb də əsaslı təmir olunmuş, kənddaxili yollara çınqıl döşənmişdir. Bu yaxınlarda isə kənd qəbiristanlığı səliqəyə salınmışdır.

*Sərxan RZAYEV,*
*Ağstafa rayon Dağ Kəsəmən kəndinin sakini*

AZƏRBAYCAN-a cavab verirlər

## Problem tam həllini tapacaq

**Gəncə şəhəri Məhsəti qəsəbəsinin sakini Natiq Cəfərovun "Azərbaycan" qəzetinin 21 aprel 2026-cı il tarixli sayında dərc edilmiş "Qəsəbəmiz yağış yağanda keçilməz olur" sərlövhəli oxucu məktubuna Gəncə Şəhər İcra Hakimiyyəti Başçısı Aparatında baxılmışdır.**

N.Cəfərov müraciətində Gəncə şəhərinə yağan güclü yağışlar zamanı yaşadığı küçədə çoxlu su topландığından subasma nəticəsində evlərinə və həyətlərinə su dolduğunu, küçədə keçilməz vəziyyət yarandığını bildirərək, yağış sularının axıdılması üçün kollektor quraşdırılmasına köməklik göstərilməsini xahiş etmişdir.

Məlumat üçün bildiririk ki, qeyd edilən küçə Məhsəti qəsəbəsində relyefcə qapalı çökək yerdə yerləşdiyindən intensiv yağışlar zamanı yağış sularının kənarlaşdırılması və baş verən subasmanın qarşısının alınması məqsədilə Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən 400 metr uzunluğunda yeni drenaj xətləri çəkilmiş, 3 ədəd yağış barmaqlığı və nəzarət-baxış quyusu inşa edilmişdir.

Mövcud problem "Açıq Kommunal İnfrastruktur Proqramı 2" layihəsinin icrasından sonra tam həllini tapacaqdır.

*Kamran MƏHƏRRƏMOV,*
*Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini*

● NÜMUNƏ

## «Abad həyət» layihəsi köhnə məhlələrə yeni həyat verir

### *Bu layihə həm də inşaat şirkətləri üçün nümunə ola bilər*

**Müasir şəhərsalma konsepsiyasında yaşayış binalarının keyfiyyəti yalnız mənzillərin planlaşdırılması ilə deyil, həm də ətraf mühitin, həyətlərin və ictimai məkanların vəziyyəti ilə qiymətləndirilir. Bu baxımdan IDEA İctimai Birliyinin həyata keçirdiyi "Abad həyət" layihəsi uğurlu sosial-ekoloji təşəbbüs kimi diqqət çəkir.**

"Abad həyət" layihəsinin əsas məqsədi köhnə və baxımsız həyətlərin abadlaşdırılması, yaşıllıqların bərpası, sakinlər üçün təhlükəsiz və rahat yaşayış mühitinin yaradılması, eləcə də sağlam həyat tərzinin təşviq edilməsidir. Layihə çərçivəsində müxtəlif rayonlarda həyətlər yenidən qurulur, uşaqlar üçün oyun meydançaları, gənclər üçün idman sahələri, velosiped yolları, söhbətgahlar, istirahət guşələri yaradılır, əlilliyi olan şəxslərin rahat hərəkəti üçün xüsusi şərait təmin edilir.

Layihənin uğurunun əsas səbəblərindən biri sakinlərin ehtiyaclarının nəzərə alınmasıdır. Abadlaşdırılan həyətlər yalnız estetik görünüş qazanmaqla kifayətlənmir, həm də müxtəlif yaş qruplarının sosial ünsiyyəti, istirahəti və fiziki aktivliyi üçün funksional məkanlara çevrilir. Bu yanaşma nəticəsində həyətlər xüsusən yay aylarında insanların bir-biri ilə daha sıx əlaqə qurduğu, uşaqların təhlükəsiz şəraitdə oynadığı və ailələrin səmərəli vaxt keçirdikləri sosial mərkəz rolunu oynayır.

Bu təcrübə yeni yaşayış kompleksləri ucaldan mənzil tikinti kooperativləri üçün mühüm nümunə ola bilər. Son illər sakinlər arasında həyətlərin kiçik olması, yaşıllıq sahələrinin azlığı, avtomobillərin həyətləri zəbt etməsi və ictimai məkan çatışmazlığı ilə bağlı narazılıqlar tez-tez səsləndirilir. Şəhərsalma ilə bağlı ictimai müzakirələrdə də geniş həyətlər, yeraltı parkinqlər, piyada zonaları və yaşıllıq sahələrinin artırılması kimi tələblər ön plana çıxır.




"İDEA" İctimai Birliyinin "Abad Həyət" layihəsi əsasında abadlaşdırılan həyətlər




Məhz buna görə MTK-lar "Abad həyət" modelindən faydalanaraq öz layihələrində geniş, yaşıllıqla zəngin həyətlərin yaradılması, uşaq və idman meydançalarının salınması, çoxmərtəbəli yeraltı parkinqlərin tikilməsi və bu kimi prinsipləri tətbiq edə bilərlər. Bu yanaşma yalnız yaşayış komplekslərinin estetik görünüşünü yaxşılaşdırmır, həm də onların maddi və mənəvi dəyərini də artırır. Yeni binalarda mənzil almaq istəyənlər də həmçinin rahat, təhlükəsiz və abad həyətlər axtarırlar. Buna görə də həyət infrastrukturuna investisiya qoyan MTK-lar yuxarıda qeyd etdiyimiz prinsipləri tətbiq etməklə rəqabət üstünlüyü əldə etmiş olurlar.

Nəticə etibarilə IDEA İctimai Birliyinin "Abad həyət" uğurlu şəhərsalma və sosial məsuliyyət nümunəsidir. Layihənin təcrübəsi göstərir ki, keyfiyyətli yaşayış mühiti yaratmaq üçün insanların rahatlığı, təhlükəsizliyi və sosial ehtiyacları əsas olaraq nəzərə alınmalıdır. Bu səbəbdən "Abad həyət" layihəsi yeni yaşayış komplekslərini inşa edən şirkətlər üçün nümunəvi model qəbul və tətbiq oluna bilər.

*Nərminə ƏSGƏROVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

● EL HAVALARI

## "Ləzginka"nın ritmi məğrurluğa çağırışdır



**Azərbaycanda yaşayan hər bir xalq öz musiqisini, adət-ənənəsini qoruyub saxlayır. Bu gün həmin mədəniyyət nümunələri el havaları kimi toyların, məclislərin sevinc ritmlərinə çevrilir.**

"Suvar" ləzgi xalq ansamblı bütöv bir bölgədə keçirilən bütün tədbirlərdə iştirak edir. Heydər Əliyev adına Respublika Sarayında "Suvar" ləzgi xalq ansamblının 30 illik yubileyinə həsr olunmuş "30 il "Ləzginka" ritmində" adlı möhtəşəm konsert keçirilib.

Yüksək peşəkarlıqla hazırlanmış musiqi ritmləri, milli rəqslər və musiqilər tamaşaçılara unudulmaz anlar yaşatdı. Şəhidlərimizə həsr edilən musiqili kompozisiya isə tamaşaçıların qəlbini kövrəltdi. Burada səslənən musiqilər multikultural dəyərlərə önəm verən ölkəmizin mədəni həyatının tərkib hissəsi idi.

Bu gün respublikamızda elə bir xeyir məclisi olmaz ki, orada "Ləzginka" səslənməmiş olsun. Bu halın özü ləzgi xalqının zəngin mədəni irsinin, milli dəyərlərinin və sənət ənənələrinin təntənəsi deməkdir. Verilən dəyər, yaşanan ənənə sevilən musiqinin ömrünü uzadır. "Suvar" da 30 illik fəaliyyətini bu ritmlər üstündə qurur. Yüksək səviyyədə təşkil edilmiş bu möhtəşəm gecədə təqdim olunan hər bir nömrə böyük zəhmətin və peşəkarlığın nəticəsi idi və tamaşaçıların alqışını qazanmağa layiq idi.

*Sevda SULTANOVA,*
*Qusar rayon sakini*

● İSTİRAHƏT

## "Yaşıl dərə"də bələdiyyə parkı salınıb

**Şəhərin ilk saatlarıdır. Günəş şüaları "Yaşıl dərə" yaşayış massivinin üzərinə ələnərkən yeni salınmış parkın yaşıl örtüyü diqqəti cəlb edir. Təzəcə əkilmiş Eldar şamları, rəngarəng güllər, səliqə ilə salınmış piyada yolları və uşaq gülüşləri burada tamam fərqli bir ovqat yaradır. Bir vaxtlar boş və istifadəsiz qalan ərazi bu gün şəhər sakinlərinin görüş, istirahət və asudə vaxt ünvanına çevrilib.**



Sumqayıtda həyata keçirilən abadlıq və yaşıllaşdırma tədbirlərinin növbəti uğurlu nümunəsi olan bələdiyyə parkı məhz belə bir mənzərə yaradıb. Şəhərin "Yaşıl dərə" yaşayış massivində, Milli Qəhrəman Əliyar Əliyevin adını daşıyan küçədə salınmış park müasir şəhərsalma prinsiplərinə uyğun qurulmaqla yanaşı, ətraf mühitin qorunmasına və insanların rahatlığına xidmət edən mühüm sosial layihə kimi diqqət çəkir.

Ümumi sahəsi 3 min kvadratmetr olan parkın salınması Sumqayıt Bələdiyyəsinin üzərinə götürdüyü məsuliyyətli missiyanın uğurlu nəticəsidir. Layihənin hər detalında həm estetik zövq, həm də sakinlərin gündəlik tələbatı nəzərə alınıb.

Burada uşaqlar da unudulmayıb. Yelləncəklərdə əylənən uşaqların sevinc dolu səsləri parkın canlılığını daha da artırır. Valideynlər isə yaxınlıqdakı oturacaqlarda əyləşərək şirin söhbət edirlər.

Parkın yaşıllaşdırılması istiqamətində görülən işlər də diqqətəlayiqdir. Əraziyə 200 Eldar şamı, 500 müxtəlif növ dekorativ kol bitkisi və mövsümi 1000 gül əkilib. Bu yaşıllıq zolaqları təkcə gözoxşayan mənzərə yaratmır, həm də şəhərin ekoloji mühitinin sağlamlaşdırılmasına mühüm töhfə verir. Hər əkilən ağac gələcəyə ünvanlanmış bir töhfə, hər gül isə şəhərin simasına vurulmuş yeni bir rəngdir.

*İ.MƏHƏMMƏDQIZI,*
*Sumqayıt şəhər sakini*

● NÖQSAN

## Göz önündə təhlükə saçan ağac

**Qarabağa "Böyük qayıdış" proqramı uğurla həyata keçirilir. Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasəti hesabına doğma yurd-yuvalarından, rahat ev-eşiklərindən didərgin salınmış soydaşlarımız toy-bayramla geri qayıdır, həsrət qaldıqları elə, obaya qovuşurlar.**



Qarabağa aparan yol Bərdə şəhərindən keçir. Dövlətimizin qayğısı ilə Bərdə-Ağdam yolu müasir standartlar səviyyəsində yenidən qurulub. Qarabağda həyat canlandıqca bu yolla gedib-gələn maşınların sayı da artır. Yolun keçdiyi Bərdə şəhərini iki hissəyə bölən Heydər Əliyev prospektində isə neçə vaxtdır nəqliyyat vasitələri üçün ciddi təhlükə yaranıb. Yol kənarındakı böyük çinar ağacının hər an aşması gözlənilir. Qəribədir ki, hər kəsin gözü önündə olan bu təhlükə heç kəsi narahat etmir. Əlaqədar qurumlar ən qısa müddətdə tədbir görməlidirlər. Əks halda tez-tez əsən güclü küləklər nəhəng çinar ağacını yoldan keçən insanların və maşınların üzərinə aşıraraq bədbəxt hadisəyə səbəb ola bilər.

*Ədalət ƏLİYEV,*
*Bərdə şəhər sakini*



# Dünya Çempionatı - 2026



## İbrahim Hacıosmanoğlu Montellanı müdafiə etdi



**Türkiyə Futbol Federasiyasının prezidenti (TFF) İbrahim Hacıosmanoğlu milli komandanın baş məşqçisi Vinçenzo Montellaya dəstək verdiyini açıqlayıb.**

"A Spor" xəbər verir ki, Türkiyə millisinin qrup mərhələsini adlaya bilməməsindən sonra federasiya rəhbəri italiyalı mütəxəssisin istefaya göndərilməyəcəyini bildirib. "Uca Allah bizə uğur nəsib etmədi. Ürəyimiz ağrıyır. Amma unutmayaq ki, bizi bu dünya çempionatına gətirən məhz bu futbolçulardır. Onların əksəriyyəti gəncdir və gələcək turnirlərdə də komandaya rəhbərlik edəcəklər. Gənclərimizi dəstəkləməliyik", - deyə Hacıosmanoğlu bildirib. O, Montellanın və futbolçuların arxasında olduqlarını vurğulayıb: "Məşqçimizi qoruyacağıq. Bu, klub deyil. Klublarda uğursuzluqların səbəbi sabitliyin olmamasıdır. Son iki gündə bizə müxtəlif məşqçi adları göndərirlər. Biz yol yoldaşlarımızı yolda rastlaşdığımız insanlara dəyişmirik. Məşqçimizi və futbolçularımızı müdafiə edəcəyik".

Qeyd edək ki, Türkiyə millisi DÇ-2026-nın qrup mərhələsində Avstraliyaya 0:2, Paraqvaya isə 0:1 hesabı ilə məğlub olaraq pley-off şansını vaxtından əvvəl itirib.

Vinçentso Montella 2023-cü ilin sentyabrından Türkiyə millisinin baş məşqçisidir.

## "O, milliyə distant şəkildə çağırılan ilk futbolçudur"



**Braziliya Prezidenti Luiz İnasiu Lula da Silva millinin hücumçusu Neymar barədə zarafat edib. Xarici KİV-də yayılan məlumata görə, ölkə başçısı vətəndaşlarla görüş zamanı internetdə gördüyü bir zarafatı danışaraq Neymarı distant işləyən futbolçu adlandırıb.**

"Dünən internetdə belə bir zarafat gördüm ki, Neymar dünyada milliyə distant şəkildə çağırılan ilk futbolçudur. Bu sözü mən uydurmamışam, sosial şəbəkədə oxumuşam", - deyə Lula da Silva bildirib.

## Terimdən də münasibət gəldi



**Türkiyə millisinin sabiq baş məşqçisi Fatih Terim yığmanın DÇ-2026-dakı uğursuz çıxışından sonra azarkeşlərə müraciət edib.**

Təcrübəli mütəxəssis komandanın sərt və dağıdıcı şəkildə tənqid edilməməsini istəyib: "Xahiş edirəm, tənqid ediriksə, düzgün edək. Böyük komandalar və böyük ölkələr kimi davranaq. Onlar da məğlub olurlar, amma çox tez ayağa qalxmağı bacarırlar. Əsas fərq də məhz budur. Bu oyun əlbəttə ki, tənqid olunacaq və təhlil ediləcək. Yeganə xahişim odur ki, sərt və dağıdıcı olmayın. Bizi bura gətirən də onlardır və sabah yenə onlardan çox şey gözləyəcəyik. Bunu Fransadakı Avropa çempionatı zamanı qızının bətnindəki uşağa belə pislik arzulanan bir insan kimi deyirəm. Xahiş edirəm, belə etməyin. Əgər səhvlərimiz barədə sevgi və konstruktiv danışmağı bacaran ölkə olsaydıq, daha tez ayağa qalxardıq. Biz onlarla birlikdə dünya və Avropa çempionatlarına getmişik, növbəti dəfə də gedəcəyik. Sevgi ilə qalın".

## Yamal ərəblərin cavabını verdi



**Dünya çempionatı çərçivəsində keçirilən İspaniya - Səudiyyə Ərəbistanı matçından öncə ərəb azarkeşlərin stadion ətrafında rəqib "Where is Yamal?" (Yamal haradadır?) şüarları səsləndirməsi sosial şəbəkələrdə böyük rezonans doğurmuşdu.**

Səudiyyəli fanatların bu atmacasına cavab gecikməyib. İspaniya millisi meydanda rəqibinə göz açmağa imkan verməyərək Səudiyyə Ərəbistanını 4:0 hesabı ilə darmadağın edib. Matçda parlaq oyun nümayiş etdirən və qolla fərqlənən Lamin Yamal rəqib azarkeşlərin həmin videosunu öz rəsmi sosial şəbəkə hesabında paylaşaraq onlara qısaca belə cavab verib: "Mən buradayam".

## İranlı qapıçı oyunun ən yaxşısı seçildi



**DÇ-2026-nın 2-ci turunda Belçika və İran yığmaları arasında keçirilən matçın ən yaxşı oyunçusu müəyyənləşib.**

FIFA-nın rəsmi saytı xəbər verir ki, İran millisinin qapıçısı Əlirza Beyranvand oyunun ən yaxşısı adına layiq görülüb. Qapıçı görüş ərzində komandasını 7 real qol vəziyyətindən xilas edib.

Qarşılaşma 0:0 hesabı ilə başa çatıb.

## De la Fuente Səudiyyə Ərəbistanı ilə oyunu şərh edib

**İspaniya millisinin baş məşqçisi Luis de la Fuente H qrupunun 2-ci turunda Səudiyyə Ərəbistanı üzərində qazanılan 4:0 hesablı qələbəni şərh edib.**

O, komandasının xüsusilə ilk hissədə yüksək səviyyədə çıxış etdiyini bildirib: "Müstəsna birinci hissə və yaxşı ikinci hissə keçirdik. Bu nəticə bizə müsbət dinamikanı qorumağa və qarşıdakı vacib matçlara hazırlaşmağa kömək edir".

De la Fuente futbolçularla oyundan əvvəl daha intensiv və daha sürətli futbol oynamaq barədə danışdıqlarını vurğulayıb: "Bu barədə futbolçularla müzakirə aparmışdıq və hamımız razılaşmışdıq ki, oyunumuzda daha çox vertikallıq və intensivlik olmalıdır. Bu, vurduğumuz zərbələrdə də özünü göstərdi. İlk dəqiqədən rəqibə təzyiq göstərdik və onları öz cərimə meydançalarında saxlaya bildik. Bu yanaşmadan çox razıyıq. Amma inkişaf etməyə və daha da böyüməyə davam etməliyik".

## "Mənə heykəl qoyulmalıdır"



Kürasao millisinin qapıçısı Eloy Rom Ekvadorla keçirilən oyunda qeydə alınan qolsuz heç-heçədən sonra özünə abidə qoyulmasına layiq olduğunu bildirib.

Onun sözlərini "Match of the Day" yayıb: "Mənim üçün qapıçı kimi bu, demək olar ki, ideal oyun idi. Komandamızla fəxr edirəm, çünki buna birlikdə nail olduq. Mən qapımı qollardan qorudum, amma əslində, hamımız komanda kimi mübarizə apardıq. Bununla belə, düşünürəm ki, Kürasaoda mənə heykəl qoyulmalıdır".

Eloy Rom 2026-cı il dünya çempionatının qrup mərhələsinin ikinci turunda Ekvadorla keçirilən görüşün ən yaxşı oyunçusu seçilib. Qarşılaşma 0:0 hesabı ilə başa çatıb.

37 yaşlı qapıçı əsas vaxt ərzində qapısına yönələn 15 zərbəni dəf edərək dünya çempionatları tarixində 90 dəqiqə ərzində ən çox seyv edən qapıçı rekorduna imza atıb. Mütləq rekord isə əlavə vaxt da nəzərə alınmaqla 2014-cü ildə Belçikaya qarşı keçirilən oyunda 16 seyv edən ABŞ millisinin sabiq qapıçısı Tim Hovarda məxsusdur.

## Türkiyə-Paraqvay matçında maraqlı hadisə



**Türkiyə-Paraqvay (0:1) matçında qəribə hadisə yaşanıb. Türkiyə millisini turnirdən kənarlaşdıran oyuna Paraqvay yığmasının futbolçusu Matias Qalarsanın hərəkəti damğa vurub.**

Qarşılaşma zamanı oyunçuları sakitləşdirməyə çalışan salvadorlu baş hakim İvan Bartonun qolundakı saatı yerə düşüb və referi bunu hiss etməyib. Fürsətdən istifadə edən Paraqvayın qol müəllifi Qalarsa yerdən saatı götürərək gizlincə öz qoluna taxıb. Bir müddət hakimin saatı ilə meydanda qaçan futbolçu daha sonra onu Bartona geri qaytarıb.

Sosial şəbəkələrin Türkiyə seqmentində matçda sarı vərəqəsi olan Qalarsanın bu hərəkətinə görə ikinci xəbərdarlıqla meydandan qovulmalı olduğu bildirilərək hakim idarəçiliyi kəskin tənqid edilib.

## Husam Hasan: "Qətiyyətiniz yoxdursa, ikinci hissədə meydana çıxmayın"

**"Fasilədə futbolçulara dedim ki, qətiyyətiniz yoxdursa, ikinci hissədə meydana çıxmayın" Misir millisinin baş məşqçisi Husam Hasan qrup mərhələsində baş tutan Yeni Zelandiya ilə matçı (3:1) dəyərləndirib.**

O, oyundan sonra FIFA-nın Mətbuat xidmətinə danışıb: "Azarkeşlərin sayəsində özümüzü Misirdəki kimi hiss etdik. Stadion tamamilə dolu idi. Sanki Qahirə stadionunda idik. Həm buraya gələn, həm də Misirdə ekran başında gecələyən bütün xalqımızın hisslərini paylaşıram. Oyuna gəlincə, fasilədə futbolçulara dedim ki, qalib gəlməyə qətiyyətiniz yoxdursa və azarkeşlərin dəstəyindən qürur duyub özünüzə güvənməyəcəksinizsə, ikinci hissədə heç meydana çıxmayın. Salah meydanda çox ağır iş gördü. Mən onun təhlükəli tərəflərinə, bacarığına və keyfiyyətinə tam uyğun gələn mövqedə oynamasına icazə verən bəlkə də ilk məşqçiyəm. Onun üzərində çox işləmişik və gələcəkdə Salahdan daha çox şey görəcəyimizə əminəm. Bu nəslin öz gələcəyini formalaşdırmasını, yolunu təyin etməsini istədim. Biz həm yerli liqanın, həm də Afrika futbolunun səviyyəsini inkişaf etdirməyə davam etmək istəyirik".

## Messinin nəhəng heykəli ucaldıldı

**Argentinanın Neuken şəhərində milli komandanın kapitanı Lionel Messinin şərəfinə ucaldılan nəhəng heykəlin açılışı olub. Abidənin hündürlüyü 26 metrdir.**

Beləliklə, bu, Messiyə qoyulan ən hündür heykəldir. Yeni abidə 2025-ci ilin dekabrında Hindistanda açılan və bu ilin iyununda sökülən 21 metrlik heykəlin rekordunu geridə qoyub. Layihənin müəllifi rəssam Aldo Beroisadır. Bildirilir ki, heykəlin məqsədi bölgədə turizmin inkişafına töhfə verməkdir.

Abidədə Messi Argentina millisinin formasında təsvir olunub. Dünya çempionluğu kuboku isə onun ayaqları önündə yerləşdirilib.

Heykəl polad karkas üzərində betondan hazırlanıb. Qurğunun ümumi çəkisi 70 tondur.



## Niderland millisi rekordu yenilədi



**Niderland millisi dünya çempionatı tarixində ən uzunmüddətli məğlubiyyətsizlik seriyası rekordunu qırıb. Bu barədə "Opta" məlumat yayıb.**

Ronald Kumanın komandası DÇ-2026-nın 2-ci turunda İsveç yığmasını 5:1 hesabı ilə darmadağın edib. Bu qarşılaşma Niderlandın əsas və əlavə vaxtlar daxil olmaqla (penaltilər seriyası nəzərə alınmadan) dünya çempionatlarında ardıcıl məğlub olmadığı 14-cü oyun kimi tarixə düşüb. Bununla da niderlandlılar Braziliya millisinə məxsus olan tarixi rekordu yeniləyiblər. "Sambaçılar" 1958-1966-cı illər arasında dünya birinciliklərində ardıcıl 13 matçda meydanı məğlubiyyətsiz tərk etməyi bacarmışdılar.

Niderland millisinin dünya çempionatlarındakı sonuncu məğlubiyyəti 2010-cu ildə İspaniyaya qarşı final oyununda (əlavə vaxtda 0:1) olub.

## Klopp da Türkiyə yığmasının uğursuzluğundan danışdı



**Almaniyalı mütəxəssis Yürgen Klopp Türkiyə millisinin 2026-cı il dünya çempionatındakı uğursuz çıxışını şərh edib.**

"Maqenta TV"nin canlı yayımında danışan Klopp bildirib ki, türk futbolsevərlərin yaşadığı məyusluğu yaxşı anlayır: "Bu illər ərzində çoxlu türk dostlar qazanmışam və onların nə qədər məyus olduqlarını yaxşı başa düşürəm. Türkiyə turnirə böyük həvəslə başladı. Ancaq baş verənlər göstərdi ki, niyə belə güclü komanda bəzən böyük turnirlərdə məqsədinə çata bilmir. Əgər kimsə soruşsa ki, "onlar qələbəni kifayət qədər istəmirdilərmi?", cavab qəti şəkildə "xeyr" olacaq. Oyunu izləyən hər kəs futbolçuların nə qədər istəkli olduqlarını gördü. Lakin üzərlərində çox böyük təzyiq var idi və onlar bunun öhdəsindən gələ bilmədilər. Qələbəni o qədər çox istəyirdilər ki, hücum zamanı müdafiədə balansı və təhlükəsizliyi unutdular. Nəticədə turnirin əvvəlindəki oyun üslublarından uzaqlaşdılar və psixoloji təzyiq səbəbindən özləri kimi çıxış edə bilmədilər".

## Uruqvay millisinin baş məşqçisi məyusdur



**Uruqvay millisinin baş məşqçisi Marselo Byelsa komandasının dünya çempionatında Kabo Verde ilə 2:2 hesablı heç-heçə etdikləri görüşü şərh edib.**

Onun dediklərini FIFA-nın Mətbuat xidməti belə çatdırıb: "Əslində, ilk hissədə daha yaxşı, intizamlı görünürdük. Ancaq oyuna nəzarəti itirən kimi rəqib üzərindəki üstünlüyümüz dərhal yox oldu. Fasiləyə qədər 2 qol vurub önə keçsək də, son nəticədə qələbə qazana bilmədik. Həlledici amil sürəti azaltmağımız oldu. Bu, qətiyyən baş verməməli idi".

Növbəti turda Uruqvay İspaniya ilə, Kabo Verde isə Səudiyyə Ərəbistanı ilə qarşılaşacaq. Hər iki oyun iyunun 27-də Bakı vaxtı ilə saat 04:00-da başlayacaq.

## Braziliya yığmasında daha bir itki



**Braziliya millisi və İspaniyanın "Barselona" klubunun cinah hücumçusu Rafinya Haiti ilə oyunda zədələnib.**

27 yaşlı futbolçuya sağ budun əzələ zədəsi diaqnozu qoyulub. Bu səbəbdən o, Braziliya millisinin qarşıdakı rəsmi oyunlarında komandasına kömək edə bilməyəcək.

Qeyd edək ki, Braziliya millisi dünya kubokunda Mərakeşlə 1-1 hesablı heç-heçə edib, Haiti üzərində 3-0 hesablı qələbə qazanıb. Karlo Ançelottinin yetirmələri növbəti turda Şotlandiya ilə qarşılaşacaq.

## Noyer mundiallarda ən çox oyun keçirən qapıçı oldu



Almaniya millisinin qapıçısı Manuel Noyer dünya çempionatında qapıçılar tərəfindən keçirilən oyunların sayına görə rekordçu olub. O, Almaniya millisinin heyətində dünya kubokunun ikinci turunda Kot-d'İvuar ilə oyunda start heyətdə yer alıb.

Bu oyun 40 yaşlı Noyerin Almaniya millisinin heyətində dünya kubokunda 21-ci oyunu olub. Ondan əvvəlki rekord fransız Hugo Lorisə aid idi. O, dünya kubokunda 20 oyun keçirmişdi.

Noyer Almaniya millisinin heyətində 2014-cü il dünya kubokunun qalibi olub.

*Hazırladı:*
***Dönməz ABBASOV***

# Ölkəmizdə sağlamlıq turizminin coğrafiyası genişlənir

## Amma əsas marşrut Naftalan olaraq qalır

**Azərbaycan zəngin təbii müalicə resursları ilə sağlamlıq turizmi sahəsində böyük potensialı olan ölkələrdəndir. Əsas təbii müalicə ehtiyatlarımıza mineral sular, Naftalan nefti, yodlu-bromlu və duzlu göllər, əlverişli iqlim və landşaft xüsusiyyətləri, eləcə də qumlu çimərliklər daxildir.**







Ölkəmizə səfər edən turistlər üçün Bakıdan sonra ən populyar istiqamətlər Gəncə, Qəbələ və Şəkidir. Bunun əsas səbəblərindən biri həmin bölgələrdə nəqliyyat imkanlarının əlçatan olması və turizm infrastrukturunun - hotellərin, ictimai iaşə obyektlərinin, istirahət və əyləncə məkanlarının yüksək səviyyədə inkişaf etməsidir. Xatırladaq ki, 2025-ci ildə Qəbələyə gələn əcnəbi turistlər arasında Hindistan vətəndaşları üstünlük təşkil ediblər. Keçən il bu ölkənin 15 min 830 vətəndaşı Qəbələdə olub. Ümumiyyətlə, ötən il Qəbələyə Səudiyyə Ərəbistanından 10 min 30, Birləşmiş Ərəb Əmirliklərindən 6 min 84, Pakistandan 3 min 138, İsraildən 1964, Küveytdən 1601, Qətərdən 1191, Rusiyadan 844, Omandan 401, Özbəkistandan 368, Türkiyədən 366, ABŞ-dən 308, Qazaxıstandan 281, Böyük Britaniyadan 251, Bəhreyndən 148, Ukraynadan 127, Yaponiyadan 124, Çindən 103 turist səfər edib. Gələnlərin 5196 nəfəri isə digər ölkələrin vətəndaşları olublar.

Şəki qədim İpək yolunun mühüm dayanacaq məntəqələrindən biri olduğundan burada karvansaralar, məscidlər, məbədlər və sənətkar dükanları bu günədək qorunub saxlanılıb. Şəhərin XVIII əsrə aid Xan sarayı ilə birlikdə tarixi mərkəzi UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Bundan əlavə, Şəki turistlərə məşhur Şəki paxlavasını və ənənəvi piti yeməyini dadmaq imkanı da təqdim edir. Hər iki şəhər müxtəlif festivalları ilə də turistlərin diqqətini cəlb edir. Qəbələdə hər il Beynəlxalq Musiqi Festivalı keçirilir. Festival çərçivəsində konsertlərin əksəriyyəti dağ və meşə mənzərələri fonunda, açıq havada təşkil olunur. Bundan başqa, şəhərdə məşhur Qəbələ Mürəbbə Festivalı da keçirilir. Şəkidə isə hər il "İpək yolu" Beynəlxalq Musiqi Festivalı təşkil olunur. Festival çərçivəsində müxtəlif ölkələrdən gələn folklor kollektivləri öz sənətlərini nümayiş etdirirlər.

Sağlamlıq turizminin inkişafı Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bu sahənin institusional, normativ və infrastruktur baxımından gücləndirilməsi məqsədilə ardıcıl və sistemli dəstək tədbirləri həyata keçirilir. Naftalan nefti isə ölkəmizin unikal sağlamlıq turizmi resursu kimi böyük dəyərə malikdir.

Heydər Əliyevin SSRİ dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə Naftalan kurortunun inkişafı dövlət səviyyəsində xüsusi diqqət mərkəzində olmuşdur. Onun təşəbbüsü ilə şəhərin kurort kimi formalaşması sürətlənmiş, maddi-texniki bazası gücləndirilmiş, yeni sanatoriyalar, müalicə müəssisələri və sosial infrastruktur obyektləri tikilərək istifadəyə verilmişdir.

Ulu Öndərin daxili siyasət kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində sağlamlıq turizmi ölkəmizin prioritet inkişaf istiqamətlərindən birinə çevrilmişdir. Qəbul olunmuş dövlət proqramları və qanunvericilik bazası əsasında Naftalan şəhərində genişmiqyaslı yenidənqurma və abadlıq işləri aparılmış, mühəndis-kommunikasiya sistemləri tam yenilənmiş, müasir hotel və müalicə kompleksləri yaradılmışdır. Həyata keçirilən tədbirlər Naftalanın beynəlxalq səviyyəli sağlamlıq turizmi mərkəzinə çevrilməsini təmin etmiş, şəhərin turizm potensialını əhəmiyyətli dərəcədə artırmışdır. Məlumat üçün qeyd edək ki, təkcə ötən il sağlamlıq turizmi məqsədilə Azərbaycana 20 min 135 xarici vətəndaş səfər etmişdir. Onların 85,4 faizi MDB ölkələrinin payına düşmüşdür. Naftalan neft yatağı dünyada müalicəvi xüsusiyyətlərə malik yeganə neft yatağı olaraq Azərbaycanın sağlamlıq turizmi potensialının formalaşmasında mühüm rol oynayır. Bilməyənlər də bilsin ki, Azərbaycanda sağlamlıq turizminin inkişaf tarixi XII əsrdə Naftalan müalicəvi neftindən istifadə ilə başlayır. XIX əsrin sonlarında alman mühəndisi A.İ.Yeger burada ilk ödənişli müalicəxana quraraq Naftalan neftinin sənaye-kurort tətbiqinin əsasını qoymuşdur. Hətta 1904-1905-ci illərdə baş vermiş Rusiya-Yaponiya müharibəsi zamanı yapon əsgərlərinin tibbi çantalarında Naftalan mazının aşkar edilməsi bu müalicə vasitəsinin həmin dövrdə artıq beynəlxalq miqyasda tanındığını göstərir. Naftalan yağı təkcə tibbi məqsədlər üçün deyil, həmçinin kosmetologiya sahəsində də istifadə edilirdi. 1900-cü ildə Parisin gözəllik mağazalarında Naftalan yağından müxtəlif preparatlar hazırlanırdı.

2024-cü ildə Prezidentin imzaladığı sərəncama uyğun olaraq, perspektiv inkişaf istiqamətləri sırasında Naftalan neftinin tibbi təsirinin beynəlxalq standartlara uyğun şəkildə daha dərindən tədqiq olunması, klinik sübut bazasının gücləndirilməsi və bu əsasda müalicə protokollarının yenilənməsi xüsusi yer tutur. Bununla yanaşı, rəqəmsal xidmətlərin tətbiqi və inteqrasiya olunmuş sağlamlıq turizmi paketlərinin hazırlanması Naftalanın rəqabət qabiliyyətini artıracaq əsas amillərdir.

Müasir yanaşmada sağlamlıq turizmi artıq yalnız müalicə ilə məhdudlaşmır. Bu gün sağlamlıq turizmi dedikdə profilaktika, həyat keyfiyyətinin artırılması, reabilitasiya və uzunmüddətli rifah halını yaxşılaşdırmaq başa düşülür. Ekspertlərin fikrincə, bu sahədə ictimai maarifləndirmə mühüm rol oynayır. İnsanların düzgün məlumatlandırılması həm müalicə üsullarına daha rasional yanaşmanı təşviq edir, həm də sağlam həyat tərzinə cəmiyyətdə marağı artırır. Xüsusən Naftalan nefti kimi spesifik müalicə üsulları üzrə göstərişlər və əksgöstərişlər barədə dəqiq məlumatlılığın təmin edilməsi çox vacibdir.

Naftalanın beynəlxalq sağlamlıq turizmi brendi kimi formalaşması xüsusi əhəmiyyət daşıyır. Dünya, xüsusilə də Şərqi Avropa təcrübələri göstərir ki, sağlamlıq turizminin təşviqi baxımından beynəlxalq tədbirlərdə iştirak əsas mexanizmlərdən biridir. Keçirilən sərgilər, forumlar və ixtisaslaşmış konfranslar yalnız təqdimat platforması deyil, həm də real əməkdaşlıqların qurulduğu, investisiya imkanlarının müzakirə edildiyi və təcrübə mübadiləsinin aparıldığı peşəkar mühitdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Dostluq və qardaşlıq nümunəsi
Azərbaycanın dünyaya təqdim olunan inkişaf modeli
Dönməz siyasi sabitlik, dinamik iqtisadi inkişaf, artan beynəlxalq nüfuz
Bir ömrün sınağı
"Balanslı xarici siyasət tərəfdaş ölkələrin Azərbaycana olan etimadını daha da artırıb"

# Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Yaxın Şərqin uzaq sülhü, nəhayət, reallaşmaq üzrədir

**ABŞ-İran gərginliyi artıq yerini diplomatiyaya verib. İsveçrənin Bürgenştok kurortu bu iki ölkənin rəsmilərinin böyük sülh görüşlərinə evsahibliyi edir. Bu addım bütün Yaxın Şərq və dünya üçün mühüm əhəmiyyət kəsb edir. Qətər və Pakistan bu prosesdə əsas vasitəçi rollarını uğurla yerinə yetirirlər. Müzakirələrin birinci hissəsi artıq müsbət və konstruktiv ovqatda başa çatıb.**



Bu tarixi görüşün təməli bir neçə gün əvvəl qoyulmuşdu. Tərəflər iyunun 14-də müharibəni dayandırmaq üçün 14 maddəlik ilkin razılaşma əldə ediblər. İyunun 18-də isə ABŞ Prezidenti Donald Tramp və İran Prezidenti Məsud Pezeşkian bu sənədi təsdiqləyiblər. Beləliklə, tərəflər Bürgenştokda daha çətin məsələləri həll etmək üçün masa arxasına oturublar.

Bölgədəki son hərbi gərginlik səbəbindən görüşlərin təxirə salınması riski var idi. Livan cəbhəsində vəziyyətin qəfil kəskinləşməsi diplomatları da rahatsız edirdi. Lakin diplomatik səylər nəticəsində iyunun 21-də tərəflər müzakirələrə başlaya biliblər. Vasitəçilərin yaydığı birgə bəyanata görə, ilkin danışıqlar gözləniləndən daha səmərəli keçib. İndi tərəflərin qarşısında tam sülh sazişini imzalamaq üçün 60 günlük bir vaxt var. Bu 60 günlük marafon, sözsüz ki, Yaxın Şərqin təhlükəsizliyinin gələcək xəritəsini cızacaq.

Vaşinqton bu danışıqlara böyük ümidlərlə yanaşır. ABŞ-nin vitse-prezidenti Cey. Di. Vens də danışıqların gedişindən məmnundur. O, masada çox böyük irəliləyiş gördüyünü bəyan edib. C.D.Vens vurğulayıb ki, Vaşinqtonun əsas məqsədi diplomatiya yolu ilə Yaxın Şərqi tamamilə dəyişdirməkdir. ABŞ rəhbərliyi artıq köhnə münaqişə üsullarından uzaqlaşmaq və İran xalqı ilə münasibətlərdə tamamilə yeni, təmiz bir səhifə açmaq istəyir. Vitse-prezidentin sözlərinə görə, ABŞ Prezidenti Donald Tramp regionda qalıcı barışın tərəfdarıdır. Vaşinqton bəyan edir ki, əgər İran qeyri-sabitlik yaratmaqdan və nüvə silahı hədəflərindən tamamilə imtina etsə, ABŞ iqtisadi və siyasi əlaqələri kökündən müsbətə doğru dəyişməyə hazırdır.

İran tərəfi də sülh prosesində aktiv iştirak edib və ilk müsbət nəticələri açıqlayıb. İranın xarici işlər naziri Abbas Əraqçi bildirib ki, danışıqlar sayəsində ölkəsinə qarşı tətbiq edilən neft ixracı məhdudiyyətləri artıq aradan qaldırılıb. Eyni zamanda İrana qarşı yönələn dəniz blokadası da başa çatıb. O həmçinin xarici banklarda dondurulmuş milyardlarla dollar dəyərində İran aktivlərinin bir qisminin artıq sərbəst buraxıldığını təsdiqləyib. Demək olar ki, bu iqtisadi yumşalmalar Tehranı masada saxlamaq üçün mühüm addımlardır.

Bürgenştokda keçirilən dördtərəfli görüşlərdə konkret və praktiki qərarlar qəbul edilib. Birinci hissənin yekununda müəyyən razılaşmalar əldə olunub. İmzalanmış memorandumun şərtlərinə və vasitəçilik addımlarına birbaşa nəzarət etmək üçün xüsusi bir komitə yaradılıb. Hər iki ölkənin danışıqlarda iştirak edən rəsmiləri nüvə proqramı və sanksiyaların ləğvi prosesi barədə bu komitəyə müntəzəm hesabatlar təqdim edəcəklər. Tərəflər vaxt itirmədən hərəkət etmək niyyətindədirlər. Deməli, maksimum iki ay ərzində bütün mübahisəli məsələləri əhatə edən yekun sülh sazişinin mətni tam hazır olmalıdır.

Ticarətdə Hörmüz boğazının əhəmiyyəti əvəzsizdir. Əldə olunan razılığa görə, ticarət gəmilərinin təhlükəsiz keçidini təmin etmək və hər hansı yanlış anlaşılmanın qarşısını almaq üçün tərəflər arasında birbaşa və operativ rabitə kanalı açılıb. Livanla da bağlı xüsusi İşçi qrupu fəaliyyətə başlayır. Bu qrupda ABŞ və İrandan başqa, Livandakı rəsmi və hərbi tərəflər də birbaşa təmsil olunacaqlar.

Bu addımlar tərəflərin gərginliyi azaltmaqda maraqlı olduqlarının mühüm göstəricisidir. Xüsusilə Livan cəbhəsində atəşkəsin qorunması məsələsində böyük irəliləyiş var. ABŞ vitse-prezidenti Vens də bu məsələdə İsrail, Qətər və Pakistanla qurulan tərəfdaşlıqdan məmnun olduğunu bildirib.

Bürgenştokda əsas siyasi görüşlər tamamlansa da, iş hələ tam bitməyib. Həftə boyu nümayəndə heyətləri arasında texniki və ekspert səviyyəli danışıqlar davam edəcək. Bu danışıqlarda nüvə mütəxəssisləri, hüquqşünaslar və iqtisadçılar sazişin ən xırda detallarını belə dəqiqləşdirəcəklər.

Tehran və Vaşinqton arasında gərginliyi azaltmaq üçün böyük siyasi iradə göstərən Qətər və Pakistan isə artıq tərəflərin yekun sülh razılaşmasını imzalaması üçün xüsusi bir yol xəritəsi hazırladıqlarını bəyan ediblər. Bundan əlavə, danışıqların gedişinə və öhdəliklərin yerinə yetirilməsinə birbaşa nəzarət edəcək xüsusi komitənin yaradılması da bu yol xəritəsinin ən mühüm sistemlərindən biri olacaq.

Xülasə, dünya indi böyük ümidlə yekun sülh xəbərini gözləyir. Yaxın Şərqdə silahların susması qlobal sabitliyin ən böyük təminatı olacaq.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Britaniyanın Baş naziri Kir Starmer istefa verdiyini bildirib

**Böyük Britaniyanın Baş naziri Kir Starmer iyunun 22-də istefasını açıqlayıb. Leyborist Partiyasının lideri bu məsələni Kral III Çarlzla müzakirə etdiyini söyləyib. Dauninq küçəsindəki iqamətgahının qarşısında çıxış edən siyasətçi aşağı reytinqindən dərs çıxardığını bildirib.**




Starmer, Leyborist Partiyasının liderliyindən istefa verəcəyini, lakin varisi seçilənə qədər baş nazir vəzifəsini davam etdirəcəyini açıqlayıb.

"Reuters" Agentliyinin məlumatına görə, Starmerin Böyük Britaniya hökumətinin başçısı kimi reytinqi onu namizəd göstərən Leyborist Partiyasının iki il əvvəl keçirilən seçkilərdə qalib gəlməsindən bəri ən aşağı səviyyəyə düşüb. Starmerə qarşı təzyiq leyboristlərin may ayında keçirilən yerli seçkilərdəki zəif göstəricilərindən, eləcə də onun siyasətinə etiraz olaraq kabinetinin aparıcı üzvlərinin istefasından sonra artıb.

Hazırkı Baş nazirə əlavə bir zərbə onun partiyadaxili rəqibi, Böyük Mançester meri Endi Börnemin əsas parlament seçkilərində qələbəsi olub. Nəticələri 19 iyunda elan edilən bu seçkilərdəki uğuru Börnemə Leyborist Partiyasının liderliyi və Böyük Britaniyanın Baş naziri vəzifəsi uğrunda mübarizə aparmağa imkan verib.

Təxminən iki il ərzində K.Starmerin kabineti ölkəyə qanunsuz miqrasiyanın səviyyəsini əhəmiyyətli dərəcədə azaldıb və bu məsələ bir çox seçici üçün narazılıq mənbəyi olub. Hökumət həmçinin Böyük Britaniyada digər əsas daxili siyasət məsələsi olan Milli Səhiyyə Xidmətinin (NHS) fəaliyyətini yaxşılaşdırdığını iddia edir.

Lakin onun populyarlığı seçiciləri ölkənin iqtisadi vəziyyətini yaxşılaşdırmaq qabiliyyətinə inandıra bilmədiyi üçün kəskin aşağı düşməyə başlayıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi universitetin Xüsusi texnologiyalar və avadanlıqlar kafedrasının müdiri

**ƏLƏKBƏR GÜLƏHMƏD OĞLU HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Şəki Apellyasiya Məhkəməsinin kollektivi Ali Məhkəmənin hakimi Ələsgər Novruzova anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Umud Rəhimoğlu, Namiq Süleymanov, Hacı Məmmədov, İlham İbrahimov, Rafiq və Lazım Hüseynovlar, Gülalı Eminəliyev, Eldar Əliyev və Hidayət İsmayılov Azərbaycan Respublikası Hesablama Palatasının əməkdaşı Ləman Ələsgərovaya bacısı

**CAHAN ŞAHBAZ QIZI ƏLƏSGƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3778
Sifariş 807

Qiyməti 60 qəpik